RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 38 (10058) 27 fevral 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Ədalətin təntənəsi

## Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri fevralın 26-da Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev memorialın önünə əklil qoydu.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma memorial barədə məlumat verdi.

Qeyd edək ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb.

Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb.

Memorialı dörd tərəfdən əhatə edən monolit Xocalı sakinlərini soyqırımından qorumağa çalışan rəmzi əllər formasında layihələndirilib.

Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq memorialın həyətində qış fəslinin sonunda çiçək açan və yazın müjdəçisi olan badam ağacları əkilib. Bu illər ərzində "Xocalıya ədalət!" kampaniyasının rəmzi də badam çiçəyi seçilib və bu, təsadüfi deyil. Badam çiçəyi Xocalıda 1992-ci ilin fevral ayında törədilmiş soyqırımına münasibətdə ədalətin təmin olunmasını əks etdirir.

Memorial dörd bölmədən ibarətdir. İlk iki bölmədə Xocalı soyqırımı qurbanlarının xatirəsini yaşadan ekspozisiya zalı yaradılıb. Ekspozisiya ziyarətçiləri "Faciənin siması" instalyasiyası ilə qarşılayır. Rəşad Ələkbərov və Azər Rüstəmovun müəllifləri olduqları instalyasiya 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş soyqırımının qurbanlarını - qətlə yetirilmiş dinc sakinləri, məhv olmuş ailələri canlandırır.

Memorialın tavanı boyu uçuşan göyərçin maketləri isə bütün dünyaya sülh arzulayan Xocalının faciə zamanı qətlə yetirilmiş günahsız sakinlərinin xatirəsinə ehtiram əlamətidir.

XX əsrdə insanlıq əleyhinə ən dəhşətli cinayətlərdən biri olan Xocalı soyqırımına həsr edilmiş ekspozisiyada Ermənistan-Azərbaycan münaqişəsinin tarixi kökləri, işğalçılıq siyasəti və erməni terrorizminin Azərbaycan torpaqlarında törətdiyi fəsadlar sənədlər, xəritələr və faktlar əsasında təqdim olunur.

2-4

## İlham Əliyev Rəcəb Tayyib Ərdoğanı təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik edib, ona uzun ömür, cansağlığı və gələcək fəaliyyətində uğurlar arzulayıb.

Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Telefon danışığı əsnasında dövlət başçıları gələcək təmaslara dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

## Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Xocalıya səfəri ilə bağlı videoçarx paylaşılıb



Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında Xocalıya səfəri ilə bağlı videoçarx paylaşılıb.

AZƏRTAC paylaşımı təqdim edir.

**https://video.azertag.az/video/299503**

## *Azərbaycan-ABŞ münasibətləri:* 34 illik tarixin yüksəliş dövrü



Cənubi Qafqazın aparıcı dövləti kimi Azərbaycan ABŞ üçün həmişə regionun əhəmiyyətli ölkəsi sayılıb. Azərbaycanın artıq 35 ilə çatan müstəqillik tarixində ABŞ ilə münasibətlərin inkişafında hər iki tərəf üçün qarşılıqlı faydalar yaradan mühüm nailiyyətlər əldə edilib. Tarixi obyektivlik naminə yada salaq ki, qazanılmış uğurlarla yanaşı, xüsusilə müstəqilliyin ilk illərindəki səriştəsiz iqtidarlar dövründə Azərbaycanın bu münasibətlərdə itirdiyi imkanlar, yaxud ABŞ-nin bəzi siyasi dairələrinin ölkəmizə qarşı yol verdikləri yanlış yanaşmalar ucbatından ikitərəfli əlaqələrdə düyünlü nöqtələrin yaranması halları da olub. Bu gün isə Ağ Evin qlobal siyasi-iqtisadi düzənə yeni strateji baxışı, bu fövqəldövlətin dəyişən prioritetləri və bütün bunların yaratdığı böyük fürsətlər fonunda Azərbaycan-ABŞ münasibətləri 35 illik müstəqillik dövrümüzün, demək olar, ən yüksək mərhələsindədir.

Burada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diplomatik bacarığının, yaranmış hər imkandan ölkəmizin, xalqımızın milli maraqları, yaşadığımız coğrafiyanın təhlükəsizliyi və dayanıqlı inkişafı naminə istifadə məharətinin, proseslərə əsl strateq reaksiyasının müstəsna rolu vardır.

ABŞ-nin vitse-prezidenti Cey Di Vensin ailə üzvləri ilə ölkəmizə səfəri, dünyanın ən qüdrətli dövləti ilə Azərbaycan arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması, belə bir tarixi sənəddə qarşıya qoyulan məqsədlər bunun daha bir nümayişi oldu və iki ölkə arasındakı münasibətləri yeni bir institusional mərhələyə yüksəltdi.

Cənab İlham Əliyevin yaranmış qlobal imkanları ölkəmizin və Cənubi Qafqazın gələcəyi üçün reallığa çevirmə bacarığının daha bir təzahürü kimi tarixə düşən bu anlaşma Azərbaycanla ABŞ arasında diplomatik əməkdaşlığın genişləndirilməsindən də çox regionun geosiyasi, iqtisadi və təhlükəsizlik arxitekturasına təsir edə biləcək uzunmüddətli strateji xəritə rolunu oynayır.

11




## Orta dəhlizin inkişafında Azərbaycanın rolu beynəlxalq səviyyədə qəbul olunur

Asiya ilə Avropa arasında mövcud ticarətdə əsas ölkə Çindir. Bu iki qitə arasında olan ticarətin dəyəri trilyon dollardan çoxdur və həmin rəqəm sürətlə artmaqdadır. Tərəflər arasında ticarətin aparılmasında Çin-Sibir və Süveyş kanalı ticarət marşrutları önəmli rol oynayırdı. Amma məlum olduğu kimi, Rusiya-Ukrayna müharibəsi üzündən birinci yolla ticarət tam dayanıb. Yəməndə husilərin Qırmızı dənizdə yaratdığı problem isə ikinci marşrutun sabitliyini pozub. O üzdən Orta dəhlizə olan maraq artıb və hazırda Şərqlə Qərb arasında yükgöndərən və yük qəbuledənlərin ən çox güvəndiyi məhz bu marşrutdur.

Dünyada yüklərin tez və təhlükəsiz çatdırılmasında önəmli rol oynayan Orta dəhlizə bütün tərəflər maraq göstərir. Lakin bu istiqamətdə keçirilən bütün tədbirlərə ilk növbədə Azərbaycan dəvət olunur. Artıq hamı qəbul edib ki, Azərbaycan bu marşrutda Xəzər dənizinin şərq və qərb sahillərini birləşdirən açar ölkədir və dənizaşırı yüklər məhz bizim limanlarımız vasitəsilə ötürülür.

9

## Sülhün iqtisadi formulu

### Etimad quruculuğu həm də ticarət əlaqələri ilə reallaşır

Azərbaycandan Ermənistana göndərilən yanacaq qatarları sülh prosesi çərçivəsində Bakının İrəvana yeganə humanitar jesti deyil. Prezident İlham Əliyev hələ ötən il oktyabrın 21-də Qazaxıstanda səfərdə olarkən Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırdığını bəyan etmiş, dövlət başçısının bu açıqlaması İrəvanda böyük məmnunluqla qarşılanmışdı. Məhz bu tarixi bəyanatın ardından 6 noyabr 2025-ci ildə ilk dəfə olaraq Qazaxıstandan ixrac olunan 1000 ton taxıl Azərbaycan ərazisindən keçməklə Ermənistana daşınmışdı. Sonrakı mərhələdə Rusiyadan göndərilən 8 vaqon qatarda 560 ton taxıl da ölkəmiz üzərindən Ermənistana çatdırılmışdı.



Azərbaycan və Ermənistan arasında ticarət münasibətlərinin miqyası genişlənməkdədir. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2026-cı ilin yanvar ayında Azərbaycan Ermənistana 2 milyon 403,6 min dollar dəyərində məhsul ixrac edib ki, bu, ölkəmizin ümumi ixracının 0,11 faizini təşkil edir. Sıfırdan başlayan bir ticarət üçün bu, simvolik deyil, texniki uğurdur. Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan bildirib ki, Azərbaycan tərəfi ixrac edə biləcəyi məhsulların siyahısını qarşı tərəfə verib. Eyni zamanda İrəvan da Bakıya sata biləcəyi məhsulların növünü təqdim edib: "Müzakirələr gedir, hələ ciddi rəqabət üstünlükləri yoxdur. Əlbəttə, müxtəlif mədəni-psixoloji məsələlər də var, amma bu prosesdir, ticarət olacaq. Əminəm ki, iki ölkə arasında yüz milyonlarla dollar potensial var, amma vaxt tələb olunur". Papoyan əlavə edib ki, Azərbaycandan yanacaq idxalı iş adamlarının ixtiyarındadır və proses öz relsi üzrə gedir: "Biz benzin alacağıq və burada əlçatan qiymətlərlə satacağıq".

11

# Ədalətin təntənəsi

## Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak edib






*Əvvəli 1-ci səh.*

Burada "Xocalı - qədim sivilizasiyanın izləri", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Xocalını unutma!" adlı ekspozisiyalarda Xocalının tarixi, işğalın coğrafiyası, münaqişənin xronologiyası, beynəlxalq hüquq normalarının pozulması, bəşəriyyətə qarşı törədilmiş ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımı barədə məlumatlar və Ümummilli Lider Heydər Əliyevin soyqırımına verdiyi siyasi-hüquqi qiymət nümayiş olunur.

Ekspozisiya zalındakı Xocalı maketində faciə günü yaşanan dəhşətlərə dair məlumatlar interaktiv formada təqdim olunur.

İkinci ekspozisiya zalında Sərxan Hacıyevin "Bir gecənin içində səssiz qalan evlər" instalyasiyası və faciə zamanı tamamilə məhv edilmiş 8 ailənin taleyi, insanlıq əleyhinə yönəlmiş cinayət nəticəsində bir gecədə yarımçıq qalan həyatlar, arzular, sükuta qərq olan uşaq gülüşləri süni intellektlə hazırlanan video vasitəsilə təqdim edilir.

Ekspozisiya zalında Prezident İlham Əliyevin Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması üzrə apardığı ardıcıl siyasət, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə fondun Xocalı soyqırımı qurbanlarının xatirəsinin yaşadılması və ədalətin bərqərar olması istiqamətindəki fəaliyyəti, müxtəlif dillərdə hazırlanan nəşrlər və informasiya materialları, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində görülən işlər və onun fəal iştirakı ilə bu sahədə həyata keçirilmiş tədbirlər əks etdirilir.

"Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində soyqırımı qurbanlarının xatirəsinə bir sıra ölkələrdə ucaldılmış abidələrin maketləri də burada sərgilənir.

Ekspozisiya 44 günlük Vətən müharibəsinə və dövlət suverenliyinin bərpasına dair məlumatlar, "Böyük Qayıdış" və "Viran edilən Xocalı yenidən dirçələcək" ideyası ilə tamamlanır.

Memorialın növbəti bölməsində rəsmi tədbirlərin və anım mərasimlərinin keçirilməsi üçün nəzərdə tutulan akt zalı var.

Xocalı Soyqırımı Memorialı memarlıq və ideya baxımından milli yaddaşın qorunmasına xidmət edən məkandır.

Xatırladaq ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə Xocalıda dəhşətli soyqırımı törədib. Faciə zamanı 613 nəfər qətlə yetirilib. Onların 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri ahıl insan olub. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirib.

İşğaldan azad edilən Xocalıda ucaldılan memorial soyqırımı qurbanlarının xatirəsini daim yaşadacaq və tarixi həqiqətləri hər bir ziyarətçiyə çatdıracaq.

Bu gün xalqımız XX əsrin ən dəhşətli qırğınlarından biri olan Xocalı soyqırımı qurbanlarının xatirəsini qalib ölkə, qalib xalq kimi yad edir. Xocalı qurbanlarının ruhları bu gün şaddır. Müzəffər Ali Baş Komandanın da dediyi kimi, onların qanı yerdə qalmadı, onların qisası Vətən müharibəsi zamanı döyüş meydanında alındı.

Sonra Prezident İlham Əliyev memorialın xatirə kitabına ürək sözlərini yazdı.

Daha sonra dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı







- İki il bundan əvvəl Xocalı Soyqırımı Memorial Kompleksinin təməli mənim iştirakımla qoyulmuşdur. Bu gün isə bu Memorial Kompleksin açılışına toplaşmışıq.

Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən, erməni faşistləri tərəfindən azərbaycanlılara qarşı, insanlığa qarşı, bəşəriyyətə qarşı törədilmiş qanlı hərbi cinayətdir. Bunun məsuliyyətini Ermənistan dövləti daşıyır. Bir gecə içində 600-dən çox günahsız mülki şəxs, onlardan 106-sı qadın, 63-ü uşaq erməni faşistləri tərəfindən qəddarcasına qətlə yetirilmişdir, 150 nəfər itkin düşmüş və aydın məsələdir ki, onlar da ermənilər tərəfindən öldürülmüşdür. Onların bəzilərinin işğaldan sonra qalıqları tapıldı və torpağa tapşırıldı.

Azərbaycan xalqı üçün bu, ən böyük faciədir. Bu faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün, bizim haqq işimizi dünya birliyinə təqdim etmək üçün həm Azərbaycan dövləti, həm ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, demək olar ki, bir çox qurumlar fəal çalışıblar. Burada xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istərdim. Fond yarandıqdan dərhal sonra "Xocalıya ədalət!" genişmiqyaslı hərəkatına start verdi. Bu təşəbbüsü fondun vitse-prezidenti Leyla Əliyeva həyata keçirirdi. Son 20 il ərzində onun təşəbbüsü ilə dünyanın bir çox ölkələrində bir çox tədbirlər, təqdimatlar, simpoziumlar, konfranslar keçirilmişdir, bir çox kitablar, broşürlər, bukletlər dərc edilmişdir. Çünki Ermənistan dövləti, dünya erməniliyi və dünya erməniliyinin, Ermənistan dövlətinin arxasında duran dövlətlər bu qanlı faciəni ört-basdır etməyə çalışırdılar. Hətta erməni təbliğatçıları Azərbaycanı bu faciədə günahlandırmağa çalışırdılar. Əgər biz öz haqq səsimizi ucaltmasaydıq, bu gün bəlkə də dünyada Xocalı soyqırımı ilə bağlı həqiqətə uyğun məlumat olmayacaqdı. Məhz bizim təkidli səylərimiz nəticəsində artıq 20-yə yaxın ölkə Xocalı soyqırımını soyqırımı kimi rəsmən tanıyıb və bu proses davam etdirilir.

"Xocalıya ədalət!" hərəkatının təsiri böyük olmuşdur. Yenə də deyirəm, biz ədalət tələb edirdik. Ancaq əfsuslar olsun ki, beynəlxalq təşkilatlar, dünyanın aparıcı ölkələri bizim bu faciəmizə biganə yanaşırdılar. Yenə də bildirmək istəyirəm, Ermənistan dövlətinin törətdiyi bu qanlı cinayəti ört-basdır etməyə çalışırdılar. Biz isə ədalətə addım-addım irəliləyirdik. 20-yə yaxın ölkənin Xocalı soyqırımını rəsmən tanıması bir addım idi, Vətən müharibəsi və şanlı Zəfərimiz ikinci addım idi, Xocalı şəhərinin iki il yarım bundan əvvəl azad edilməsi isə son addımlardan biri idi. Nəhayət, axırıncı addım bu yaxınlarda hərbi cinayətkarlara qarşı Bakıda keçirilmiş məhkəmə prosesi idi. Xocalı soyqırımını törətmiş, əli Azərbaycan xalqının qanına batmış quldurlar məhkəmə qarşısında cavab verməli oldular.

Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində hərbi cinayətkarların bir hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilmişdir, bir hissəsi, xüsusilə separatçıların liderləri sayılan ünsürlər isə müxtəlif dövrlərdə saxlanılmış və məhkəmə qarşısına gətirilmişdir. Bax bu, ədalətin tam təntənəsidir. Ədaləti biz özümüz təmin etdik, xalqımız bir yumruq kimi birləşərək həm 2020-ci, həm 2023-cü illərdə böyük qəhrəmanlıq göstərmişdir. Biz ədaləti Silahlı Qüvvələrimizin peşəkarlığı, fədakarlığı, rəşadəti hesabına özümüz təmin etdik. Əlbəttə ki, hərbi cinayətkarları ədalət məhkəməsinə gətirmək və ədalətli məhkəməni təşkil etmək, yenə də deyirəm, bizim ədalətimizin son nöqtəsi idi.

Dünyada nadir halda ölkələr tapılar ki, həm ədalətli müharibədə tam və mütləq qələbə qazansın, həm öz ərazi bütövlüyünü və suverenliyini hər qarış torpağı azad edərək özü təmin etsin və müharibə cinayətkarlarını məhkəmə qarşısına gətirsin. Bunu biz etdik - Azərbaycan dövləti. Bizim iradəmiz, deyə bilərəm ki, əyilməz iradəmiz bunu təmin etdi. İşğal dövründə bizə nə qədər təzyiqlər olub, təhdidlər olub, bunu Azərbaycan ictimaiyyəti yaxşı bilir. İşğal dövründə bizə tez-tez belə siqnallar ünvanlanırdı ki, reallıqla barışmaq lazımdır, Azərbaycan öz torpaqlarını azad edə bilməyəcək, böyük dövlətlər, Ermənistanın havadarları buna imkan verməyəcək, Azərbaycan Ordusu döyüş meydanında qələbə qazana bilməyəcək. Bu kimi uydurulmuş şayiələr həm geniş informasiya məkanında yayılır, həm də müxtəlif kanallar vasitəsilə Azərbaycan rəhbərliyinə çatdırılırdı. Amma bizim iradəmizə təsir edə biləcək heç bir qüvvə yox idi və bunu biz dəfələrlə bəyan etmişdik. İşğal dövründə həm mötəbər beynəlxalq kürsülərdən, eyni zamanda ovaxtkı köçkünlərlə keçirdiyim çoxsaylı görüşlər əsnasında bildirirdim ki, biz işğalla barışmayacağıq və məsələ danışıqlar yolu ilə həll olunmazsa, ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik və belə də oldu.

Birinci dəfə Prezident vəzifəsinə seçiləndən sonra andiçmə mərasimindəki çıxışımda da bildirmişdim ki, bu, bizim üçün əsas məsələdir və ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Hazırlıq dövrü çox çəkdi, bu da təbiidir. Çünki güc yığmalı idik, güc toplamalı idik. Öz haqq işimizi beynəlxalq müstəvidə təsdiqləməli idik, o cümlədən Ermənistan dövlətinin hərbi cinayətləri haqqında məlumatı çatdırmalı idik. Xocalı soyqırımı ilə bağlı həqiqətləri çatdırmalı idik və çatdırmışıq. Son illər ərzində bir çox beynəlxalq təşkilatlar məcburiyyət qarşısında bizim mövqeyimizi, ədalətli mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul etmişdir. Bu, Ermənistan-Azərbaycan münaqişəsinin həllinin hüquqi əsasını təşkil etmişdir. Biz bir çox ölkələrlə sıx ikitərəfli münasibətlər, bir çox ölkələrlə strateji tərəfdaşlıq münasibətləri qurduq. Bu da beynəlxalq müstəvidə Azərbaycan həqiqətlərini, Qarabağ münaqişəsi həqiqətlərini çatdırmaq üçün imkan yaratmışdır. Heç kimdən asılı olmayan güclü iqtisadiyyat qurduq. Güclü ordu qurduq - həm ordumuzun peşəkarlığını artırdıq, eyni zamanda əldə edilən gəlirlər hesabına silah-sursat, texnika aldıq. Yəni hər gün, hər ay biz Qələbəyə doğru addımlayırdıq və mən bunu işğal dövründə dəfələrlə demişdim ki, hər gün biz Qələbəni yaxınlaşdırmalı idik və yaxınlaşdırdıq. Cəmi 44 gün ərzində düşməni məğlubiyyətə uğratdıq, düşmən təslim oldu, kapitulyasiya aktına imza atdı və biz müharibəni dayandırdıq. Bu gün son iki il yarımlıq tarix göstərir ki, bu, nə qədər düzgün və düşünülmüş addım idi. Düzdür, o vaxt Xocalı, Xankəndi və bəzi digər yaşayış məntəqələri işğaldan azad edilməmişdi, ancaq mən bilirdim və əminəm, Azərbaycan xalqı bilirdi ki, o gün uzaqda deyil. 2023-cü ildə cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində qanunsuz xunta rejimi məhv edildi, işğalçılar torpaqlarımızdan qovuldu, torpaqlarımızda qanunsuz məskunlaşmış 15 minlik erməni ordusu tərk-silah edildi və təslim oldu. Bu da erməni separatçılığına, onların tabutuna vurulmuş son mismar idi. Xocalıya ədalət məhz o vaxt təmin edildi.

Bu gün bu Memorial Kompleksin açılışı, məhz Xocalıda açılışı ədalətin təntənəsidir. Çünki mən bunu iki il bundan əvvəl təməlqoyma mərasimində demişdim. Xocalılılarla birlikdə bu kompleksin təməlini qoyduq. O vaxt demişdim ki, Heydər Əliyev Fondu tərəfindən bu layihə çoxdan hazır idi, bax necə var, necə tikilib, elə də nəzərdə tutulmuşdu, Bakıda yer də seçilmişdi və artıq mənim son qərarım lazım idi ki, biz bunun inşasına başlayaq. Məni hər dəfə nə isə bundan çəkindirirdi. Sonra başa düşdüm o nə idi. O da inam idi ki, gün gələcək və bu Memorial Kompleksi biz Xocalıda quracağıq və belə də oldu. Bu kompleks silinməz yaddaşımızın təcəssümü olacaq.

*Ardı 3-cü səh.*

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Ədalətin təntənəsi

## Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak edib

### Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 2-ci səh.*

Biz Xocalı soyqırımını heç vaxt unutmamalıyıq. Ermənistan dövlətinin vəhşiliklərini heç vaxt unutmamalıyıq. Öz tariximizi heç vaxt unutmamalıyıq, ayıq olmalıyıq, həmişə güclü olmalıyıq, həmişə düşmən bizdən qorxmalıdır, necə ki, bu gün qorxur. Məhz bu qorxu nəticəsində bu gün Azərbaycan xalqı sülh içində yaşayır.

Əfsuslar olsun ki, Vətən müharibəsi Ermənistan dövlətinə dərs olmadı. Halbuki 2020-ci ilin Zəfərindən sonra dəfələrlə müxtəlif yollarla Ermənistan rəhbərliyinə biz öz mövqeyimizi çatdırmışdıq - heç kimə güvənməsin, heç kimə bel bağlamasın. Xarici ölkələrin hərbçiləri bizim torpağımızda bizim icazəmizlə müvəqqəti olaraq yerləşiblər. Əgər kimsə hesab edir ki, bu bizi nədənsə çəkindirəcək, səhv edir. Dəfələrlə Ermənistan tərəfinə xəbər göndərmişdik ki, separatçılığa son qoyulsun, qanunsuz xunta rejimi fəaliyyətini dayandırsın, Qarabağ torpağında yaşayan ermənilər Azərbaycan vətəndaşlığını qəbul etsinlər. Bunu dəfələrlə bildirmişdik. Hətta internet vasitəsilə reinteqrasiya proqramını təqdim etmişik, amma biz adekvat cavab almamışıq. Əksinə, separatçılar və onların arxasında duran qüvvələr daha da azğınlaşmışdı. 2020-ci ilin Zəfərindən 2023-cü ilin antiterror əməliyyatına qədər buraya dəfələrlə xarici dövlətlərin nümayəndələri qanunsuz gəlmişdilər. Bugünkü mərasimdə o ölkələrin heç adlarını çəkmək istəmirəm. Separatçılara ürək-dirək vermək üçün, onları bizə qarşı yenə də təhrik etmək üçün, Azərbaycan dövlətini, dövlətçiliyini saymamaq üçün tövsiyələr verilirdi, silahlar göndərilirdi, minalar göndərilirdi. Hesab edirdilər ki, xarici dövlətin burada məskunlaşan kontingenti bizi nədənsə çəkindirəcək. Bizi heç nədən çəkindirə bilməzdi və bir neçə saat ərzində davam edən antiterror əməliyyatı bunu bütün dünyaya göstərdi. Bizim iradəmizə qarşı çıxanın başı əziləcək.

Bu gün bu Memorial Kompleksin açılışında Xocalı sakinləri iştirak edir. Onların demək olar ki, hər biri öz yaxınlarını, qohumlarını, doğmalarını itirmişlər, uzun illər ərzində bu ağrı ilə, bu kədərlə yaşamışlar. Öz yaxınlarını itirən, öz torpağını itirən, öz doğma diyarından didərgin salınan insanlarda gör nə qədər iradə olmalı idi ki, bütün bunlara dözə bilsinlər və dözdülər də. Çünki onları saxlayan inam idi, ədalətə inam, dövlətə inam, ordumuza inam.

Bu gün bu Memorial Kompleksin timsalında biz Azərbaycan xalqının əyilməz ruhunu görürük. Çünki bu qədər, - yəni Xocalı soyqırımı XX əsrin ən qanlı cinayətlərindən biri idi və xalqımız buna məruz qalmışdı, - 30 il ərzində ədalətsizliklə üzləşən xalqımız öz mənliyini saxladı, ləyaqətini saxladı, inamını saxladı. Biz bu Memorial Kompleksin açılışında iştirak edərkən bir daha deyirik ki, bu gün Azərbaycan dövləti o qədər güclüdür ki, heç kimin ağlına bizə qarşı hər hansı bir təxribat törətmək gəlməsin. Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir.

Mən hələ Vətən müharibəsi dövründə bizim şəhərlərimiz, kəndlərimiz Ermənistan dövləti tərəfindən bombalananda demişdim ki, biz azərbaycanlıyıq, biz müharibəni də müharibənin qaydaları əsasında aparırıq və aparacağıq. Ermənilərdən fərqli olaraq günahsız, əliyalın mülki əhaliyə qarşı heç vaxt müharibə aparmamışıq və bu, bizim xalqımızı daha da ucaltdı. Bu gün xalqımıza, dövlətimizə olan hörmət, o cümlədən məhz buna görədir. O vaxt mən demişdim ki, biz qisasımızı döyüş meydanında alacağıq, aldıq da. Bütün şəhidlərin qisası alındı və bütün şəhidlərin doğmaları, yaxınları üçün bu, müəyyən təsəllidir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz onların xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Biz heç vaxt nə Xocalı soyqırımını, nə Ermənistan dövlətinin bizə qarşı törətdiyi başqa hərbi cinayətləri unutmayacağıq. Hər zaman güclü olmalıyıq və olacağıq ki, belə faciələr bir daha təkrarlanmasın.










❖ ❖ ❖

Sonra çıxış edən **Nərgiz MAHMUDOVA** dedi:

- Möhtərəm cənab Prezidentimiz.

Hörmətli tədbir iştirakçıları.

Sizi salamlayıram. Mən də o faciəni 9 yaşımda yaşamışam. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə qəddar ermənilər tərəfindən Xocalı faciəsi törədildi. Həmin vaxt mən ailəmizlə birlikdə evimizdə idik. Atışma baş verən zaman biz kəndin kənarında olduğumuza görə kəndin ortasına gəldik. Dörd bir tərəfdən mühasirəyə alınmışdıq. Biz yol tapa bilmirdik. Üz tutduq meşəyə. Qarqarçay var, oradan keçdik meşəyə, günlərlə meşədə ac-susuz, ayaqyalın, başıaçıq gəzdik, amma yol tapa bilmirdik.

Bir neçə gündən sonra orada atamın bacısı, qardaşımın həyat yoldaşı şəhid oldular. Sonra biz dumanlı, çiskinli havada bilmədən gedib erməni postunun üstünə çıxdıq. Bizi orada mühasirəyə aldılar. Erməni cəlladlar əllərində avtomat yaxınlaşdılar, əmr etdilər ki, əllərinizi qaldırın. Mən qorxudan əlimi qaldıra bilmədim. O gəldi, mənim əllərimi avtomatla qaldırdı. Atam onlara nə qədər yalvardı ki, bu qadınları buraxın getsin, məni aparın öldürün. Onlar ona baxmadılar. Bizi apardılar, tövləyə yığdılar. Biz gördük ki, xocalılılardan orada əsirlər var, bizdən əvvəl də əsir götürüblər. Bizim ən ağır, ən pis günlərimiz elə həmin vaxtdan sonra başladı. Yəni orada olan əsirlərə, öz xocalılılarımıza olmazın işgəncələr verdilər, atamı gözümün qarşısında döyməkləri, dişlərini çəkmələri - bu, doqquz yaşlı körpənin gözü qarşısında olub. Bu, günlərlə belə davam edəndən sonra biz dəyişdirildik, bizi Ağdama gətirdilər. Orada bizə ilkin tibbi yardım göstəriləndən sonra bizi Bakıya gətirdilər, üç aydan artıq xəstəxanada yatdıq. Donvurma nəticəsində ailə üzvümüzdən beş nəfərin ayağı kəsildi, ikinci qrup əlilik. Mənim atamla anamın ayağının yarası bu günə qədər də sağalmayıb.

Cənab Prezident, bizim burada olmağımızın əsl səbəbi Sizsiniz. Sizə və ailə üzvlərinizə öz dərin təşəkkürümü bildirirəm. Allah sizləri qorusun, Allah sizləri var eləsin. Allah şəhidlərimizə rəhmət eləsin. Diqqətiniz üçün çox sağ olun.

❖ ❖ ❖

Çıxış edən **Anar ƏBDÜLOV** dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Hər birinizi doğma Xocalımdan qürurla salamlayıram.

Həmin gecə, həmin gün Xocalını tərk edərkən mənim də 9 yaşım var idi. Ailə üzvlərimizlə Xocalını tərk etdik və insanlar Ağdama doğru bir ümid işığı ilə yollandılar. Lakin insanlar qarşıda onları nələrin gözlədiyini bilmirdilər. Erməni cəlladlar Xocalı sakinlərinə amansız divan tutdular. Ağdamda olduğumuz müddətdə atam hələ də gəlməmişdi, 5 gün meşədə qalmışdı. Beş gündən sonra atam çox acınacaqlı bir vəziyyətdə gəldi. Atam həmin dövrdə Ağdamda olan Azərbaycan Milli Ordusunun əsgərləri tərəfindən tapılıb gətirilmişdi. Atam, anam və mən bir müddət Bərdədə, babamgildə qaldıqdan sonra Bakıya aparıldıq və orada məskunlaşdırıldıq. Bundan sonra bizim ağır, məşəqqətli məcburi köçkünlük həyatımız başladı.

Həmin dövrlərdə təbii ki, ozamankı hakimiyyətin yarıtmaz fəaliyyəti nəticəsində Xocalı soyqırımına layiqli qiymət verilməmişdi. Təhsildən kənar qalmışdıq. Bakıda Xocalı 2 saylı tam orta məktəb çətinliklərlə fəaliyyət göstərməyə başladı. Orada təhsilimi davam etdirdim, başa vurdum, ali məktəbə qəbul oldum və oxuduğum məktəbə yenidən müəllim kimi qayıdıb fəaliyyətimi davam etdirdim. Həmin ağır illərdə bütün Xocalı sakinləri kimi, bizim ailəmiz də məşəqqətli günlər yaşayırdı və həmin dövrdəki hakim dairələr Xocalı soyqırımına layiq olan qiyməti vermirdi. Lakin məhz Ulu Öndərimiz Heydər Əliyev yenidən Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra 1994-cü ildə Xocalı soyqırımına layiqli siyasi qiyməti verdi. Bundan sonra biz dövlətimizin diqqət və qayğısını öz üzərimizdə hiss etməyə başladıq. Məhz həmin dövrdən sonra Xocalı soyqırımı "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Leyla xanımın başçılığı altında bütün dünya ölkələrinə tanıdılmağa başladı və bu da bizi çox sevindirirdi ki, artıq Xocalı həqiqətləri dünya dövlətləri tərəfindən tanınmağa başlayıb. Sevindirici haldır ki, bu gün də dünyanın bir çox ölkələri Xocalı soyqırımını, Xocalı həqiqətlərini tanımaqdadır.

Cənab Prezident, Sizin fəaliyyətiniz nəticəsində işğaldan azad olunmuş torpaqlarımızda bu gün canlanma baş verir. Bu gün azad olunmuş torpaqlara insanlar "Böyük qayıdış" proqramı əsasında qayıdırlar və biz də öz doğma Xocalımıza qayıtmışıq. Təəssüf hissi ilə bildirmək istəyirəm ki, mən bu torpaqlara atamla dönməyi arzu edirdim, lakin bu qismət olmadı. Təəssüf ki, atamın timsalında Xocalı, Vətən həsrəti ilə dünyasını dəyişmiş bir çox insanlar bu torpaqlara qayıda bilmədilər. Lakin buna baxmayaraq, biz buradayıq, biz qayıtmışıq, biz dünyasını dəyişmiş həmin insanların yurdlarına, ata yurdumuza qayıtmışıq və onların sönmüş ocaqlarını alovlandırmaqdayıq. Mən də Sizin "Böyük qayıdış" proqramınız əsasında 2025-ci ilin aprel ayında doğma yurduma - Xocalıma qayıtdım və öz sevimli peşəmi - müəllimlik sənətimi burada, öz doğma məktəbimdə yenidən davam etdirirəm.

Biz xocalılılar Sizə böyük minnətdarlığımızı bildiririk. Bu hissləri, bu qüruru bizə yaşatdığınız üçün Sizə dərin təşəkkürümüzü bildiririk. Müqəddəs Ramazan ayında Uca Yaradandan Sizə ailə üzvlərinizlə birlikdə uzun ömür, cansağlığı arzulayıram. Diqqətiniz üçün təşəkkür edirəm.

*Ardı 4-cü səh.*

# Ədalətin təntənəsi

## Prezident İlham Əliyev Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının açılışında iştirak edib






*Əvvəli 3-cü səh.*

Milli Qəhrəman Natiq Qasımovun bacısı **Kəmalə HEYDƏROVA** dedi:

- Əziz Prezidentimiz, hörmətli tədbir iştirakçıları. Hamınızı ürəkdən salamlayıram - ailəmiz adından, öz adımdan və şəhid ailələri adından. Xocalı Soyqırımı Memorialının açılışında iştirak etdiyim üçün çox sevinirəm, qürur hissi duyuram. Çox sağ olun ki, dəvət etmisiniz, bu sevinci bizə yaşadırsınız.

Mən Xocalı torpağına ayaq qoyanda keçirdiyim hissləri söyləmək mümkün deyil. Çünki bu torpaqda mənim qardaşım Natiq Qasımov döyüşüb. O, Rusiyada hərbi xidmətdə olanda erməni vəhşiləri burada azərbaycanlılara zülm edirdilər. O, əsgərlikdən gələndən sonra dayanmadı, gəldi Xocalıya. Onun qəhrəmanlığı haqqında heç nə danışmayacağam, hamı bilir.

Mən Sizə çox təşəkkür edirəm, əziz Prezidentimiz, mənim qardaşıma çox dəyər verdiniz. Ən gözəl adı - "Milli Qəhrəman" adını verdiniz. Onda anam sağ idi. İnanın ki, biz heç bilmirdik, qonşu zəng elədi ki, Natiqə "Milli Qəhrəman" adı verilib. Onun əməyi itmədi. Biz sevinirik ki, belə qəhrəmanlarımızın sayı çoxdur, şükürlər olsun. Heç bir dövlətdə, ölkədə elə bir şey yoxdur ki, 44 günlük müharibədə qalib olsun. Bu, Sizin şücaətiniz sayəsində, şəhidlərimiz, qazilərimiz, veteranlarımız sayəsində oldu.

Bir də onu demək istəyirəm ki, hansı bir ölkədə elə bir şey varmı ki, müharibə olanda həmin ölkənin cavan oğlanları növbəyə dursun. Bax, Azərbaycan elə oldu. Bu, Sizin səmimi çıxışınız əsasında oldu. Mənim oğlumun hərbi xidmət üçün yaşı çox idi, düşmürdü, özü getdi, dedi ki, dayımın qisasını alacağam. Hazırda veterandır. Çox sağ olun, Sizə çox təşəkkür edirəm.

Adı kimi mehriban, əziz Mehriban xanımımız, Birinci vitse-prezidentimiz, televizorda izləyirik, Siz şəhid ailələrini həmişə yad edirsiniz, onların balalarına dayaq olursunuz, çox sağ olun.

Gözəl qızım Leyla xanım ayın əvvəlində Gəncə səfərinə gələndə bizim qonağımız oldu. Biz çox sevindik, ailəmiz çox sevindi. İnanın ki, sevincimizin hədd-hüdudu yox idi. Biz Leyla xanımdan çox xahiş etdik ki, bizim sevincimizi, təşəkkürümüzü Prezidentimizə çatdırsın. Amma Leyla xanım mənə dedi ki, biz sizi görüşdürərik, özünüz təşəkkür edərsiniz. Bu sevinci bizə yaşatdınız, çox sağ olun, Leyla xanım, çox təşəkkür edirəm, var olasınız.

Mən həmişə inanırdım, bilirdim ki, torpaqlarımızın hamısı Sizin sayənizdə azad ediləcək. Amma Xankəndinin, illər öncə verilmiş bir torpağın azad edildiyini eşidəndə daha çox sevindim. 44 günlük müharibədə uşaqlarımız Prezidentə qəhrəmancasına dəstək oldu, əziz Prezidentimiz qalib oldu. Heç bir yerdə belə şey yoxdur.

Biz buraya dünən gəlmişik. İki il bundan qabaq da gəlmişdik, Natiqin döyüşdüyü kilsəyə getmişdik. İki il ərzində gör nə gözəl binalar tikilib, dünəndən gəzirik. Çox sağ olun, təşəkkür edirik. Bu sevinci bizə, dövlətimizə, millətimizə, şəhid ailələrinə yaşatdınız.

Xocalılılarla səmimi söhbət edirik, Allah razı olsun Sizdən, çox sağ olun. Necə təşəkkür edim ki, mənim qardaşıma bu cür dəyər verdiniz. Bir dənə də xahişim var ki, mənim qardaşımın da, - bilirəm bunun üçün çalışırsınız, - nəşi tapılsın, biz də şəhid ailələri kimi ziyarətə gedək. 30 ildən çox vaxt keçib, bizim ziyarət etməyə yerimiz yoxdur. Təkcə onu arzulayırıq, ayrı bir təmənnamız yoxdur.

Çox sağ olun, hamınıza təşəkkür edirəm. Öpürəm sizi, Leyla xanım, Allah Sizdən razı olsun, var olasınız. Çox təşəkkür edirəm.

❖ ❖ ❖

Çıxışlardan sonra xatirə şəkilləri çəkdirildi.

❖ ❖ ❖

**Qadın sakin:** Bizə bu sevinci yaşatdınız, qürur duyuruq Sizinlə. Cənab Prezident, razı olarsınızmı Sizin boynunuzu qucaqlayıb, üzünüzdən öpüm. Ona görə ki, 2011-ci ildə Siz mənim evimdə çıxış etmisiniz. Siz orada mənə söz verdiniz ki, vaxt gələcək torpaqlarımız alınacaq, sizə bundan da gözəl evlər tikiləcək. Şükür, Allah Sizi qorusun. Allah sənin balalarını, ailəni qorusun. Allah Sizi mərdimazarlardan, düşmənlərdən qorusun. Sizinlə fəxr edirəm.

**Digər qadın sakin:** Xocalını istəməyərəkdən tərk edənlər - biz xocalılılar həmişə solğun çiçəyə bənzəyirdik. Amma Sizin sayənizdə, ordumuzun gücü, şəhidlərimizin qanları, canları bahasına, gözəl Qarabağımızın gözəl guşələrindən olan Xocalımız alındı. Biz buraya ayaq basanda mən hiss etdim ki, həmin solmuş çiçəklərimiz artıq canlanıb. Bu gün Sizə, ailənizə minnətdarıq. Bir şəhid gəlini kimi, Xocalı faciəsinin canlı şahidi kimi həmişə Sizə minnətdarıq, dəstəyik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Xoşbəxt yaşayın. Sağ olun.

**Sakin:** Sizə minnətdarıq. Bizə göstərdiyiniz diqqətə görə şəhid ailəsi kimi öz təşəkkürümüzü bildiririk. Allah-Təala Sizi qorusun. Hər zaman var olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Cansağlığı arzulayıram. Sağ olun.

**Sakin:** Şəhid bacısı kimi, şəhid övladı kimi Sizə öz təşəkkürümü bildirirəm. Bizə bu qüruru yaşatdınız.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Şəhid ailəsi olaraq Sizə təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Necə yaşayırsınız burada? Hər şey yaxşıdır?

**Sakin:** Allah nəsib etsin Sizi evimizdə qonaq görək.

**Prezident İlham ƏLİYEV:** İnşallah.

**Sakin:** Sağ olun, var olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Xoş gördük Sizi. Mən Xocalıdan Milli Qəhrəman bacısıyam. Sizin atanız Ulu Öndər mənə qardaşımın Milli Qəhrəman vəsiqəsini vermişdi. Əllərindən öpürəm. Sizi də öpürük, bağrımıza basırıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Xocalılılar adından çox təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Çox sağ olun, var olasınız.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Sağ olun.

**Sakin:** Sizinlə fəxr edirəm. Sağ olun, var olun. Həmişə arxanızdayıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Kişi sakin:** Mən şəxsən Prezidentimlə görüşdüm, arzuma çatdım. Sizin bir dahiyanə sözünüz var: "Atamın vəsiyyətini yerinə yetirdim". Öpürəm Sizi, var olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Sakin:** Oğlum da 44 günlük müharibədə Vətən uğrunda, Sizin uğrunuzda, xalqımın uğrunda şəhid oldu.

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin.

**Sakin:** Allah Sizi qorusun, göydə, yerdə - hər yerdə qorusun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

Deputat **Elman MƏMMƏDOV:** Cənab Prezident gözəl ev tikilib. Bu gecə orada yatmışam.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm.

**Elman MƏMMƏDOV:** Siz dediniz ki, Elman, bu ev tikiləcək. Gəlib burada çay içəcəyik. Tikilib.

**Qadın sakin:** Allah Sizi qorusun, Sizə qurban olum. Yaxşı ki, Siz varsınız. Qaralan ocağımızı alovlandırdınız, sönən çırağımızı yandırdınız. Sizə minnətdarıq. Dualarımız Sizinlədir.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sakin:** Qəbirlərimiz tapdaq altında idi, onu ziyarətə gedirik. "Quran" oxutdururuq, Sizə dua edirik. Mənim kimi anaların duası həmişə Sizin, ailənizin üstünüzdə olsun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Hava da gözəldir.

**Qadın sakin:** Bəli, biz bu gün sevinirik, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Mən iki il əvvəl - fevralın 26-da gəlmişdim. Soyuq idi onda, təməlini qoyanda... Amma indi görün elə bil ki, yaz havasıdır.

**Qadın sakin:** Mən buradan 20 yaşımda çıxdım, yeni ailə qurmuş gənclərdən idim. Bu gün mən 3 oğul , 2 gəlin, 4 nəvə ilə qayıtmışam. Çox sevinirəm.

**Prezident İlham ƏLİYEV:** Şərait yaxşıdır?

**Qadın sakin:** Çox gözəldir, Sizin sayənizdə, cənab Prezident. Ailənizə minnətdarıq, Sizə minnətdarıq. Biz xocalılılar adından, ailəm adından Sizə minnətdarıq. Biz xocalılıların üzərində Sizin əziyyətiniz danılmazdır.

**Prezident İlham ƏLİYEV:** Mənim borcum idi.

**Qadın sakin:** Artıqlaması ilə yerinə yetirildi.

**Digər qadın sakin:** Ulu Öndərimizin davamçısısınız.

**Qadın sakin:** Bəli, davamçısı. Allah Sizə həmişə yar olsun. Xocalılıların duasını aldınız. Biz minnətdarıq. Çox xoş oldu ki, Sizinlə belə qarşılaşdıq. Bir üzümüz gülür, bir üzümüz kədərlidir.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, salamat qalın. Cansağlığı arzulayıram.

**Sakinlər:** Çox sağ olun.

**Qadın sakin:** Bu torpaqlardan top-tüfəng səsi yox, həmişə Zəfər paradının səsləri yayılsın.

**Prezident İlham ƏLİYEV:** Bəli, inşallah, elə də olacaq.

**Sakinlər:** Çox sağ olun.





# Dövlət və hökumət rəsmiləri Xocalı soyqırımı abidəsini ziyarət ediblər








Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar fevralın 26-da Baş nazir Əli Əsədov, Milli Məclisin Sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Xocalı soyqırımı abidəsini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət və hökumət rəsmiləri soyqırımı abidəsinin önünə gül dəstələri düzərək, faciə qurbanlarının əziz xatirələrini ehtiramla anıblar. Qeyd edək ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə yeksan edib. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi amansızlıqla qətlə yetirilib, 1275 dinc sakin əsir götürülüb, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib.

## Nazirlər Kabinetinin kollektivi Xocalı soyqırımı abidəsini ziyarət edib

Fevralın 26-da Nazirlər Kabinetinin kollektivi Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Bakıda soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib.



AZƏRTAC xəbər verir ki, Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi dərin ehtiramla yad edilib, abidənin önünə gül dəstələri düzülüb.

## Milli Məclisin kollektivi Xocalı soyqırımı abidəsini ziyarət edib

Fevralın 26-da Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, parlamentin komitə sədrləri, deputatlar, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Parlament Aparatının və İşlər idarəsinin əməkdaşları Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar "Ana harayı" abidəsini ziyarət ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin kollektivi Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini dərin ehtiramla yad edib, abidənin önünə gül dəstələri düzüb.

***"Azərbaycan"***



## Yeni Azərbaycan Partiyasının nümayəndələri Xocalı soyqırımı abidəsini ziyarət ediblər



Fevralın 26-da Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.

Abidənin önünə əklil və gül dəstələri qoyulub, soyqırımı qurbanlarının əziz xatirəsi ehtiramla yad olunub.

***"Azərbaycan"***

## Prokurorluq əməkdaşları Xocalı soyqırımı abidəsini ziyarət ediblər



Xocalı faciəsinin 34-cü ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev və prokurorluq orqanlarının əməkdaşları Bakının Xətai rayonunda ucaldılmış "Ana harayı" abidəsini ziyarət ediblər.

Ziyarət zamanı abidənin önünə gül dəstələri düzülüb, Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi dərin ehtiramla yad edilib.

## Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları faciə qurbanlarının xatirəsini anıblar



Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və xidmətin əməkdaşları faciə qurbanlarının xatirəsinə ucaldılmış "Ana harayı" abidəsini ziyarət etmişlər.

Abidənin önünə gül dəstələri qoyulmuş, soyqırımı zamanı həlak olanların əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

## Milli Məclis tərəfindən Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar xarici ölkələrin parlamentlərarası əlaqələr üzrə işçi qruplarına, parlamentlərin beynəlxalq komitələrinə və beynəlxalq parlament təşkilatlarına müraciətlər ünvanlanıb

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, müraciətlərdə Azərbaycan xalqının Ermənistanın Azərbaycan Respublikasının ərazilərini işğalı zamanı törətdiyi Xocalı soyqırımının 34-cü ildönümünü dərin hüznlə yad etdiyi qeyd olunaraq, Xocalı qəsəbəsinin dinc sakinlərinə qarşı törədilmiş bu amansız qətliamın XX əsrdə bəşəriyyətə qarşı həyata keçirilmiş ən ağır və dəhşətli cinayətlərdən biri kimi tarixə düşdüyü vurğulanır.

Bildirilir ki, bu soyqırımı zamanı etnik mənsubiyyətlərinə görə 63-ü uşaq, 106-sı qadın və 70-i qoca olmaqla, 613 mülki şəxs qəddarcasına qətlə yetirilib. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirib. Qurbanlara qarşı misilsiz qəddarlıqlar törədilib. Meyitlər təhqir edilib, bəzi qurbanlar diri-diri yandırılıb.

Müraciətlərdə deyilir ki, Xocalı soyqırımı beynəlxalq humanitar hüququn, insan hüquqlarının, habelə soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın, İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəza əleyhinə qarşı Konvensiyanın, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın kobud şəkildə pozulmasıdır.

Qeyd olunur ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin lokal antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası dövlətimizin və xalqımızın birlik




və həmrəyliyini təcəssüm etdirir. Bu gün Xocalı da daxil olmaqla bütün azad edilmiş ərazilərə həyat yenidən qayıdıb. Öz doğma torpaqlarında sülh və təhlükəsizlik şəraitində yaşayan xalqımız Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədi yaşadacaq.

Həmçinin məhz Azərbaycanın cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistanla sülh prosesinin başlanması və irəlilədilməsi istiqamətində ilk təşəbbüsü irəli sürdüyü, bu prosesin ötən ilin avqustunda ABŞ-nin Vaşinqton şəhərində "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in paraflanması ilə nəticələndiyi də diqqətə çatdırılır.

Bildirilir ki, bu gün iki ölkə arasında formalaşmış faktiki sülh mühiti Azərbaycanın Ermənistana yük daşınmasına tətbiq etdiyi bütün məhdudiyyətləri aradan qaldırması, neft məhsullarının ixracını təmin etməsi, eləcə də parlament üzvləri və vətəndaş cəmiyyəti nümayəndələri arasında qarşılıqlı dialoq və təmasların genişləndirilməsi kimi bir sıra etimad quruculuğu tədbirləri ilə daha da möhkəmləndirilir.

Müraciətlərdə beynəlxalq əməkdaşlığın, xüsusən də parlamentlərarası dialoqun gücünü nəzərə alaraq, Xocalı soyqırımı barədə məlumatlılığın artırılması və onun beynəlxalq səviyyədə tanınması, eləcə də təqsirkarların məsuliyyətə cəlb edilməsi istiqamətində səylərin davam etdirildiyi, bu faciənin anılmasının təkcə qurbanların xatirəsini yad etmək deyil, həm də gələcəkdə bəşəriyyətə qarşı bu cür cinayətlərin qarşısının alınmasına çağırış olduğu vurğulanır.

***"Azərbaycan"***

# İqtisadi Şuranın iclası keçirilib





Fevralın 26-da İqtisadi Şuranın iclası keçirilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində "Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrup"u tərəfindən hazırlanan "Məhkəmə və hüquq" sahəsinə və "Dövlət satınalma prosedurları" sahəsinə dair sahibkarların qaldırdığı aktual məsələlər ətraflı müzakirə olunub. Gündəlikdə olan məsələlər üzrə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, İşçi qrupun rəhbəri Natiq Əmirovun və Ali Məhkəmənin İnzibati Kollegiyasının sədri Xəqani Məmmədovun məruzələri dinlənilib.

İclasda təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və dəvət olunanlar Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimov, ədliyyə naziri Fərid Əhmədov, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov çıxış ediblər.

Yekunda iclas iştirakçılarının rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlərin həlli istiqamətində müvafiq normativ-hüquqi aktların layihələrinə dəyişiklikləri hazırlayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.

# Efiopiyanın Baş naziri Azərbaycana rəsmi səfərə gəlib




Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Abiy Əhməd Əli fevralın 26-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Efiopiyanın Baş naziri Abiy Əhməd Əlini Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşılayıblar.

# Bir sıra qurumlar Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı bəyanat yayıblar




Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir:

*"Ermənistan silahlı qüvvələri tərəfindən Xocalı soyqırımının törədilməsindən 34 il ötür.*

*Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı aparılmış işğal və soyqırımı siyasətinin ən qanlı faciələrindəndir.*

*1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri 1991-ci ilin oktyabr ayından mühasirədə saxlanmış, avtomobil və enerji əlaqəsi kəsilmiş Xocalıya hücum edərək azərbaycanlı dinc sakinlərə qarşı kütləvi vəhşiliklər törədiblər.*

*Keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməkliyi ilə erməni dəstələri tərəfindən həyata keçirilmiş qırğın zamanı Xocalıda 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın və 70 yaşlı xüsusi amansızlıqla qətlə yetirilib. 487 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb, 1275 nəfər əsir götürülüb və girovluqda işgəncələrə məruz qalıb. 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərdən birini, 25 uşaq isə valideynlərinin hər ikisini itirib. Bir çox girovun taleyi hələ də məlum deyil.*

*Bu qırğınlar yalnız hərbi əməliyyat deyil, etnik nifrət və ayrı-seçkilik siyasətinin parçası olub. Ermənistanın Azərbaycanın Bağanıs Ayrım, Cəmilli, Kərkicahan, Meşəli, Malıbəyli, Qaradağlı, Tuğ, Sələkətin və s. kimi digər yaşayış məntəqələrində də azərbaycanlılara qarşı məqsədyönlü qırğınlar həyata keçirməsi Xocalı soyqırımının sistemli və planlı xarakterini açıq şəkildə nümayiş etdirir.*

*Xocalı soyqırımı beynəlxalq hüququn, o cümlədən Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, İşgəncələrə və digər qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya və digər beynəlxalq humanitar norma və standartların kobud şəkildə pozulmasıdır. Bu faciə insanlıq əleyhinə cinayət olaraq dünya hüquq sistemində özünə layiqli qiymətini almalıdır.*

*Xocalı soyqırımının məqsədyönlü xarakteri ilə bağlı mövcud faktlar, o cümlədən soyqırımının təşkilatçılarından olan Ermənistanın keçmiş müdafiə naziri və daha sonra dövlət başçısı olmuş Serj Sarkisyanın etirafları göstərir ki, bu faciə düşünülmüş siyasətin tərkib hissəsi olub.*

*Bu gün xalqımızın sağalmayan yaralarından olan Xocalıya digər işğaldan azad olunmuş ərazilərdə olduğu kimi həyat qayıdır, dövlətimiz və xalqımız soyqırımı qurbanlarını unutmur, onların xatirəsini əbədiləşdirir.*

*Xocalı soyqırımının 34-cü ildönümündə faciənin günahsız qurbanlarının əziz xatirəsini bir daha dərin ehtiramla yad edirik.*

*Allah rəhmət eləsin!"*

❖ ❖ ❖

"Azərbaycan xalqına qarşı qanlı cinayətlərdə iştirak edən bütün şəxslər məsuliyyətə cəlb olunmalıdırlar. Xocalı işində tarixi ədalətin zəfəri gələcəkdə analoji vəhşiliklərin qarşısının alınmasının açarıdır".




Bu barədə Ankarada yerləşən Türk Dünyası Parlamentarilər Birliyi təşkilatının Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı yaydığı bəyanatda bildirilib. Dünyanın hər yerindən keçmiş parlamentariləri birləşdirən təşkilat erməni təcavüzkarlarının Xocalıda törətdiyi vəhşilikləri insanlığa qarşı cinayət və BMT-nin Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiyasının kobud şəkildə pozulması adlandırıb.

Türk Dünyası Parlamentarilər Birliyi Xocalıdakı qırğınlar kimi cinayətlərin iddia müddətinin olmadığını vurğulayıb. "Azərbaycanın yüzlərlə mülki vətəndaşına qarşı vəhşiliklərdə iştirak edən hər kəs cəzalandırılmalıdır. Xocalı unudulmayacaq!", - deyə təşkilatın baş katibi, 21-ci çağırış Türkiyə parlamentinin üzvü Nail Çələbinin imzaladığı bəyanatda bildirilir.

❖ ❖ ❖

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibliyi Xocalı soyqırımının 34-cü ildönümü ilə bağlı bəyanat yayıb.

Bəyanatda 1992-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində törədilən soyqırımının 34-cü ildönümü ilə bağlı İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Hissein Brahim Tahanın həlak olanların xatirəsini ehtiramla yad etdiyi bildirilir.



OIC General Secretariat Commemorates Khojaly Massacre

**Jeddah: 25-02-2026**

On the occasion of the 34th anniversary of the commemoration of the genocide in the town of Khojaly of the Republic of Azerbaijan, the Secretary-General of the Organization of Islamic Cooperation (OIC), Mr. Hissein Brahim Taha, has paid tribute to all those who lost their lives in the 1992 atrocities.

The Secretary-General reiterated that the Khojaly incident was a result of the illegal occupation of Azerbaijani territories by the Republic of Armenia. He referred to the Cairo Final Communiqué (Paragraph 117) adopted by the 12th Session of the Islamic Summit, held in Cairo in 2013 and to the Resolution No. 46/51-POL on "Solidarity with the victims of Khojaly Massacre of 1992," adopted by the 51st Session of the OIC Council of Foreign Ministers, held in Istanbul, Republic of Türkiye, in 2025, which considered the mass atrocities perpetrated against civilian Azerbaijani population in the occupied town of Khojaly, as war crimes, crimes against humanity and genocide.

The General Secretariat of the OIC

Baş katib Xocalı hadisəsinin Ermənistan Respublikası tərəfindən Azərbaycan ərazilərinin qanunsuz işğalının nəticəsi olduğunu bir daha vurğulayıb. O, 2013-cü ildə Qahirədə keçirilmiş İslam Zirvə Toplantısının 12-ci sessiyasında qəbul edilmiş Qahirə Yekun Bəyannaməsinə (117-ci bənd) və 2025-ci ildə Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş İƏT Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasında qəbul edilmiş "1992-ci il Xocalı qırğınının qurbanları ilə həmrəylik haqqında" 46/51-POL saylı Qətnaməyə istinad edib, işğal olunmuş Xocalı şəhərində mülki azərbaycanlı əhaliyə qarşı törədilmiş kütləvi vəhşilikləri müharibə cinayəti, insanlıq əleyhinə cinayət və soyqırımı kimi qiymətləndirib.

***AZƏRTAC***

# Xocalı soyqırımının 34-cü ildönümü münasibətilə tədbir keçirilib



Fevralın 26-da Dövlət Gömrük Komitəsində Xocalı soyqırımının 34-cü ildönümü münasibətilə tədbir keçirilib.

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, tədbirdən əvvəl komitə əməkdaşları soyqırımı abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, faciə qurbanlarının əziz xatirələrini ehtiramla yad ediblər.

Dövlət Gömrük Komitəsinin inzibati binasında keçirilən tədbirdə Xocalı soyqırımı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırov çıxış edərək Xocalı soyqırımının Azərbaycan tarixinin ən dəhşətli və faciəli səhifələrindən biri olduğunu bildirib, soyqırımı aktının yalnız xalqımıza deyil, bəşəriyyətə qarşı törədilmiş cinayət olduğunu vurğulayıb.






Tədbirdə qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edib və Ulu Öndər tərəfindən Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar siyasətin əsl mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində məqsədyönlü addımlar atılıb.

Həmçinin Heydər Əliyev Fondu tərəfindən reallaşdırılan "Xocalıya ədalət!" kampaniyasının Xocalı həqiqətlərinin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi baxımından mühüm rol oynadığı diqqətə çatdırılıb.

O da qeyd olunub ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində torpaqlarımızın işğaldan azad olunması, suverenliyimizin tam bərpası məhz o qanlı gecədə tökülən şəhid qanlarının da qisası idi. Qazandığımız şanlı zəfərin nəticəsi olaraq artıq üçrəngli bayrağımız Xocalıda dalğalanır və Xocalı yenidən qurulur.

Xocalı faciəsinin canlı şahidlərindən olan Şamil Sabiroğlu həmin gecə dinc sakinlərə qarşı törədilən misli görünməmiş cinayətlərdən danışıb.

Tədbirin sonunda Xocalı hadisələrindən bəhs edən videoçarx nümayiş olunub.

# "Azərenerji" ağacəkmə və anım tədbiri təşkil edib





Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar "Azərenerji" ASC tərəfindən Bakıda və regionlarda tədbirlər təşkil olunub.

Tədbirlər çərçivəsində ilk olaraq Xocalı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Ağdaş rayonunda inşa edilən Batareya Enerji Saxlanc Sistemlərinin ərazisində ağacəkmə aksiyası keçirilib. Qeyd olunub ki, hazırda Abşeron və Ağdaş rayonlarında ölkə tarixində ilk dəfə olaraq, ümumilikdə MDB məkanında ən iri Batareya Enerji Saxlanc Mərkəzləri tikilir və ağacəkmə aksiyasının məhz bu ərazidə keçirilməsi Xocalı qurbanlarının xatirəsinə ehtiramın ifadəsi kimi qiymətləndirilir.

Daha sonra qurumun mərkəzi inzibati binasında anım mərasimi təşkil edilib. Tədbirdə Xocalı faciəsindən ötən 34 ili əhatə edən sənədli film nümayiş olunub.

Tədbirdə çıxış edən "Azərenerji" ASC-nin sədri Baba Rzayev Xocalı soyqırımının xalqımızın yaddaşına heç zaman unudulmayan bir tarix səhifəsi olduğunu bildirərək qeyd edib ki, 2023-cü il sentyabrında Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Xocalı da düşməndən təmizləndi. Baba Rzayevin sözlərinə görə, bu gün Xocalı da daxil olmaqla bütün işğaldan azad olunan ərazilərdə Azərbaycan işığı yanır. "Özü də həmin işıq məhz azad edilən ərazilərdəki çayların üzərində yaradılan su-elektrik stansiyalarında istehsal edilən "yaşıl enerji" hesabına həyata keçirilir. Bu gün artıq Xocalı sakinləri işğaldan azad edilmiş doğma yurd-yuvalarına, Vətənlərinə geri qayıdırlar".

Tədbirdə çıxış edən digər natiqlər də Xocalı faciəsinin miqyasından, qüdrətlənən Azərbaycan dövlətinin şəhidlərin qanını yerdə qoymamasından danışıblar.

# AZƏRTAC-ın kollektivi Xocalı soyqırımı abidəsini ziyarət edib

Fevralın 26-da Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın kollektivi Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Bakıda soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edərək, önünə gül dəstələri düzüb, faciə qurbanlarının əziz xatirələrini dərin ehtiramla anıb.



Qeyd edək ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə yeksan edib. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi amansızlıqla qətlə yetirilib, 1275 dinc sakin əsir götürülüb, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib.

# Xocalıda soyqırımı qurbanlarının xatirəsinə fləş-mob

Fevralın 26-da Xocalı şəhərində Xocalı faciəsinin 34-cü ildönümü ilə bağlı soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş fləş-mob keçirilib.



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Xocalı şəhər 1 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə baş tutan anım aksiyası zamanı faciə qurbanları yad edilib, soyqırımı zamanı həyatını itirmiş 63 uşağın xatirəsinə 63 şam yandırılıb. Şagirdlər əllərində şam heç vaxt böyüməyən 63 uşağın adını səsləndirərək, onları doğma torpaqda - Xocalıda anıblar.

Tədbir şagirdlər tərəfindən səhnələşdirilmiş ədəbi-bədii kompozisiyanın nümayişi, Xocalı faciəsinə aid şeirlərin səsləndirilməsi ilə davam edib.

Fləş-mob çərçivəsində Xocalı dəhşətini əks etdirən fotosərgi də təşkil olunub. Tədbir şagirdlərin "Xocalı azaddır!" və "Xocalını unutmadıq!" şüarları səsləndirərək bu gün yenidən qurulan, uşaq gülüşləri ilə dolan, doğma sakinlərinin nəfəsi ilə isinən Xocalıya həsr olunmuş "Ay Xocalı" mahnısının sədaları altında düzülərək, "Xocalı" sözünü yazıb, qurbanları yad etməklə başa çatıb.

## “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Dövlət rüsumu haqqında”, “Reklam haqqında”, “Lisenziyalar və icazələr haqqında”, ”Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 240-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 iyul tarixli 456 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 46** **Bakı şəhəri, 23 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 240-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 iyul tarixli 456 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tariflərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 5 noyabr tarixli 200 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1034 (Cild I); 2025, № 9, maddə 868) cədvəlində "İqtisadi fəaliyyət növü" sütunu üzrə 2-ci risk dərəcəsinin iyirmi dördüncü abzası aşağıdakı redaksiyada verilsin:

"Lotereya, idman mərc və kazino oyunlarının təşkili üzrə fəaliyyət".

2."Lisenziya blanklarının və əlavələrinin hazırlanmasına sifarişin verilməsi, onların bölgüsünün həyata keçirilməsi, blanklardan istifadənin uçotunun və hesabatının aparılması Qaydası"nın və lisenziya, ümumi lisenziya, xüsusi lisenziya blanklarının və əlavələrinin formalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 avqust tarixli 295 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1433 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 16 dekabr tarixli 392 nömrəli Qərarı) aşağıdakı məzmunda 12-ci hissə əlavə edilsin:

"12. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrində kazino oyunlarının təşkilinə lisenziya" blankının forması təsdiq edilsin (13 nömrəli əlavə).

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1252 (Cild I); 2024, № 6 (II kitab), maddə 729; 2025, № 9, maddə 868) ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların Siyahısı"nın 2-ci hissəsinin 151-ci sətrindən ", kazino oyunları üçün xüsusi masalar" sözləri çıxarılsın.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 fevral tarixli 83 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 215,№ 7, maddə 912) ilə təsdiq edilmiş "Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı onların hərəkətinin dayandırılmasına dair Qaydalar"ın əlavəsində - "Valyuta sərvətləri və milli valyutanın mənbəyi və istifadə məqsədi barədə məlumatların təqdim edilməsi forması"nın 5-ci hissəsinə "**O** Mərc oyunu" sözlərindən sonra "**O** Kazino oyunları" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 47** **Bakı şəhəri, 23 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 oktyabr tarixli 748 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 41 (Cild I); 2025, № 4 (II kitab), maddə 415) ilə təsdiq edilmiş"Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.Həmin Qaydalara 4 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında dövlət məvacibinin, aylıq əlavənin və digər təminatlarla bağlı ödənişlərin həyata keçirildiyi valyutaların növləri" cədvəlinə aşağıdakı məzmunda 1.4-1-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 1.4-1. | Bəhreyn Krallığı |

2. Həmin Qaydalara 5 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin dövlət məvacibinə tətbiq edilən fərqləndirici əmsallar" cədvəlinə aşağıdakı məzmunda 10-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 10-1. | Bəhreyn Krallığı, Manama şəhəri | 3,462 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 235-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 48** **Bakı şəhəri, 24 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 235-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121 (Cild I); 2024, № 1, maddə 116, № 4, maddə 471, № 10, maddə 1180, № 11, maddə 1253, № 12 (II kitab), maddə 1461; 2025, № 9, maddə 879, № 10, maddə 974) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bəndin iyirmi ikinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda iyirmi üçüncü abzas əlavə edilsin:

"**sabit tarif** - elektrik enerjisinin istehlak səviyyəsindən asılı olmayan sabit xarakterli xərclərin tənzimləyici tərəfindən müəyyənləşdirilən hissəsinin qarşılanması məqsədilə hər bir istehlakçı üzrə tətbiq olunan aylıq tarif elementi.";

1.2. 7.13-cü bəndin üçüncü abzasının birinci cümləsindən "yalnız" sözü çıxarılsın və həmin cümləyə "tarifə" sözündən sonra ", habelə sabit tarifə" sözləri əlavə edilsin;

1.3. 8.2-ci bənd üzrə:

1.3.1. birinci abzasın birinci cümləsinə "göstərişlərinə" sözündən sonra ", habelə sabit tarifə" sözləri əlavə edilsin;

1.3.2. ikinci abzasın birinci cümləsinə (ikinci halda) "istehlakçıya" sözündən sonra "elektrik enerjisinin sayğacla müəyyənləşən dəyəri və sabit tarif barədə" sözləri əlavə edilsin;

1.4. 8.4-cü bəndə "enerjisinə" sözündən sonra "və sabit tarifə" sözləri əlavə edilsin;

1.5. 8.14-cü bəndə, 8.18-ci bəndin birinci cümləsinə, 8.22-ci, 9.1-ci, 9.10-cu, 10.3-cü və 10.13-cü bəndlərə ismin müvafiq hallarında "haqqı" sözündən sonra ismin müvafiq hallarında "və sabit tarif" sözləri əlavə edilsin;

1.6. 8.22-ci və 8.28-ci (hər iki halda) bəndlərə "elektrik enerjisi sərfinə" sözlərindən sonra "və sabit tarifə" sözləri əlavə edilsin;

1.7. 9.13.2-ci yarımbəndə "müəyyənləşən" sözündən sonra "dəyəri və sabit tarif barədə" sözləri əlavə edilsin;

1.8. 9.13-cü bəndin səkkizinci abzasının ikinci cümləsinə (hər iki halda) "dəyərini" sözündən sonra "və sabit tarifi" sözləri əlavə edilsin;

1.9. Qaydalara 1 nömrəli əlavə - "Enerji təchizatı müəssisəsi ilə istehsal, dəmir yolu nəqliyyatı, elektrikləşdirilmiş şəhər nəqliyyatı müəssisəsi (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi" üzrə:

1.9.1. 10-cu hissənin birinci abzasından "yalnız" sözü çıxarılsın və həmin hissəyə "göstərişinə" sözündən sonra "və sabit tarifə" sözləri əlavə edilsin;

1.9.2. 11-ci hissənin birinci cümləsinə "tarif" sözündən sonra "və _____ manat sabit tarif" sözləri əlavə edilsin;

1.9.3. 12-ci hissənin ikinci abzasına "elektrik enerjisinə" sözlərindən sonra "və sabit tarifə" sözləri, "haqqı" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin;

1.9.4. 16-cı hissəyə "haqqını" sözündən sonra "və sabit tarifi" sözləri əlavə edilsin;

1.10. Qaydalara 2 nömrəli əlavə - "Enerji təchizatı müəssisəsi ilə qeyri-istehsal müəssisəsi, ticarət, ictimai iaşə və digər növ xidmət müəssisəsi (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi" üzrə:

1.10.1. 9-cu hissənin birinci abzasından "yalnız" sözü çıxarılsın və həmin abzasa "göstərişinə" sözündən sonra "və sabit tarifə" sözləri əlavə edilsin;

1.10.2. 10-cu hissənin birinci cümləsinə "tarif" sözündən sonra "və _____ manat sabit tarif" sözləri əlavə edilsin;

1.10.3. 11-ci hissənin ikinci abzasına "elektrik enerjisinə" sözlərindən sonra "və sabit tarifə" sözləri, "haqqı" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin;

1.10.4. 15-ci hissəyə "haqqını" sözündən sonra "və sabit tarifi" sözləri əlavə edilsin;

1.11. Qaydalara 3 nömrəli əlavə - "Enerji təchizatı müəssisəsi ilə büdcədən maliyyələşdirilən təşkilat (bundan sonra - abonent) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi" üzrə:

1.11.1. 9-cu hissənin birinci abzasından "yalnız" sözü çıxarılsın və həmin abzasa "göstərişinə" sözündən sonra "və sabit tarifə" sözləri əlavə edilsin;

1.11.2. 10-cu hissənin birinci cümləsinə "tarif" sözündən sonra "və _____ manat sabit tarif" sözləri əlavə edilsin;

1.11.3. 11-ci hissənin ikinci abzasına "elektrik enerjisinə" sözlərindən sonra "və sabit tarifə" sözləri, "haqqı" sözündən sonra "və sabit tarif" sözləri əlavə edilsin;

1.11.4. 15-ci hissəyə "haqqını" sözündən sonra "və sabit tarifi" sözləri əlavə edilsin;

1.12. Qaydalara 4 nömrəli əlavə - "Enerji təchizatı müəssisəsi ilə məişət abonenti (əhali) arasında elektrik enerjisinin alqı-satqısının birtipli Müqaviləsi" üzrə:

1.12.1. 3-cü hissədən "yalnız" sözü çıxarılsın və həmin hissəyə "göstərişinə" sözündən sonra "və sabit tarifə" sözləri əlavə edilsin;

1.12.2. 4-cü hissənin birinci cümləsinə "tarif" sözündən sonra "və _____ manat sabit tarif" sözləri əlavə edilsin;

1.13. Qaydalara 7 nömrəli əlavə - "Enerji təchizatı müəssisəsinin nümayəndələri tərəfindən məişət abonentinə (özünəxidmət üsulu tətbiq olunmadıqda) təqdim edilən elektrik enerjisi sərfinə görə birtipli Ödəniş Sənədi" üzrə:

1.13.1. adına "elektrik enerjisi sərfinə" sözlərindən sonra "və sabit tarifə" sözləri əlavə edilsin;

1.13.2. "tarif" xanasından sonra aşağıdakı məzmunda xana əlavə edilsin:

| | |
|---|---|
| sabit tarif | |

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585, № 7, maddə 902, № 9, maddələr 1048, 1063; 2025, № 2, maddə 187, № 9, maddə 874) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 1-ci hissəsinə "Elektrik enerjisi" sözlərindən sonra "(o cümlədən sabit tarif)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 357 nömrəli, 10 dekabr tarixli 385 nömrəli və 25 dekabr tarixli 412 nömrəli, 2026-cı il 2 fevral tarixli 34 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "222210. "Elektrik enerjisi haqqının ödənilməsi" maddəsinə "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 22 dekabr tarixli 561 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2756 (Cild I); 2024, № 1, maddə 83) ilə təsdiq edilmiş "Dövlət peşə təhsili müəssisəsini maliyyələşdirmə normativləri"nin 2.1.12-ci yarımbəndinin ikinci abzasına "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri, üçüncü abzasına "sərfiyyatla" sözündən sonra "və sabit tariflə" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 fevral tarixli 33 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 184 (Cild I); 2024, № 1, maddə 83) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri"nin 2.1.12-ci yarımbəndinin ikinci abzasına "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri, üçüncü abzasına "sərfiyyatla" sözündən sonra "və sabit tariflə" sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 100 (Cild I); 2024, № 1, maddə 75) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"nin 2.1.10-cu yarımbəndinin ikinci abzasına "dəyərinin" sözündən sonra "və sabit tarifin" sözləri, üçüncü abzasına "sərfiyyatla" sözündən sonra "və sabit tariflə" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 314 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 733; 2025, № 10, maddə 993) ilə təsdiq edilmiş "Qapalı paylayıcı şəbəkələrin fəaliyyət Qaydaları"nın 4.6.4-cü yarımbəndinə "dəyərini" sözündən sonra "və sabit tarifi" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 246-VIIQD nömrəli Qanununun tətbiqi və “Dövlət borcu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 avqust tarixli 610 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 467 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 50** **Bakı şəhəri, 23 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 246-VIIQD nömrəli Qanununun tətbiqi və "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 avqust tarixli 610 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 467 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 10 aprel tarixli 84 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 306 (Cild I) ilə təsdiq edilmiş "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun vəsaitinin idarə olunması, uçotunun aparılması və istifadəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə "və dövlət zəmanəti üzrə öhdəliklərin yerinə yetirilməsini" sözləri ", dövlət zəmanəti üzrə öhdəliklərin yerinə yetirilməsini və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.13-cü maddəsinə uyğun olaraq verilmiş büdcə ssudalarının geri qaytarılmasını" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 3.8-ci bənd əlavə edilsin:

"3.8. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.13-cü maddəsinə uyğun olaraq büdcə ili ərzində dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə, büdcə təşkilatlarına, dövlət adından yaradılan publik hüquqi şəxslərə və dövlət büdcəsindən maliyyə yardımı alan digər hüquqi şəxslərə verilən büdcə ssudaları həmin şəxslər tərəfindən il ərzində qaytarıla bilmədikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi verilən büdcə ssudalarının bağlanılması (ödənilməsi) üçün Fondun vəsaitindən istifadə edə bilər.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 357 nömrəli, 10 dekabr tarixli 385 nömrəli, 25 dekabr tarixli 412 nömrəli və 2026-cı il 2 fevral tarixli 34 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə"nin 1.4.1.9-cu yarımbəndində "və dövlət zəmanəti üzrə öhdəliklərin yerinə yetirilməsini" sözləri ", dövlət zəmanəti üzrə öhdəliklərin yerinə yetirilməsini və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.13-cü maddəsinə uyğun olaraq verilmiş büdcə ssudalarının geri qaytarılmasını" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 219 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 49** **Bakı şəhəri, 24 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun və Azərbaycan Respublikası Prezidentinin "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" 2025-ci il 17 fevral tarixli 331 nömrəli və "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin təyin edilməsi və onların fəaliyyətinin təmin olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1936 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2026-cı il 27 yanvar tarixli 592 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 219 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 879 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında və ikinci abzasda "təmsilçilik xərclərinin" sözləri "təmsilçilik müavinətinin" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda nümayəndələrinin saxlanma xərclərinin (o cümlədən təmsilçilik xərclərinin) norma və ödəniş Qaydaları" üzrə:

2.1. adında, 1.1-ci bənddə (hər iki halda) ismin müvafiq hallarında "təmsilçilik xərcləri" sözləri ismin müvafiq hallarında "təmsilçilik müavinəti" sözləri ilə əvəz edilsin;

2.2. 1.2-ci bənddə "əri (arvadı), uşaqları və 18 yaşına çatmış əmək qabiliyyəti olmayan övladları" sözləri "arvadı (əri), 18 yaşına çatmamış uşaqları və övladlığa götürdüyü şəxslər, həmçinin 18 yaşından yuxarı əmək qabiliyyəti olmayan övladları və övladlığa götürdüyü şəxslər" sözləri ilə əvəz edilsin;

2.3. 3-cü hissənin adında "təminat" sözü "xidmət (sığorta)" sözləri ilə əvəz edilsin;

2.4. 3.1-ci bəndin birinci cümləsində və 7.5-ci bənddə "onlarla birlikdə yaşayan" sözləri "onların" sözü ilə əvəz edilsin;

2.5. 3.2-ci bəndin birinci cümləsində "onlarla birlikdə yaşayan" sözləri "onların" sözü ilə, "təminat" sözü isə "xidmət (sığorta)" sözləri ilə əvəz edilsin;

2.6. aşağıdakı məzmunda 3.3-cü, 3.4-cü, 7.2-1-ci və 7.9-cu bəndlər əlavə edilsin:

"3.3. Xarici ölkədəki nümayəndələr və onların ailə üzvlərindən xidməti zərurətlə bağlı, həmçinin növbəti məzuniyyət zamanı müxtəlif tipli tibbi arayışlar və tibbi test nəticələri tələb olunduqda xərclər təsdiqedici sənədlər əsasında xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər hesabına ödənilir.

3.4. Xarici ölkədəki nümayəndələr xidməti zərurətlə bağlı üçüncü dövlətə ezamiyyətə göndərildikdə, ezamiyyət müddətinin günlərinə uyğun əlavə səyahət sığortası tələb olunduqda xərclər təsdiqedici sənədlər əsasında xərclər smetasında bu məqsəd üçün nəzərdə tutulmuş vəsaitlər hesabına ödənilir.";

"7.2-1. Xarici ölkədəki nümayəndəyə onunla birlikdə yaşayan 18 yaşına çatmamış uşaqlarına və övladlığa götürdüyü şəxslərə görə onun dövlət məvacibinə fərqləndirici əmsal tətbiq edildikdən sonra alınan məbləğin 2 (iki) faizi həcmində bu Qaydaların 1.4-cü bəndi nəzərə alınmaqla aylıq müavinət ödənilir.";

"7.9. Xidmət dövründə xarici ölkələrdəki nümayəndələr və onlarla birlikdə yaşayan ailə üzvləri Azərbaycan Respublikasının və qəbul edən dövlətin tərəfdar çıxdıqları beynəlxalq müqavilələrlə müəyyən olunmuş güzəştlərdən, imtiyazlardan və immunitetlərdən istifadə edirlər.";

2.7. 4-cü hissə, 6.3-cü və 7.6-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"4. Nəqliyyat və yüklərin daşınması xərcləri

4.1. Xarici ölkələrə nümayəndə təyin olunduqda və geri çağırıldıqda, habelə xidmətinə xitam verildikdə xidmət keçdiyi dövlətə və onun müvafiq şəhərinə getmək və Azərbaycan Respublikasına qayıtmaqla əlaqədar tutduğu vəzifə və ailə üzvlərinin sayı nəzərə alınmaqla nəqliyyat xərcləri (onların xarici dövlətlərdə yaşadıqları ünvandan limana (vağzala) kimi olan nəqliyyat xərcləri də daxil olmaqla), habelə yüklərin daşınması xərcləri (ailə üzvlərinin hər biri üçün 80 kq-dək, yükün ümumi çəkisi 240 kq-dan artıq olmamaqla) bu məqsədlər üçün xərclər smetasında nəzərdə tutulmuş vəsaitlər hesabına müvafiq təsdiqedici sənədlər əsasında ödənilir.

4.2. Xarici ölkədəki nümayəndələrə verilən növbəti məzuniyyətlə əlaqədar onların və ailə üzvlərinin, habelə xarici ölkədəki nümayəndələrin növbəti məzuniyyətə çıxıb-çıxmamasından asılı olmayaraq, onların ailə üzvlərinin ildə 1 (bir) dəfə Azərbaycan Respublikasına gəlmək və xarici ölkədəki nümayəndələrin xidmət keçdiyi dövlətə və onun müvafiq şəhərinə qayıtmaq həddində nəqliyyat xərcləri, həmçinin ailə üzvünün (üzvlərinin) ölümü ilə əlaqədar xarici ölkədəki nümayəndələrin, onların ailə üzvlərinin Azərbaycan Respublikasına gəlməsi və xidmət keçdiyi dövlətə qayıtması ilə bağlı nəqliyyat xərcləri bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulmuş qaydada ödənilir.";

"6.3. Təhsil xərcləri bu Qaydaların 6.2-ci bəndində nəzərdə tutulmuş normadan yuxarı olduğu təqdirdə, həmin fərq nümayəndənin şəxsi vəsaiti hesabına ödənilir.";

"7.6. Xarici ölkələrdəki nümayəndələrin xaricdə xidmət etdikləri dövrdə əldə etdikləri vəsaitin və əmlakın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasına gətirilməsinə görə gömrük ödənişləri tutulmur.";

2.8. 5.1-ci bəndin birinci cümləsində "və onlarla birlikdə yaşayan ailə üzvlərinin fəaliyyət göstərdikləri ölkələrdə" sözləri "tutduğu vəzifə və ailə üzvlərinin sayı nəzərə alınmaqla fəaliyyət göstərdikləri ölkələrdə məişət ləvazimatı (mebel, inventar və avadanlıqlar) ilə komplektləşdirilmiş" sözləri ilə, ikinci cümləsində "onlarla birlikdə yaşayan" sözləri "onların" sözü ilə əvəz edilsin;

2.9. 5.3-cü bənd ləğv edilsin;

2.10. 5.11-ci bəndin ikinci cümləsində "nümayəndə ilə birlikdə yaşayan" sözləri "nümayəndənin" sözü ilə əvəz edilsin;

2.11. 6-cı hissənin adında "haqqı ilə bağlı müavinət" sözləri "xərcləri" sözü ilə əvəz edilsin;

2.12. 6.1-ci bənddə "nümayəndə ilə birlikdə yaşayan və ümumi təhsil müəssisəsində oxuyan ailə üzvlərinin təhsil haqqı ilə bağlı müavinətin" sözləri "nümayəndənin ümumi təhsil pilləsi üzrə (məktəbəhazırlıq, ibtidai, ümumi orta və tam orta təhsil) təhsil alan ailə üzvlərinin təhsil xərclərinin" sözləri ilə əvəz edilsin;

2.13. 6.2-ci bənddə "haqqı ilə bağlı müavinət xarici ölkədəki nümayəndə ilə birlikdə yaşayan və ümumi təhsil müəssisəsində oxuyan" sözləri "xərcləri xarici ölkədəki nümayəndənin ümumi təhsil pilləsi üzrə təhsil alan" sözləri ilə əvəz edilsin;

2.14. 7.1-ci bənddə "xərci" sözü "müavinəti" sözü ilə əvəz edilsin;

2.15. 7.2-ci bənddə "yaşına çatmış əmək qabiliyyəti olmayan övladları" sözləri "yaşından yuxarı əmək qabiliyyəti olmayan övladları və övladlığa götürdüyü şəxslər" sözləri ilə əvəz edilsin;

2.16. 7.7-ci bənddə "onunla birlikdə yaşayan ailə üzvü öldükdə, onların cəsədinin" sözləri "onların ailə üzvləri xaricdə vəfat etdiyi təqdirdə, nəşin" sözləri ilə əvəz edilsin;

2.17. həmin Qaydalara əlavə - "Xarici ölkələrdəki nümayəndələrin yaşayış sahəsi ilə təminat norması" üzrə:

2.17.1. yuxarı sağ küncdə "təmsilçilik xərclərinin" sözləri "təmsilçilik müavinətinin" sözləri ilə əvəz edilsin;

2.17.2. "Qeydlər"in 1-ci hissəsində "nümayəndə ilə birlikdə yaşayan" sözləri "nümayəndənin" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 7 may tarixli 96 nömrəli Qərarı ilə təsdiq edilmiş “Əlavə dəyər vergisi üzrə gömrük borcunun məbləğinin hesablanması Qaydası”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 51** **Bakı şəhəri, 24 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 242-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 7 may tarixli 96 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 470 (Cild I) ilə təsdiq edilmiş "Əlavə dəyər vergisi üzrə gömrük borcunun məbləğinin hesablanması Qaydası"nın 1.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"1.3. Gömrük borcu hesablanmış gömrük ödənişləri üzrə borclu olan və ya Gömrük Məcəlləsinin 258.1-ci maddəsində nəzərdə tutulmuş üsullardan istifadə etməklə təminat verildikdə, həmin təminat üzrə öhdəlik daşıyan şəxslər tərəfindən ödənilə bilər. Fiziki şəxslər tərəfindən gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların keçirilməsi ilə əlaqədar yarana biləcək gömrük ödənişləri sahibkarlıq subyekti olmayan fiziki şəxs, habelə Gömrük Məcəlləsinin 258.1-ci maddəsində nəzərdə tutulmuş üsullardan istifadə edilməklə təminat verildikdə, həmin təminat üzrə öhdəlik daşıyan şəxslər tərəfindən ödənilə bilər.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 18 mart tarixli 84 nömrəli Qərarı ilə təsdiq edilmiş “Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 56** **Bakı şəhəri, 24 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 138-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 358 nömrəli Fərmanının 2-ci hissəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 18 mart tarixli 84 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 4, maddə 457 (Cild I); 2024, № 7, maddə 925) ilə təsdiq edilmiş "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası"nın 3.8-ci bəndinin ikinci cümləsinə "halda" sözündən sonra "şəxsin hərbi qeydiyyatda olduğu" sözləri, "bölmələri" sözündən sonra ", Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və ya Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

## “Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətindən alınmış problemli aktivlərin əvəzində mövcud qanunvericiliyə uyğun olaraq əldə edilmiş və balansında olan, balans dəyəri 1 (bir) milyon manatdan çox olan əmlakların, yerli və xarici aktivlərin və ya onlar üzrə borcların tələb hüquqlarının satılması və kənar idarəçilərə idarəetməyə verilməsi üzrə Müsabiqə Komissiyasının yaradılması barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 avqust tarixli 267 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 53** **Bakı şəhəri, 24 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı tərəfindən "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətindən alınmış problemli aktivlərin əvəzində mövcud qanunvericiliyə uyğun olaraq əldə edilmiş və balansında olan, balans dəyəri 1 (bir) milyon manatdan çox olan əmlakların, yerli və xarici aktivlərin və ya onlar üzrə borcların tələb hüquqlarının satılması və kənar idarəçilərə idarəetməyə verilməsi üzrə Müsabiqə Komissiyasının yaradılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 avqust tarixli 267 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1250 (Cild I); 2024, № 9, maddə 1090) 1-ci hissəsində "Azər Bayramov - Azərbaycan Respublikası maliyyə nazirinin müavini" sözləri "Anar Kərimov - Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 199 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektrik enerjisindən istifadəyə görə birinci dərəcəli istehlakçıların (elektrik enerjisi təchizatının dayandırılmasına icazə verilməyən təşkilatların) Siyahısı”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 54** **Bakı şəhəri, 24 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 809 (Cild I); 2025, № 8, maddə 802; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 dekabr tarixli 412 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadəyə görə birinci dərəcəli istehlakçıların (elektrik enerjisi təchizatının dayandırılmasına icazə verilməyən təşkilatların) Siyahısı"nın "Büdcədən qismən maliyyələşdirilən təsərrüfat hesablı istehlakçılar" bölməsinin üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

## “Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 195-VIIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 55** **Bakı şəhəri, 24 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 195-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 may tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 565 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli və 2026-cı il 14 yanvar tarixli 14 nömrəli qərarları) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bəndə və 2.3.3-cü yarımbəndə "matroslar," sözündən sonra "kursantlar," sözü əlavə edilsin;

1.2. 2.3.4-cü yarımbəndə "baş matros," sözlərindən sonra "kursant," sözü əlavə edilsin;

1.3. 2.6.2-ci yarımbəndə "matrosların," sözündən sonra "kursantların," sözü əlavə edilsin.

2. "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi"nin və "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 4 avqust tarixli 274 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 960 (Cild I); 2025, № 5, maddə 504) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi"nin 1.3-cü bəndinə "ali" sözündən sonra "və orta ixtisas" sözləri əlavə edilsin, 2.1.1-ci, 9.2.3-cü yarımbəndlərində və 4.3-cü bəndində ismin müvafiq hallarında "ali hərbi məktəblər" sözləri ismin müvafiq hallarında "hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali və orta ixtisas təhsili müəssisələri" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsi"nin 1.3-cü bəndinə "ali" sözündən sonra "və orta ixtisas" sözləri əlavə edilsin, 2.1.1-ci, 9.2.3-cü yarımbəndlərində və 4.3-cü bəndində ismin müvafiq hallarında "ali hərbi məktəblər" sözləri ismin müvafiq hallarında "hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali və orta ixtisas təhsili müəssisələri" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 dekabr tarixli 524 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2240 (Cild I) ilə təsdiq edilmiş "Dəfn mərasiminin təşkili və keçirilməsi zamanı hərbi ehtiram göstərilən şəxslərin uçotunun aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.5-ci yarımbəndə "keçən," sözündən sonra "hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali və ya orta ixtisas təhsili müəssisəsində təhsil alan," sözləri əlavə edilsin;

3.2. 3.6-cı bəndə "əsgər," sözündən sonra "matros, kursant," sözləri əlavə edilsin;

3.3. 3.10-cu bəndə "matros," sözündən sonra "kursant," sözü əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 may tarixli 153 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 720 (Cild I); 2024, № 4, maddə 449; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 dekabr tarixli 412 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınmaqla kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının və işçilərinin, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin işçilərinin və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan digər işçilərin və şəxslərin fərdi uçotu Qaydası"nın 1.1-ci bəndinə "qulluqçuları" sözündən sonra ", kursantlar" sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***




# "Özümüzü xoşbəxt hiss edirik"

## Prezident İlham Əliyevin doğma yurdlarında Xocavənd sakinləri ilə görüşü duyğulu anlarla yadda qaldı

"Əminəm ki, bütün Azərbaycan xalqı, siz də hər zaman inanırdınız ki, bu gün gələcək və bu torpaqları biz azad edəcəyik, ədaləti bərpa edəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Bildiyiniz kimi, vaxtilə işğal edilmiş torpaqların böyük hissəsi beş il bundan əvvəl Vətən müharibəsi zamanı azad olunsa da, Xocavənd hələ də işğal altında qalmışdı və xocavəndlilər də hesab edirdilər ki, nə vaxtsa vəziyyət dəyişəcək. Əminəm, cəmiyyətdə inam var idi ki, bir qarış torpaq da düşmənin tapdağı altında qalmayacaq və biz buna da nail olduq".

Fevralın 25-də Xocavənd sakinləri ilə görüşüb söhbət edən zaman Prezident İlham Əliyevin söylədiyi kimi, böyük Zəfər sayəsində torpaqlarımız işğaldan azad edildi. 2023-cü ildə keçirilən antiterror tədbirləri sayəsində dövlət suverenliyimiz təmin olundu. Qalib sərkərdə İlham Əliyevin Xocalıda, Xocavənddə, Əsgəranda, Ağdərədə, Xankəndidə ucaltdığı dövlət bayrağımız bu yurdların əzəli və əbədi Azərbaycan torpağı olduğunu bir daha dünyaya bəyan etdi.

### Zəfər salnaməsinin qayıdış səhifəsi

Qarabağ Zəfəri Azərbaycan tarixində yeni və parlaq era açıb. İşğaldan azad edilən ərazilərə Böyük qayıdış isə bu qürurlu salnamənin ən yaddaqalan səhifələrindəndir. Bu gün keçmiş məcburi köçkünlərin qayıdış köçləri ilə el-obalarına dönmələri dirçəliş dastanı kimi tarixə həkk olunur.

Düz üç onillik boyu yurdlarından ayrı qalan bu insanlar ürəklərində vətən nisgili daşıdılar, maddi-mənəvi məhrumiyyətlərə düçar oldular, çadırlarda, vaqonlarda, yataqxanalarda acınacaqlı şəraitlərdə yaşadılar. Lakin heç zaman dədə-baba torpaqlarına dönəcəkləri ümidlərini itirmədilər. Bildilər ki, bir gün mütləq yenidən Şuşaya, Laçına, Ağdama, Kəlbəcərə, Xocalıya, Xankəndiyə... qayıdacaqlar...

Budur, artıq o tarixi an yetişib. İndi keçmiş məcburi köçkünlər bir zamanlar böyük əzablarla ağlaya-ağlaya tərk etdikləri yurdlarına gülə-gülə qayıdırlar. Sevinclə qədəm qoyduqları yeni evlərində xoşbəxt həyata başlayırlar.

Tarixi torpaqlarımızın azadlığa qovuşmasından sonra mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzura səfərlər edən Prezident İlham Əliyev həm burada həyata keçirilən quruculuq və bərpa işləri ilə tanış olur, açılışlar edir, yeni təməllər qoyur, həm də el-obalarına dönən keçmiş məcburi köçkünlərlə evlərində görüşür, onların yurd sevinclərini bölüşür. Dövlət başçısı sakinlərlə səmimi söhbət edərək onların hazırkı yaşayış şəraiti ilə yaxından maraqlanır, qayıdış sevinclərinə şərik olur. Prezidentin keçmiş məcburi köçkünlərlə sadə, səmimi ünsiyyəti illərlə çəkilən əzabların unudulmadığını, bu, vətəndaşlarımızın hər birinin rifahının daim dövlətimizin, şəxsən cənab İlham Əliyevin diqqətində olduğunu göstərir.

### Xocavəndə dönüş sevinci

Bu günlərdə xocavəndlilər də yurda qayıdış sevinci içərisindədirlər. Fevralın 20-də Xocavənd şəhəri və Xocavənd kəndi ilk köç karvanını qarşılayıb. İlkin mərhələdə Xocavənd şəhərinə 50 ailə - 194 nəfər, Xocavənd kəndinə isə 20 ailə - 94 nəfər köçürülüb.

Fevralın 25-də Xocavənd şəhər və Xocavənd kənd sakinləri Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Arzu Əliyevanın timsalında doğma evlərində əziz qonaqlarını qarşıladılar.

Prezident İlham Əliyevin Xocavənddə sakinlərlə görüşü zamanı yaşanan o səmimi anlar, sadəcə bir dövlət tədbiri deyil, bütöv bir xalqın qürur və sevinc dolu qayıdış tablosu kimi yaddaşlara həkk olundu.

Ölkəmizin rəhbəri sakinlərlə görüşü zamanı dedi: "Uzun illər əzab-əziyyət içində yaşamısınız. Köçkün həyatı ağır həyatdır, həm mənəvi əzablar, həm fiziki çətinliklər, öz doğma torpağını tərk edib başqa yerə, hətta Azərbaycanın içində olsa belə getmək və əzab-əziyyət içində yaşamaq böyük sınaqdır. Siz bu sınaqdan şərəflə çıxmısınız".

"Artıq iki ildən çoxdur ki, bütün əraziyə - Azərbaycan dövlətinin suveren ərazisinə biz nəzarət edirik. Düşmənin sonuncu yuvasını da dağıtmışıq, separatçıları da qovmuşuq, onları da məhkəmə qarşısında cavab verməyə məcbur etmişik və ədaləti tam bərpa etmişik. Ona görə artıq o ağır dövr geridə qaldı, arxada qaldı, bir daha qayıtmayacaq. Bu gün dövlətimiz güclüdür, ordumuz güclüdür və xalqımız bu illər ərzində artıq bütün dünyaya öz böyüklüyünü göstərmişdir", - deyə dövlətimizin başçısı vurğuladı.

Xocavənddə səmimi dialoqlarla yaddaşlara yazılan bu görüş zamanı qürur, sevinc və duyğu dolu anlar yaşandı. Cənab İlham Əliyevi böyük sevgi ilə qarşılayan xocavəndlilərin gözlərindəki sevinc parıltısı illərdir həsrətini çəkdikləri torpağa qovuşmağın, öz evlərində təhlükəsiz və azad yaşamağın verdiyi daxili rahatlıq idi. Dövlət başçısının hər bir sakinə göstərdiyi diqqət və "Siz artıq öz evinizdəsiniz" mesajı bu sevincin təcəssümü oldu.

Sakinlərin Prezidentə xitabən səsləndirdikləri "Cənab Prezident, neçə illər arzusunda olduğumuz, həsrətini çəkdiyimiz Xocavənd torpağında salamlayıram Sizi. Elimizə-obamıza, dədə-baba yurdumuza xoş gəlmisiniz!", "Sizin sayənizdə alınan bu torpaqlara xoş gəlmisiniz, biz də xoş gəlmişik!", "Ən böyük xoşbəxtlikdir ki, Siz rəhmətlik atanızın vəsiyyətini yerinə yetirdiniz", "Çox sağ olun, şəhidlərimizin canı bahasına, qazilərimizin, hərbçilərimizin qanı bahasına, Sizin sayənizdə, siyasətiniz sayəsində torpaqlarımız azad olub, bu gün biz burada yaşayırıq" fikirləri bu insanların Prezident İlham Əliyevə olan böyük etimadının, sevgisinin təzahürüdür.

Yaxud "Bu günümüzə şükür. Həmişə yığıncaqlarımız olanda deyirdim ki, belə yığıncaqlarımız Qarabağda olsun. Bu gün arzumuza çatmışıq. Özümüzü o qədər xoşbəxt hiss edirik ki, biz öz torpağımıza, Vətənimizə gəlmişik. Beş gündür burada yaşayırıq. Vallah, heç acmırıq, təmiz oksigenlə nəfəs alırıq", "Bura Qarabağdır, cənnətdir", "Azərbaycan torpağı nə qədər varsa, Siz də, ailəniz də o torpağın üstündə var olasınız. Allah Sizi Azərbaycan xalqının başı üstündən əskik etməsin, amin!" demələri onların Prezident İlham Əliyevi özlərinin doğması saymalarının göstəricisidir. Bu, həm də keçmiş məcburi köçkünlərin torpaq həsrətlərinə son qoyan müzəffər liderə duyduqları minnətdarlıq hisslərinin təzahürüdür.

Bəli, on illərin həsrəti artıq tarixə qovuşub. Xocavənddə yaşanan qayıdış sevinci də elə Qarabağ və Şərqi Zəngəzurda davam edən dirçəlişin bir parçasıdır. İndi bu torpaqlardan yalnız sevinc, qürur nidaları ucalır və bu, hər bir sakinin simasında doğma yurduna qovuşmağın verdiyi daxili rahatlığın və Azərbaycanın qüdrətinə olan sonsuz inamın təntənəsidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2026-cı ilin mart ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | 5 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 4 |
| **Musa Cəfər oğlu QASIMLI** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 2 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 3 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 2 |
| **Arzu Nəsib oğlu NAĞIYEV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 10 |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 18 |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 6 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 5 |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 4 |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 16 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 17 |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 6 |
| **Şahin Əmir oğlu İSMAYILOV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 12 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 13 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 11 |
| **Anar Camal oğlu İSGƏNDƏROV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 12 |
| **Polad BÜLBÜLOĞLU** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 19 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 18 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | 11 |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 3 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | 16 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 13 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 31 |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 17 |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 19 |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 10 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədilə;**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# Orta dəhlizin inkişafında Azərbaycanın rolu beynəlxalq səviyyədə qəbul olunur

Hazırda dünyada baş verən qlobal proseslər geosiyasətdə yeni vəziyyətin yaranmasından soraq verir. İllərlə mövcud olmuş beynəlxalq ticarət dəhlizlərinin fəaliyyətində problem yarandığından xüsusən Şərqlə Qərb arasındakı ticarət marşrutlarında ortaya çıxan problemlər dünya ticarətinə mənfi təsir göstərir.

Məlumdur ki, Asiya ilə Avropa arasında mövcud ticarətdə əsas ölkə Çindir. Bu iki qitə arasında olan ticarətin dəyəri trilyon dollardan çoxdur və həmin rəqəm sürətlə artmaqdadır. Tərəflər arasında ticarətin aparılmasında Çin-Sibir və Süveyş kanalı ticarət marşrutları önəmli rol oynayırdı. Amma məlum olduğu kimi, Rusiya-Ukrayna müharibəsi üzündən birinci yolla ticarət tam dayanıb. Yəməndə husilərin Qırmızı dənizdə yaratdığı problem isə ikinci marşrutun sabitliyini pozub. O üzdən Orta dəhlizə olan maraq artıb və hazırda Şərqlə Qərb arasında yükgöndərən və yük qəbuledənlərin ən çox güvəndiyi məhz bu marşrutdur.

Dünyada yüklərin tez və təhlükəsiz çatdırılmasında önəmli rol oynayan Orta dəhlizə bütün tərəflər maraq göstərir. Lakin bu istiqamətdə keçirilən bütün tədbirlərə ilk növbədə Azərbaycan dəvət olunur. Artıq hamı qəbul edib ki, Azərbaycan bu marşrutda Xəzər dənizinin şərq və qərb sahillərini birləşdirən açar ölkədir və dənizaşırı yüklər məhz bizim limanlarımız vasitəsilə ötürülür.

Xəbər verildiyi kimi, bu günlər Dünya Bankının təşkilatçılığı ilə Avstriyanın paytaxtı Vyanada keçirilmiş regional dəmir yolu seminarı çərçivəsində baş tutmuş "Ölkələrin baxışı: Mövcud geosiyasi şəraitdə dəmir yolları üçün perspektivlər və çağırışlar" adlı sessiyada ADY-nin sədr müavini Arif Ağayev çıxış etmişdir. Sədr müavini Azərbaycanın regional bağlantılardakı mövqeyi, Orta dəhlizin artan




potensialı, icrası davam edən iri yerli layihələr və mövcud geosiyasi mənzərə fonunda təmsil etdiyi qurumun strateji baxışı barədə məlumat vermişdir. O, Azərbaycanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşərək Avrasiyanın mühüm tranzit qovşağı kimi rolunun gücləndiyini vurğulamışdır. Sədr müavini həmçinin dayanıqlı Orta dəhliz üçün daha güclü regional əlaqələndirmənin vacib olduğunu, müasir geosiyasi şəraitdə bağlantıların koordinasiyalı, dayanıqlı və rəqəmsal təşkili məqsədilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu və "Avrasiya Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası çərçivəsində əməkdaşlığın genişləndiyini, Qazaxıstan və Çinlə elektron sənəd mübadiləsi və məlumat inteqrasiyasının sürətləndiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, ADY son illər Orta dəhlizin Azərbaycandan keçən hissəsində tranzit ötürücülüyünün yüksəldilməsi üçün əsaslı işlər görüb, xüsusilə rəqəmsal həllərin tətbiqi sayəsində tranzit müddətlərini azaldıb. Nəticədə şərq-qərb istiqamətində 2025-ci ildə 392 blok-qatarın qəbulu ilə 2024-cü ilin müvafiq göstəricisi 37 faiz üstələnib. Eyni zamanda 2025-ci ildə Bakı limanında konteyner dövriyyəsi rekord vuraraq 100 min TEU-nu keçib. O, bununla yanaşı, dəhlizlər üzrə ötürücülük qabiliyyətinin artırılması, Bakı limanının illik yükaşırma həcminin 260 min TEU-ya qədər genişləndirilməsi və sərhəd-keçid prosedurlarının təkmilləşdirilməsi istiqamətində işlərin davam etdirildiyini vurğulamışdır.

Bu arada "Fitch Solutions" məlumat açıqlayıb. Bildirilib ki, ABŞ-nin təşəbbüsü ilə formalaşan TRIPP (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu) dəhlizi investorların diqqətini cəlb edib. Azərbaycanla bağlı proqnoza gəldikdə təşkilatın qiymətləndirməsinə görə, Ermənistan və Azərbaycan arasında sülh razılaşmasının ilkin mərhələyə keçməsi və ABŞ-nin regionda artan geostrateji iştirakı yeni tranzit layihələrinə marağı gücləndirib. Ermənistan ərazisi üzərindən Azərbaycanı Naxçıvanla birləşdirəcək TRIPP dəhlizi regionun logistika xəritəsində mühüm dəyişiklik yaradacaq. Hesabatda qeyd olunur ki, layihənin əsas hissəsi ABŞ kapitallı strukturlar tərəfindən idarə olunacaq və ödənişli tranzit zonasının inkişafı üçün birgə müəssisə yaradılacaq. ABŞ rəsmiləri əlaqəli layihələrə "milyardlarla dollar" investisiya cəlb oluna biləcəyini bildiriblər.

"Fitch Solutions" hesab edir ki, enerji təhlükəsizliyi, nəqliyyat infrastrukturu və logistika sahəsində paralel təşəbbüslər Azərbaycanın regional tranzit mərkəzi rolunu gücləndirə bilər. Bu fonda ABŞ ilə iqtisadi və strateji əməkdaşlığın 2026-cı ildə daha da dərinləşəcəyi gözlənilir. Qurumun rəyinə görə, regionda artan investisiya fəallığı həm iqtisadi dinamikanı, həm də geosiyasi balansı yenidən formalaşdıra bilər.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# VII Azərbaycan-Gürcüstan-Türkiyə biznes-forumu keçirilib

Dünən Gürcüstanın Telavi bələdiyyəsinin Tsinandali kəndində VII Gürcüstan-Azərbaycan-Türkiyə biznes-forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forumda hər üç ölkənin iqtisadiyyat nazirləri, təxminən 400 nümayəndə, o cümlədən təxminən 300 iri şirkətin nümayəndəsi iştirak edib.

Azərbaycanı bu tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Forum zamanı üç ölkənin özəl sektorları arasında irimiqyaslı layihələrdə əməkdaşlıq məsələləri müzakirə olunub. Biznes nümayəndələrinin iştirakı ilə panel iclası, eləcə də B2B görüşləri keçirilib.

Forumda Türkiyə və Azərbaycandan yüksəksəviyyəli nümayəndə heyətləri iştirak edib. Türkiyə nümayəndə heyətinə Türkiyənin ticarət naziri Ömər Bolat rəhbərlik edib.

Biznes-forum Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi və Gürcüstan Ticarət və Sənaye Palatası tərəfindən təşkil olunub.

İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və DEİK (Xarici İqtisadi Əlaqələr Komitəsi) forumda tərəfdar kimi çıxış ediblər.

Reportaj

# Yaddaşın səssiz harayı

Dünən Xocalı soyqırımının ildönümündə insanlar sübh tezdən dəstə-dəstə "Ana harayı" abidəsinin önünə axışırdılar. Ziyarətçilər susur, yaddaş danışırdı. Əslində, insanlar abidənin önünə yalnız qərənfil qoymağa yox, millətin tarixində qanla yazılmış həqiqəti bir daha dinləməyə gəlmişdilər. Bu sükut adi sakitlik deyildi, ağrının, acının, günahsız qurbanlara ehtiramın və yaddaşın səssiz harayı idi.






Abidənin önünə düzülən qərənfillərin qoxusu soyuq səhər havasına qarışdıqca izdihamın içindən zorla eşidilən dualar bu anın mənəvi və fiziki ağırlığını daha da artırırdı. Ziyarətçilərin çöhrələrində keçmişin ağrısı, gözlərində isə bu günün qüruru duyulurdu. Onlarla söhbət etdikcə aydın olurdu ki, Xocalı artıq yalnız bir xatirə deyil, o həm də hər bir azərbaycanlının yaddaşında yaşayan faciədir.

Xalq artisti Cavan Zeynallı ilə söhbət edirik: "Xocalı faciəsi insanlığın utanc yeridir, günahsız, əliyalın insanlara qarşı törədilmiş ən dəhşətli faciədir. Nə idi bu qətlə yetirilən insanların günahları? Yalnız azərbaycanlı olduqlarına görə onları vəhşicəsinə qətlə yetirmək, əsir götürüb işgəncə vermək, canını götürüb qaçanları kütləvi şəkildə məhv etməyin bir adı var - vəhşilik. Tarix ən ədalətli hakimdir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə biz artıq torpaqları azad edib günahsız insanların qanı töküldüyü yurdumuzda ədaləti bərpa etmişik. Dünyada bir təzada baxın: Xocalıda günahsız insanların qanını axıdanların cəzalanmasını istəməyən, susan, onları görməzdən gələn dünya bu gün Xocalıda günahsız insanların qanını tökən separatçılara, hərbi cinayətkarlara azadlıq istəyir. Bizim xalq olaraq bu cür faciələri yaddan çıxarmağa haqqımız yoxdur. Mən yaxınlıqda yaşayıram. Demək olar ki, hər gün bu abidənin önündə dayanıb o dəhşətli faciəni xatırlayıram".




Digər həmsöhbətimiz isə akademik Gövhər Baxşəliyevadır: "Biz hər il bu müqəddəs "Ana fəryadı" abidəsini ziyarət edirik. Əlbəttə ki, bu tarixdə görünməmiş nadir soyqırımı aktlarından biri törədilib. 34 il əvvəl tarixin ən dəhşətli faciəsi baş verib. 613 nəfərin qəddarcasına həyatına son qoyulub, 150 nəfər itkin düşüb. İlk növbədə separatçıları, onları himayə edən 366-cı alayın faciədə əli olan əsgər və zabitlərini, eyni zamanda ovaxtkı Azərbaycan rəhbərliyinin məsuliyyətsizliyini qeyd etmək istəyirəm. Bu faciənin qarşısını almaq üçün vaxtında əhalini oradan çıxarmaq lazım idi. Telefonçu qızlar belə bir təhlükənin olacağı barədə məlumatlar vermişdilər. Amma təəssüf ki, vaxtında tədbir görülmədi, köməyə gedən olmadı, nəticədə əhali qırıldı. Biz bu dəhşətli faciəni qətiyyən unutmamalıyıq. Mən millətin ziyalı xanımı, bir ana kimi hər il bu abidəni ziyarət edirəm. Həmişə də təsəllim o olur ki, Xocalı qurbanlarının qanı yerdə qalmadı. Ali Baş Komandanımız, Azərbaycan Ordusu günahsız insanların qisasını aldı. Bu gün Xocalıda faciə qurbanlarının abidəsi açılır. Bu gün biz həm Xankəndidə, həm Şuşada, həm də bütün Qarabağdayıq. Bu, çox böyük hadisədir".

Bu yerdə AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyi Molekulyar Biologiya İnstitutunun direktoru İradə Hüseynova söhbətə qoşulur: "Bu gün xalqımızın tarixində ən faciəli hadisənin baş verdiyi gündür. Xocalıda insanlığa qarşı böyük bir faciə törədilmişdi. Qeyd edim ki, dünya erməni diasporunun və onların havadarlarının bütün cəhdlərinə baxmayaraq, bu dəhşətli faciənin dünya ictimayyətinə çatdırılıması üçün Ulu Öndər Heydər Əliyevin dövründən çox ciddi işlər görüldü. Bu ənənəni Prezident İlham Əliyev davam etdirdi, Leyla Əliyevanın təşəbbüsü ilə başlayan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası qısa müddətdə qlobal miqyas aldı. Kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrində anım mərasimləri, maarifləndirici aksiyalar, fotosərgilər, elmi konfranslar təşkil olundu, geniş informasiya materialları yayımlandı. Nəticə etibarilə bir sıra ölkələr və onların parlamentləri, o cümlədən ABŞ-nin bir çox ştatı Xocalı soyqırımını tanıyan qərarlar qəbul etdilər. İlahi bir ədalət var. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə biz 44 günlük müharibədə tarixi qələbə çalaraq ədaləti bərpa etdik. Buna baxmayaraq, xalq olaraq bu faciəni bir an belə unutmamalı, gələcək nəsillərə çatdırmalıyıq".

Biologiya elmləri doktoru, professor, Milli Elmlər Akademiyasının müxbir üzvü İbrahim Əzizov da həmkarının sözünə qüvvət verdi: "Xocalı faciəsi Azərbaycan xalqının tarixində unudulmaz bir yaradır. Bu soyqırımı təkcə o gecəni deyil, gələcək nəsilləri də dərindən sarsıtdı. Bu ağrı eyni zamanda xalqımızın iradəsinin sınağı oldu, amma əyilmədik, qorxmadıq, sınmadıq! İndi biz şəhidlərimizi məğlub bir xalqın nümayəndələri yox, qalib millətin övladları kimi anırıq. Faciələr unudulmamalıdır ki, heç bir zaman təkrarlanmasın. Tarix bizə bunu öyrədir: yaddaş həm dərsdir, həm də təhlükəsiz gələcəyin təminatı. Ziyarətə gələn əmək kollektivləri, məktəblilər, gənclər və ağsaqqallar bir daha sübut edirlər ki, bu yaddaş yaşayır və yaşayacaq. Həqiqətdir ki, əbədi düşmənçilik anlayışı yoxdur. Bu gün regionda sülhə hər zamankından daha yaxınıq. Amma sülh yalnız yaddaş üzərində qurulanda möhkəm olur. Xocalı kimi faciələr unudulmadıqca, onların dərsi gələcək nəsillərə ötürüldükcə belə qanlı hadisələr bir daha təkrarlanmayacaq.

Bu səhər abidə önündə hiss olunan ovqat həm hüznlü, həm də qürurlu idi. Çünki artıq torpağı işğal olunmuş bir xalqın deyil, qalib və ədaləti bərpa etmiş bir millətin övladları kimi şəhidləri yad edirik. Yaddaş isə bu qürurun ən müqəddəs dayağıdır. Xocalı soyqırımı xalqımızın yaddaşından silinməyəcək bir tarixdir. Bu tarix bizə həm itkilərimizin ağrısını, həm də bir millət olaraq sınsaq da, əyilmədiyimizi xatırladır. Bu gün biz sülhə doğru addımladığımız bir zamanda belə faciələrin bir daha təkrarlanmaması üçün yaddaşımızı diri saxlayırıq - özümüz diri qalmaq üçün.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# İzləri silinsə də, acıları silinməyəcək

Müharibələr, soyqırımları qan tökülməsi deməkdir. Tökülən bu qanlar hər kəsi sarsıdır. Onun ağrı-acıları heç vaxt unudulmur, əbədi olaraq tarixin səhifələrinə hopub qalır, sağalmayan yaralara çevrilir. 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni qəsbkarları tərəfindən azərbaycanlılara qarşı törədilən Xocalı soyqırımı da belə faciələrdəndir.



Erməni silahlı dəstələri keçmiş ittifaqın Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının zirehli texnikasının və şəxsi heyətinin yaxından köməyi ilə həmin müdhiş gecə - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə güclü artilleriya atəşlərindən sonra bir neçə istiqamətdən Azərbaycanın qədim şəhəri olan Xocalı üzərinə hücuma keçdilər. Bir an içində işğalçıların gülləleri, mərmiləri Xocalının, onun sakinlərinin üzərinə dolu kimi yağdı. Atılan mərmilər evləri yandırdı, heç bir günahı olmayan dinc sakinlərin ömrünə son qoydu. Xocalı yerlə-yeksan edildi və insanların güllebaran olunduğu həmin gecə dünya tarixinə Xocalı faciəsi kimi yazıldı. Beynəlxalq aləm bir daha erməni vəhşiliyinə, erməni barbarlığına şahidlik etdi.

1988-ci ildən Qarabağda kök salmış erməni separatçıları Xocalı soyqırımından əvvəl Xocavəndin Qaradağlı, Xocalının Meşəli, Kəlbəcərin Ağdaban kəndlərində və başqa bölgələrdəki yaşayış məntəqələrində onlarca dinc sakini qətlə yetirmişlər. Ürək dağlayan odur ki, qəsbkarlar törətdikləri bu soyqırımlarına, faciələrə görə heç bir cəza almamışlar. Buna görə də erməni separatçıları daha da quduzlaşmış, ayaqları yer almışdır, Qarabağın digər şəhər və kəndlərinə hücum etməyə başlamışdılar.

Tarixə diqqət yetirəndə məlum olur ki, bu, erməni separatçılarının Xocalıda azərbaycanlılara qarşı törətdikləri ilk qətliam deyil. Ötən əsrdə onlar Azərbaycanın bu gözəl diyarında 3 dəfə etnik təmizləmə aparmış, günahsız insanların qanlarını tökmüş, kəndləri və şəhərləri dağıtmışlar. Birinci soyqırımı dalğası 1905-1906-cı illər erməni-müsəlman qarşıdırması dövründə baş verib. İkinci soyqırımı 1918-1920-ci illərdə ermənilərin yenidən Azərbaycan xalqına qarşı törətdiyi vəhşiliklər zamanı törədilib. Amma həmin illər ermənilərin Xocalıda azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımları xalqdan gizlədilib, tarix kitablarına salınmayıb. Buna görə də böyüməkdə olan nəsillər bu qanlı hadisələrdən xəbərsiz olublar. Bununla bərabər, daşnaklar cəzasız qalıblar. Üçüncü isə 1992-ci ilin Xocalı soyqırımıdır.

Xocalı soyqırımı ilə bağlı kifayət qədər şahid ifadələri, danılması mümkün olmayan sənədlər, şəkillər var. Təkcə Azərbaycan jurnalistlərinin deyil, eləcə də həmin günlərdə bir çox xarici ölkədən gəlmiş mətbuat nümayəndələrinin çəkdikləri fotoşəkillər, videogörüntülər, qələmə aldıqları yazılar da erməni işğalçılarının Xocalı torpağında azərbaycanlılara qarşı soyqırımı törətdiyini təsdiq edir.

Soyqırımı baş verən gecə şəhəri tərk etməyə məcbur qalmış əhali dağlara, meşələrə qaçmaq istəmişdi. Amma dağlarda, meşələrdə gizlənmiş silahlı ermənilər dinc əhalini güllələmiş, onlara amansız divan tutmuşlar. Soyuq, qarlı fevral gecəsində nə qədər qız-gəlin əsir düşmüş, girov götürülmüşdür. Erməni silahlılarından yayınıb meşələrə, dağlara qaçanların bir çoxu da soyuqdan, şaxtadan donmuşdur.

Xocalı faciəsinə hüquqi-siyasi qiymət Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verildi. Ümummilli Lider Heydər Əliyev 1 mart 1994-cü ildə bu haqda fərman imzaladı. Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi qəbul etdi. Yalnız bundan sonra Azərbaycan hökuməti və dünya azərbaycanlıları erməni millətçilərinin xalqımıza qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı faciəsi haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması, bu qətliamın soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərdilər.

2003-cü ildə xalqın böyük dəstəyi ilə Prezident seçilən İlham Əliyev Xocalı faciəsinin tanıdılması üçün daha geniş miqyasda addımlar atdı. Dövlətimizin başçısı iştirak etdiyi bütün beynəlxalq səviyyəli tədbir və görüşlərdə Xocalı faciəsi ilə bağlı təkzibolunmaz faktları iştirakçıların diqqətinə çatdırdı. Prezident İlham Əliyev Xocalı soyqırımının ildönümü münasibətilə xalqımıza müraciətlərinin birində demişdir: "Heç bir hərbi zərurət olmadan yüzlərlə dinc sakin tarixdə analoqu olmayan işgəncələrlə öldürüldü, meyitləri təhqir olundu. Uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi. XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına, vəhşiliyinə və amansızlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında xüsusi yer tutur".

Üstündən illər ötüb keçsə də, Xocalı faciəsi onun ağrı-acılarını yaşamış sakinlərin, o qanlı hadisələrin şahidi olmuş insanların yaddaşından heç vaxt silinməyəcək. Əbədi olaraq yaddaşda yaşayacaq, gələcək nəsillərə çatdırılacaq.

Soyuq bir gecədə o dəhşətli hadisələri görənlərin, qorxu və ağrı-acılarla dolu anlar yaşayanların danışdıqlarına ürək ağrısı ilə qulaq asırıq. Xocalı sakini Lamiyə Qarayeva deyir ki, soyqırımı baş verən günədək Xocalı ermənilərin mühasirəsində idi: "Gediş-gəliş tam məhdudlaşdırılmışdı. Biz həmin vaxtlar ancaq zirzəmilərdə qalırdıq. Silahlar susmurdu, hər gün atışma səsləri eşidirdik. Hər gün işğal təhlükəsi ilə yaşayırdıq. Xocalının qeyrətli oğulları könüllü olaraq şəhərin müdafiəsinə qalxmışdılar. Atam və dayım da onların arasındaydı. Həmin gecə onlar evə gəlib bildirdilər ki, artıq düşmən Xocalıya girib. Şəhəri tərk etmək lazımdır. Biz həmin gecə doğma ocaqlarımızdan çıxdıq. Təsadüf nəticəsində sağ qaldıq".

Xocalı sakini Cəmil Məmmədovun isə başına gələnləri yazmaq çox dəhşətlidir. Həmin gecə Cəmil Məmmədov nəvəsi ilə bir yerdə düşmən əlinə keçib. Cəlladlar onları tutandan sonra ciblərini gəzərək 14 min pulunu götürüblər, Naxçivanik kəndində tövləyə salaraq 4 gün acsusuz saxlayıblar. Sonra Əsgərana gətirib onu nəvəsindən ayırıblar. Ermənilər ailəsindən nigaran qalan Cəmil Məmmədovun başına olmazın müsibət açıblar. Əsirlikdə olduğu müddətdə onun ayaq dırnaqlarını çıxarıblar. Çox zülm verəndən sonra bir erməni ilə dəyişiblər.

Ermənilərin Xocalı soyqırımı zamanı şəhər sakinlərinə göstərdikləri qəddarlıq, amansızlıq sərhəd tanımır. Həmin müdhiş gecədə insan qanına susamış erməni işğalçıları əsirlərə olmazın işgəncə veriblər. Şəhər sakinlərini həyatda ən şirin nemət olan işıqdan məhrum etdikdən sonra amansızcasına qətlə yetiriblər. Belə vəhşilik, belə amansızlıq dünyanın heç bir yerində, heç bir zaman görünməmişdir.

Şəhər sakini Fitat Həsənova deyir ki, onu döyəndən sonra əl-qolunu bağlayıb gözlərini çıxarıblar. Xocalı sakini Məhruzə Məmmədovaya da ağır işgəncə verəndən sonra onu gözlərindən məhrum ediblər. Bundan sonra kor və köməksiz qalan qadının burnunu və döşlərini kəsiblər.

Atalar yaxşı deyib ki, qisas qiyamətə qalmaz. Xocalı soyqırımında şəhid olan insanların da qisası yerdə qalmadı. Daim gücünü, qüdrətini artıran rəşadətli Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri 2023-cü il sentyabrın 19-20-də Qarabağda uğurla həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Xocalı şəhəri erməni separatçılardan təmizləndi. Erməni vandalizminə, erməni işğalına son qoyuldu. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Qarabağa səfəri zamanı erməni işğalından azad olunmuş başqa şəhərlərimiz kimi, Xocalıda da Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Bu gün Azərbaycan bayrağının Xocalıda dalğalanması faciə qurbanlarının qanının yerdə qalmadığını dünyaya nümayiş etdirir.

Hazırda Xocalıda böyük quruculuq və abadlıq işləri aparılır. Erməni soyqırımı nəticəsində doğma ocaqlarından didərgin düşmüş sakinlər sevinc içində ata-baba yurdlarına qayıdırlar. İnsanlarla bərabər, torpağın da üzü gülür. Xocalıya həyat yenidən qayıdır, işğalın ağrıları, acıları silinir, amma unudulmur və unudulmayacaq da.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# "Xocalı: Zamanın dayandığı an!"

Dünyanı sarsıdan Xocalı soyqırımının 34-cü ildönümü münasibətilə N.Nərimanovun xatirə muzeyinin və Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə muzeydə "Xocalı: Zamanın dayandığı an!" adlı tədbir keçirilib.



Tədbirdə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) professoru, tarix elmləri doktoru Həvva Məmmədova, həmin akademiyanın "Qarabağ İrsini Araşdırma Mərkəzi" nin rəhbəri, profesor, siyasi elmlər doktoru Elçin Əhmədov, "Vətən səsi" qəzetinin baş redaktoru Elşən Əliyev, Xocalı sakini, Vətən müharibəsi qazisi İmran Rəcəbov, DİA-nın tələbələri, 2013-cü il Respublika Muğam Musabiqəsinin qalibi Təbriz Yusubov, müşayiətçi Ceyhun Qurbanov, KİV nümayəndələri və muzey əməkdaşları iştirak ediblər.

Tədbiri muzeyin direktoru Ləman Hüseynova açaraq qonaqları salamlayıb. Xocalı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib. Tarix elmləri doktoru Həvva Məmmədova çıxış edərək Xocalı soyqırımının Azərbaycan xalqına və bəşəriyyətə qarşı yönəlmiş vəhşilik aktı olduğunu, bu faciənin dünya ictimaiyyəti tərəfindən tanınmasının və ona hüquqi-siyasi qiymət verilməsinin vacibliyini bildirib. Həvva xanım Xocalı həqiqətlərini unutmamağı və tarixi yaddaşı qorumağı gənc nəslə tövsiyə edib.

Professor, siyasi elmlər doktoru Elçin Əhmədov çıxış edərək deyib ki, bir şuşalı olaraq Xocalının ağrısını ürəyimdə ikiqat hiss edirəm: "Bu torpaqların harayını eşitmişəm, yarasını, susdurulmuş talelərini görmüşəm. Xocalıda qətlə yetirilən körpələr, analar, günahsız insanlar təkcə bir şəhərin deyil, bütün Vətənin qanayan yarasıdır. Biz bu ağrını yaddaşımızda daşıyırıq, çünki unutmaq xəyanət, xatırlamaq isə borcdur. Xocalı bizim vicdanımızdır və bu vicdan heç vaxt susmayacaq".

"Xocalıda məhv edilən təkcə insanlar deyil, uşaqların arzuları, anaların ümidləri, ailələrin sabahıdır" - deyə "Vətən səsi" qəzetinin redaktoru Elşən Əliyev bildirib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kamança müəllimi Təbriz Yusubov Ceyhun Qurbanovun müşayiəti ilə "Xocalı ağrısı" kompozisiyasını ifa ediblər. DİA tələbələrinin Xocalı soyqırımına həsr etdikləri təqdimatlarla davam edən tədbirin sonunda muzeyin direktoru Ləman Hüseynova iştirakçılara təşəkkürünü bildirib.

Tədbirdə Xocalı hadisələrinə həsr olunmuş sənəd, qəzet, jurnal və fotolardan ibarət sərgi də nümayiş etdirilib.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Xalqların, ölkələrin, bir qədər də konkret yanaşsaq, regionların strateji inkişafı bir çox halda tarixi fürsətlərdən asılı olur. Yaranmış əlverişli imkanları vaxtında dəyərləndirməyi bacaran liderlərin müdrik qərarları, çevik davranışları bu fürsət anlarını böyük coğrafiyaların tarixi taleyindəki dönüş məqamına çevirir. Belə bir reallığı bu gün Azərbaycanla ABŞ arasında dinamik inkişaf edən münasibətlərdə müşahidə etmək olar.



# Azərbaycan-ABŞ münasibətləri: 34 illik tarixin yüksəliş dövrü

Cənubi Qafqazın aparıcı dövləti kimi Azərbaycan ABŞ üçün həmişə regionun əhəmiyyətli ölkəsi sayılıb. Azərbaycanın artıq 35 ilə çatan müstəqillik tarixində ABŞ ilə münasibətlərin inkişafında hər iki tərəf üçün qarşılıqlı faydalar yaradan mühüm nailiyyətlər əldə edilib. Tarixi obyektivlik naminə yada salaq ki, qazanılmış uğurlarla yanaşı, xüsusilə müstəqilliyin ilk illərindəki səriştəsiz iqtidarlar dövründə Azərbaycanın bu münasibətlərdə itirdiyi imkanlar, yaxud ABŞ-nin bəzi siyasi dairələrinin ölkəmizə qarşı yol verdikləri yanlış yanaşmalar ucbatından ikitərəfli əlaqələrdə düyünlü nöqtələrin yaranması halları da olub. Bu gün isə Ağ Evin qlobal siyasi-iqtisadi düzənə yeni strateji baxışı, bu fövqəldövlətin dəyişən prioritetləri və bütün bunların yaratdığı böyük fürsətlər fonunda Azərbaycan-ABŞ münasibətləri 35 illik müstəqillik dövrümüzün, demək olar, ən yüksək mərhələsindədir.

Burada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diplomatik bacarığının, yaranmış hər imkandan ölkəmizin, xalqımızın milli maraqları, yaşadığımız coğrafiyanın təhlükəsizliyi və dayanıqlı inkişafı naminə istifadə məharətinin, proseslərə əsl strateq reaksiyasının müstəsna rolu vardır.

## Münasibətlərdə yeni səhifə - TRIPP

ABŞ-nin vitse-prezidenti Cey Di Vensin ailə üzvləri ilə ölkəmizə səfəri, dünyanın ən qüdrətli dövləti ilə Azərbaycan arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması, belə bir tarixi sənəddə qarşıya qoyulan məqsədlər bunun daha bir nümayişi oldu və iki ölkə arasındakı münasibətləri yeni bir institusional mərhələyə yüksəltdi.

Cənab İlham Əliyevin yaranmış qlobal imkanları ölkəmizin və Cənubi Qafqazın gələcəyi üçün reallığa çevirmə bacarığının daha bir təzahürü kimi tarixə düşən bu anlaşma Azərbaycanla ABŞ arasında diplomatik əməkdaşlığın genişləndirilməsindən də çox regionun geosiyasi, iqtisadi və təhlükəsizlik arxitekturasına təsir edə biləcək uzunmüddətli strateji xəritə rolunu oynayır.

Vətən müharibəsindəki tarixi Zəfərimiz nəticəsində ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün təmin olunmasından, ötən ilin 8 avqustunda Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri arasında sülh sazişinin paraflanmasından sonra sözügedən xartiyada suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinin irəli sürülməsi bir tərəfdən sənədin siyasi legitimliyinin əsası, digər tərəfdən regionun gələcək təhlükəsizliyinə baxış kimi mühüm önəm kəsb edir. Sənəddə əməkdaşlığın konkret sahələr üzrə strukturlaşdırılması isə Azərbaycan-ABŞ münasibətlərinin daha böyük niyyətlərini göstərir: məqsəd təkcə hazırda xoş məcrada inkişaf edən münasibətləri, sadəcə, indiki səviyyəsində qorumaq deyil, onları daha sistemli, institusional və nəticəyönümlü mərhələlərə adlatmaqdır.

Strateji xartiyanın əsas xətlərindən biri regional bağlantıların gücləndirilməsidir. Burada Trans-Xəzər Nəqliyyat Dəhlizinə (Orta dəhliz) xüsusi diqqətin ayrılması Azərbaycanın Avrasiya logistika sistemində əsas qovşaq kimi mövqeyini gücləndirir. Bu, ölkənin yalnız enerji ixracatçısı yox, həm də nəqliyyat və data tranzit mərkəzinə çevrilməsi strategiyasının beynəlxalq səviyyədə dəstəklənməsi deməkdir. Eyni zamanda sənəddə qeyd olunan multimodal layihələr, xüsusilə 8 avqust 2025-ci il tarixli Vaşinqton Sülh Zirvə Görüşünün Bəyannaməsinə uyğun olaraq, Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək və regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq multimodal bağlantı layihəsi kimi Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) əhəmiyyətinin vurğulanması, bu istiqamətdə əməkdaşlığı genişləndirmək məqsədinin bəyan edilməsi regionda yeni iqtisadi dinamikaya təkan verərək siyasi-iqtisadi sabitlik alətinə çevrilir.

Enerji sahəsində əməkdaşlığın inkişafı isə münasibətlərin ənənəvi təməlinin daha da möhkəmləndirilməsi mənasına gəlir. Məlumdur ki, Azərbaycan son onilliklərdə Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayır və ABŞ ölkəmizin bu qlobal statusunu müvafiq xartiya ilə strateji səviyyədə tanımış olur.

## Yeni iqtisadi gündəm

Azərbaycanla ABŞ arasında diqqəti çəkən ən mühüm məqamlardan biri də münasibətlərdə yeni iqtisadi gündəmin yaranması, bu gündəmin ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, müasir dünyamızın əsas çağırışlarından olan texnologiya, süni intellekt və rəqəmsal infrastruktur üzrə sıx tərəfdaşlıqları da özündə ehtiva etməsi, beləliklə, iqtisadi əməkdaşlığın yeni mərhələyə keçididir. Məlumdur ki, əvvəlki dövrlərdə Azərbaycan-ABŞ münasibətləri əsasən enerji layihələri üzərində qurulurdu. İmzalanmış xartiya isə texnologiya və innovasiya əsaslı əməkdaşlığı da ön plana çıxararaq, süni intellekt, data mərkəzləri, rəqəmsal infrastruktura sərmayələr, R&D platformaları və texnoloji transfer mexanizmlərinin nəzərdə tutulması ilə Azərbaycan iqtisadiyyatının struktur transformasiyası üçün yeni imkanlar açır. Bu yanaşma Azərbaycanın regionda enerji ilə yanaşı, həm də rəqəmsal iqtisadiyyat mərkəzi kimi formalaşması strategiyasına uyğun gəlir. ABŞ-nin texnoloji ekosistemi ilə sıx əməkdaşlığın bu prosesə böyük sürət, səmərəlilik və keyfiyyət gətirəcəyi şübhəsizdir.

Özəl sektorun aktiv rolunun xüsusi vurğulanması isə Azərbaycan və ABŞ arasında iqtisadi sahədə həyata keçirilməsi nəzərdə tutulan potensial layihələrin praktik xarakterindən xəbər verir ki, bu da münasibətlərin dövlətlərarası səviyyədən biznes-ekosistem səviyyəsinə keçməsi deməkdir.

Xartiyanın təhlükəsizliklə bağlı bölməsi Azərbaycan-ABŞ münasibətlərinin strateji və geosiyasi məzmununu daha açıq şəkildə göstərir. Burada müdafiə və hərbi əməkdaşlığın genişləndirilməsi, antiterror və kibertəhlükəsizlik sahəsində birgə fəaliyyət, humanitar minatəmizləmə sahəsində texnologiya və maliyyə dəstəyi kimi diqqəti çəkən üç mühüm istiqamət iki ölkə arasındakı münasibətlərin təhlükəsizlik tərəfdaşlığı formatında da inkişaf etdiyini, qlobal risklərə qarşı güclü cavab reaksiyaları formalaşdırdığını göstərir. Xüsusilə kibertəhlükəsizlik və kritik infrastrukturun qorunması kimi sahələrin vurğulanması sənədin müasir riskləri nəzərə almasına dəlalət edir. Ümumilikdə Strateji Tərəfdaşlıq Xartiyası Azərbaycan-ABŞ münasibətlərində üç əsas dönüş nöqtəsini nişan verir: 1) Azərbaycan regional tranzit və enerji qovşağı kimi ABŞ tərəfindən strateji tərəfdaş statusunda tanınır; 2) Münasibətlər enerji əməkdaşlığından texnologiya və innovasiya əməkdaşlığı mərhələsinə keçir; 3) Təhlükəsizlik sahəsində əməkdaşlıq daha institusional və sistemli formaya salınır.

## Cənubi Qafqazın gələcəyini quran Lider

Bu xartiya Azərbaycanın və dövlətimizin başçısı İlham Əliyevin qlobal rolunun, eləcə də Cənubi Qafqazın gələcəyini quran liderlik missiyasının beynəlxalq səviyyədə rəsmi təsdiqi kimi də qiymətləndirilə bilər. Dünyanın ən güclü dövlətinin rəhbəri - ABŞ Prezidenti Donald Trampın həmkarı İlham Əliyev haqqında indiyə qədər fərqli siyasi ortamlarda ən yüksək fikirlər söyləməsi, onu qüdrətli lider elan etməsi, yaxın dostum adlandırması, cənab İlham Əliyev şəxsiyyətinə heyranlığını gizlətməməsi də bunu təsdiqləyir.

Diplomatik münasibətlərdə liderlərin bir-biri haqqında xoş sözlər dilə gətirməsi, yüksək rəylər ifadə etməsi əksər hallarda adi diplomatik etiket qaydası kimi qəbul olunur. Amma siyasət, diplomatiya sahəsində az-çox təcrübəsi olan, ayrı-ayrı epizodları birləşdirib ümumi mənzərəyə oradan baxmağı bacaran hər kəs bu cür kəlmələrdən hansıların sırf diplomatik etiketdən, hansıların ürəkdən gəldiyini də ayırd etmək imkanındadır. Bu baxımdan ABŞ Prezidentinin Azərbaycan Prezidentinə olan münasibəti, onun haqqında ifadə etdiyi rəylər, tam qətiyyətlə deyə bilərik ki, sırf səmimiyyətə əsaslanır və bu, təsadüfi deyil. Elə insani dəyərlər, keyfiyyətlər, davranışlar var ki, onları statusundan, tutduğu vəzifədən asılı olmayaraq hər kəs yüksək qiymətləndirir, rəğbətlə qarşılayır. Məsələyə bu prizmadan yanaşsaq, aydın görərik ki, Azərbaycan Prezidenti İlham Əliyev ömrünün böyük hissəsini böyük biznes idarəçiliyində keçirmiş, maraqlı tərəflərlə sıx tərəfdaşlıq münasibətlərində olmuş, fərdlərin şəxsi xarakterlərini, emosional zəkasını ayırd etməkdə yüksək ustalığa malik Donald Trampın bu yüksək münasibətini məhz şəxsi keyfiyyətləri ilə qazanıb.

Siyasətin və diplomatiyanın yazılmamış qanunu var: dövlətlərarası münasibətlərdə şəxsiyyət faktoru həmişə müsbət və ya mənfi istiqamətdə çox önəmli rol oynayır, bu amil münasibətləri ya pozur, ya da əksinə, inkişaf etdirir. Bu gün Azərbaycan və ABŞ arasındakı qarşılıqlı rəğbət, güvən və etimadın iki dövlətin münasibətlərinin tam nizama düşməsində, yüksələn xətt üzrə inkişafında ən mühüm amillərdən olduğu danılmaz reallıqdır.

## "Şərqin qapısı"ndan böyük dünyaya

Bu gün Prezident İlham Əliyev Azərbaycanı böyük bir coğrafiyanın mühüm ticarət-tranzit qovşağına, enerji təhlükəsizliyi məkanına çevirir, ölkəmizə qlobal proseslərə ciddi təsir imkanlarına malik geosiyasi, geoiqtisadi aktor statusu qazandırır. Azərbaycanın bu müstəsna mövqeyində ölkəmizin hər bir bölgəsinin, o cümlədən Naxçıvan Muxtar Respublikasının özünəməxsus yeri və rolu var.

Tarixi məxəzlərdə "Şərqin qapısı" kimi öz əbədi izini qoymuş Naxçıvan İlham Əliyevin qurduğu yeni arxitekturada türk dünyası üçün böyük dünyaya açılan qapı, eyni zamanda Orta dəhlizin mühüm seqmentlərindəndir. Bu, Naxçıvanın siyasi, iqtisadi, logistik əhəmiyyətini, əlahiddə platforma kimi mövqeyini qlobal miqyasa yüksəldir. Azərbaycan Prezidentinin nəzərində Naxçıvan strateji hədəflərə doğru aydın yolun çox mühüm məkan elementi, indinin böyük niyyətlərini gələcəyin reallıqları ilə qovuşduran etibarlı körpüdür.

Azərbaycanla ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Xartiyada Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı təsbit olunmuş müddəalar, Azərbaycanın əsas hissəsinin Naxçıvanın nəqliyyat əlaqələri ilə birləşdirilməsi geosiyasi əhəmiyyətindən, daşıdığı tarixi-mənəvi dəyərdən əlavə, bölgə üçün həm də mühüm iqtisadi əhəmiyyət kəsb edir. Uzun illər blokada şəraitindən əziyyət çəkmiş Naxçıvanın inkişafı önündə geniş üfüqlər açır.

ABŞ ilə imzalanmış sənəddə müdafiə sənayesindən bərpaolunan enerjiyə, süni intellekt həllərindən kənd təsərrüfatına, təhlükəsizlik risklərinin idarəçiliyindən kosmik sənayeyə, kommunikasiya məsələlərindən müvafiq müəssisələrin, istehsal sahələrinin yaradılmasına qədər hər nə öz əksini tapıbsa, strateji inkişaf hədəfləri kimi onların reallaşmasında ölkəmizin digər iqtisadi regionları ilə birgə Naxçıvanın da potensialından geniş istifadə nəzərdə tutulub. Bu isə Azərbaycan Prezidentinin 5 iyun 2023-cü il tarixli müvafiq sərəncamı ilə təsdiqlənmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın məqsədlərini də özündə parlaq şəkildə əks etdirir.

Azərbaycanla ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Xartiya ilə müvafiq dövlət proqramının məqsədlərinin uzlaşdırılması Prezident İlham Əliyevin məsələlərə necə kompleks şəkildə, bütöv bir tam kimi yanaşmasını növbəti dəfə nümayiş etdirir, eyni zamanda dövlət başçısının Naxçıvana, iqtisadi bölgənin perspektiv inkişafına bu cür əlahiddə münasibəti Naxçıvan əhalisinin, Naxçıvan rəhbərliyinin də qarşısında mühüm vəzifələr, təxirəsalınmaz öhdəliklər müəyyənləşdirir.

Ötən il noyabrın 12-də dövlət başçısı Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunmuş başçıları qəbul edərkən bu vəzifələri diqqətə çatdırdı, regionlarımızın, o cümlədən Naxçıvanın inkişafı ilə bağlı konkret tapşırıqlarını verdi.

## Sülh gündəliyindən Sülh Şurasına

Azərbaycan Prezidenti İlham Əliyevin fevral ayında ABŞ-yə səfəri və səfər çərçivəsində Sülh Şurasının ilk iclasında iştirakı müasir diplomatiya tariximizin növbəti nailiyyətlərindən biri kimi qeyd olundu.

Məlumdur ki, beynəlxalq münasibətlər sistemi hazırda köklü transformasiya mərhələsindən keçməkdədir. Geosiyasi rəqabətin kəskinləşməsi, regional münaqişələrin artması və təhlükəsizlik çağırışlarının mürəkkəbləşməsi mövcud qlobal idarəetmə mexanizmlərinin yeni reallıqlara adekvat cavab vermədiyini göstərir. Bu dəyişikliklər fonunda beynəlxalq sülhün təmin olunması üçün yeni alətlərin və platformaların formalaşdırılması məsələsi günümüzün əsas mövzularından birinə çevrilib.

Azərbaycanın bu platformada iştirakının əsasını dövlət başçısı İlham Əliyevin müstəqil və balanslı xarici siyasət xətti təşkil edir. Ölkəmizin beynəlxalq müstəvidə fəal siyasət yürütməsi Prezident İlham Əliyevin irəli sürdüyü inkişaf modeli, strateji sabitlik kursu və çoxtərəfli diplomatiyaya verdiyi töhfələrlə birbaşa bağlıdır. Azərbaycan regional və qlobal problemlərin qarşısının alınması və idarə olunmasında konstruktiv yanaşmanı, dialoqu və nəticəyönümlü diplomatiyanı əsas prinsip kimi irəli sürür.

Sülh Şurası çərçivəsində Azərbaycanın xüsusi diqqət mərkəzində olmasının mühüm səbəblərindən biri də Ermənistanla münasibətlərdə irəli sürülən sülh gündəliyidir. Azərbaycan uzun illər davam edən münaqişənin həlli istiqamətində beynəlxalq hüquq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə əsaslanan yeni reallıq formalaşdırıb. Prezident İlham Əliyev sülh gündəliyinin təşəbbüskarlarından və ən fəal təşviqatçılarından biri kimi çıxış edir. Azərbaycanın dövlət rəhbərinin liderliyi ilə həyata keçirilən siyasət nəticəsində regionda davamlı sülh üçün praktik əsaslar yaradılıb. Bu təcrübə qlobal miqyasda münaqişələrin beynəlxalq hüquq çərçivəsində həllinə dair uğurlu nümunələrdən biri kimi dəyərləndirilir.

Ümumilikdə, Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclasında Prezident İlham Əliyevin iştirakı Azərbaycanın qlobal sülh və təhlükəsizlik gündəliyində artan rolunu bir daha nümayiş etdirdi. Göstərdi ki, Azərbaycan yalnız regional aktor deyil, həm də beynəlxalq səviyyədə sülh təşəbbüslərinə töhfə verən, məsuliyyətli və praqmatik siyasət yürüdən dövlət kimi qəbul olunur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Sülhün iqtisadi formulu

## Etimad quruculuğu həm də ticarət əlaqələri ilə reallaşır

Cənubi Qafqazın geosiyasi xəritəsi, onilliklərlə davam edən mürəkkəb və gərgin mənzərəsi 2025-ci ilin avqustunda Vaşinqtonda atılan imzalarla geridönməz şəkildə dəyişdi. ABŞ rəhbərinin şahidliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında imzalanan sülh bəyannaməsi tərəflərin bir-birinin suverenliyini tanımasını və iqtisadi blokadanın tamamilə aradan qaldırılmasını hüquqi müstəviyə daşıdı.

Uzun illərdir davam edən münaqişə ritorikası yerini intensiv sülh prosesinə və iqtisadi maraqlara verdi. Bu gün biz, sadəcə, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını deyil, Güzdək stansiyasından Ermənistana doğru hərəkət edən və dinc gələcəyin enerjisini daşıyan yanacaq qatarlarını müzakirə edirik.




Fevralın 24-də Azərbaycandan Ermənistana neft məhsullarının növbəti partiyası yola salındı. Yanacaq məhsullarının tədarükü çərçivəsində növbəti 4500 ton dizel yanacağı Güzdək stansiyasından Ermənistana göndərildi. Bakı və İrəvan arasında sülh gündəliyinə uyğun olaraq, Azərbaycandan Ermənistana neft məhsullarının tədarükü ötən il dekabrın 18-dən başlayıb. Gürcüstan tranziti ilə 1200 ton neft məhsulunun ilk dəfə Bakıdan İrəvana çatdırılması ilə başlayan proses sonrakı aylarda daha da intensivləşib. 2026-cı il yanvarın 9-da 1742 ton Aİ-95 markalı benzin və 956 ton dizel olmaqla, ümumilikdə 2 698 ton yük Biləcəri stansiyasından Ermənistana göndərilib. Ardınca yanvarın 11-də 979 ton Aİ-92 markalı avtomobil yanacağı yüklənmiş 18 vaqondan ibarət qatar Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə yola salınıb.

Azərbaycandan Ermənistana göndərilən yanacaq qatarları sülh prosesi çərçivəsində Bakının İrəvana yeganə humanitar jesti deyil. Prezident İlham Əliyev hələ ötən il oktyabrın 21-də Qazaxıstanda səfərdə olarkən Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırdığını bəyan etmiş, dövlət başçısının bu açıqlaması İrəvanda böyük məmnunluqla qarşılanmışdı. Məhz bu tarixi bəyanatın ardından 6 noyabr 2025-ci ildə ilk dəfə olaraq Qazaxıstandan ixrac olunan 1000 ton taxıl Azərbaycan ərazisindən keçməklə Ermənistana daşınmışdı. Sonrakı mərhələdə Rusiyadan göndərilən 8 vaqon qatarda 560 ton taxıl da ölkəmiz üzərindən Ermənistana çatdırılmışdı.

Azərbaycan və Ermənistan arasında ticarət münasibətlərinin miqyası genişlənməkdədir. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2026-cı ilin yanvar ayında Azərbaycan Ermənistana 2 milyon 403,6 min dollar dəyərində məhsul ixrac edib ki, bu, ölkəmizin ümumi ixracının 0,11 faizini təşkil edir. Sıfırdan başlayan bir ticarət üçün bu, simvolik deyil, texniki uğurdur. Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan bildirib ki, Azərbaycan tərəfi ixrac edə biləcəyi məhsulların siyahısını qarşı tərəfə verib. Eyni zamanda İrəvan da Bakıya sata biləcəyi məhsulların növünü təqdim edib: "Müzakirələr gedir, hələ ciddi rəqabət üstünlükləri yoxdur. Əlbəttə, müxtəlif mədəni-psixoloji məsələlər də var, amma bu prosesdir, ticarət olacaq. Əminəm ki, iki ölkə arasında yüz milyonlarla dollar potensial var, amma vaxt tələb olunur". Papoyan əlavə edib ki, Azərbaycandan yanacaq idxalı iş adamlarının ixtiyarındadır və proses öz relsi üzrə gedir: "Biz benzin alacağıq və burada əlçatan qiymətlərlə satacağıq".

Məhsul siyahılarının mübadiləsi, iki ölkənin bir-birinə qarşılıqlı ixrac potensialı olan malların çeşidlərini təqdim etməsi regionda yeni təchizat zəncirinin yaranmasından xəbər verir və ticarət dövriyyəsinin yaxın gələcəkdə yüz milyonlarla dollara çatacağı gözləntisini reallaşdırır. 2026-cı ilin yanvar ayı statistikasındakı 2,4 milyon dollarlıq ixrac göstəricisi onilliklərdir davam edən iqtisadi izolyasiyanın rəsmən sona çatdığının və real ticarət dövriyyəsinin başladığının ən böyük sübutudur. Bu mənzərə tərəflərin etimad mühitinə keçidi istiqamətində ilkin, lakin həlledici mərhələdir. Bakı və İrəvan göstərir ki, sülh, sadəcə, diplomatik masalarda müzakirə olunan mücərrəd anlayış deyil, həm də dövlət büdcələrinə və gömrük statistikalarına daxil olan real iqtisadi faktordur. Ermənistan bazarına daxil olan Azərbaycan məhsulları psixoloji baryerlərin iqtisadi mənfəətlə aşılması baxımından da önəmlidir. Əlbəttə, bu proses sərbəst bazar qanunları və biznes maraqları üzərində qurulur.

Artıq sülh gündəliyi dedikdə, tərəflərin, sadəcə, sərhəd xətlərini deyil, həm də gömrük qapılarını, bank köçürmələrini və rəqabətədavamlı bazar şərtlərini müzakirə etdiyi mühit başa düşülür. Bu, sülhün relslər üzərində bərqərar olmasının işarəsidir. Ümumiyyətlə, son aylarda cərəyan edən proseslər sülh marafonunun yeni və ümidverici mərhələyə qədəm qoyduğunu göstərir. Münaqişə səhifəsinin qapandığını tərəflərin bir-birinə ünvanladığı bəyanatlarda deyil, birbaşa ticarət statistikalarında, açılan nəqliyyat marşrutlarında və ən yüksək səviyyəli etiraflarda görürük. Ermənistanın Baş naziri Nikol Paşinyan fevralın 18-19-da ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Sülh Şurasının ilk iclasında iştirakdan sonra ölkəsinə "sülhə daha böyük inamla qayıtdığını" açıqlayıb. Bu ifadə Vaşinqtonun sülh prosesində nə dərəcədə həlledici rol oynadığını göstərir, həmçinin regionda uzunmüddətli sabitlik üçün yeni bir mexanizmin işə düşdüyünə işarə edir.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da Vaşinqton sammitindən sonra tərəflər arasında yeni səhifə açıldığını söyləyib. Bu ölkənin XİN başçısı vurğulayıb ki, ötən il avqustun 8-də Vaşinqtonda Birgə bəyannamənin imzalanması və əldə edilən irəliləyişdən sonra Cənubi Qafqazda sülh, rifah və regional əməkdaşlıq sahəsində yeni səhifə açılıb: "Mövcud şərait Ermənistan və Azərbaycan üçün sülhün möhkəmləndirilməsi, qarşılıqlı etimadın dərinləşdirilməsi və regional əməkdaşlığın təşviqində mühüm rol oynaya biləcək əlaqə, ticarət və etimad quruculuğu tədbirlərini inkişaf etdirmək üçün real imkan yaradır". Mirzoyanın qeyd etdiyi "yeni səhifə" anlayışı regionun iqtisadi xəritəsinin dəyişməsi deməkdir. Güman ki, Mirzoyan "regional əməkdaşlığın təşviqi" deyərkən Ermənistanın Azərbaycan və Türkiyə ilə qapalı olan sərhədlərinin tam açılmasını və iqtisadi blokadadan çıxmasını nəzərdə tutur. Şübhəsiz, sülh əldə olunarsa, Ermənistanın Azərbaycanın enerji resurslarından istifadə etməsi və regional layihələrə qoşulması tərəflərin müzakirə etdiyi perspektivlərdən biridir. Yəni tam iqtisadi münasibətlər və regional əməkdaşlıq yekun sülh müqaviləsi imzalandıqdan və kommunikasiyalar açıldıqdan sonra mümkün olacaq. Eyni zamanda Türkiyə Ermənistanla sərhədlərini açacaq. Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" partiyasının üzvü Ernest Qazaryan da deyib ki, artıq Ermənistan və Azərbaycan arasında sülh bərqərar olub: "Sülh artıq reallıqdır. Qan tökülməsi dayanıb. Sülhün bərqərar olmasından sonra iki ölkə arasında iqtisadi və diplomatik münasibətlər bərpa olunur".

Ticarət mübadiləsi sülhün zəmanəti və iki ölkə arasında etimad quruculuğuna ciddi töhfə kimi dəyərləndirilməlidir. Sözsüz, bu yeni səhifənin açılmasında Azərbaycanın barış təşəbbüslərinin, Sülh Şurası kimi beynəlxalq platformaların və yüksəksəviyyəli diplomatik məsləhətləşmələrin rolu əvəzsizdir.

Sülh prosesi çərçivəsində növbəti təmaslardan biri Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov və Ermənistanın xarici işlər nazirinin müavini Robert Abisoqomonyanın fevralın 24-də Cenevrədə reallaşan görüşüdür. Bu görüş sülh prosesinin mühüm tərkib hissəsi olan etimad quruculuğu tədbirlərinin davamıdır. Cenevrə görüşləri sülh müqaviləsinin mətnindən daha çox humanitar məsələlər, itkin düşmüş şəxslər və beynəlxalq təşkilatlarda qarşılıqlı ritorikanın yumşaldılması kimi spesifik mövzulara fokuslanır. O baxımdan adətən Cenevrə təmasları daha məhsuldar nəticələr verir.

Beləliklə, Vaşinqtondan Cenevrəyə uzanan diplomatik müzakirələr və kommersiya əlaqələri sülhün artıq siyasi arzudan regionun rifahını təmin edən canlı bir prosesə çevrildiyinin əyani təzahürüdür. Azərbaycanın strateji humanitar jestləri və Ermənistan rəhbərliyinin iqtisadi praqmatizmə yönəlməsi regionu münaqişə poliqonundan qlobal tranzit və enerji qovşağına çevirir. Bu prosesin sonunda qazanan tərəf təkcə Bakı və İrəvan deyil, bütövlükdə sabitlik və rifah içində yaşayan Cənubi Qafqaz olacaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Milli maraqları uğurla təmin edən enerji siyasəti




Yaxın vaxtlarda Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci iclası və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclası keçiriləcək. 2015-ci ildən etibarən keçirilən bu platforma artıq beynəlxalq enerji dialoqunun mühüm platformalarından birinə çevrilib. Bu tədbirlərdə Avropa İttifaqı da daxil olmaqla dünyanın müxtəlif ölkələrindən yüksəksəviyyəli nümayəndələr iştirak edirlər.

Məşvərət Şurasının iclasında ilboyu görülən işlərə yekun vuruları, qarşıdakı vəzifələr müəyyənləşdirilir. Əvvəllər "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasında əsas müzakirələr qaz və enerji təhlükəsizliyi məsələləri üzərində aparılırdısa, indi gündəlikdə "yaşıl enerji" mövzuları da geniş yer tutur. Bu isə onu göstərir ki, Azərbaycan, sadəcə, qaz sahəsində yox, həmçinin "yaşıl enerji" istiqamətində də öncül mövqe tutur və bu sahədə liderliyini qoruyub saxlayır.

Hazırda Azərbaycanın təbii qazının beynəlxalq bazarlara çıxışını təmin edən əsas infrastruktur "Cənub qaz dəhlizi"dir. Bu enerji dəhlizi 2018-ci ilin mayında istifadəyə verilib. 2020-ci ilin sonunda bu kəmərin əsas seqmentlərindən olan TAP boru kəmərinin istifadəyə verilməsindən sonra Azərbaycanın təbii qazının Türkiyə və Gürcüstanla yanaşı, Avropa dövlətlərinə çatdırılması da təmin olunub. Bu layihədə yüksəkvəzifəli rəsmilərin iştirakı göstərir ki, "Cənub qaz dəhlizi" Avropa üçün xüsusi maraq doğuran və strateji əhəmiyyət daşıyan layihələrdəndir. Azərbaycanın təşəbbüsü və aparıcı qüvvəsi ilə həyata keçirilən "Cənub qaz dəhlizi"nin uğur qazanmasında sözügedən iclasların böyük rolu olub.

"Cənub qaz dəhlizi", sadəcə, təbii qaz ötürücüsü deyil. Bu enerji dəhlizi həm də üzərində yerləşən dövlətlər arasında müstəqil, qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq deməkdir. Bu mənada "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası Prezident İlham Əliyevin enerji diplomatiyasının mühüm tərkib hissəsidir. Bu platformada işləmək və onu koordinasiya etmək böyük məsuliyyət tələb edir.

Azərbaycandan "qoca qitə"yə qədər 3500 kilometr məsafə qət edən "Cənub qaz dəhlizi" layihəsinin gerçəkləşməsində Prezident İlham Əliyevin imzası və qətiyyəti böyük rol oynayıb. O qətiyyət ki buna qədər Azərbaycanın bütün enerji layihələrinin uğurla həyata keçirilməsini təmin etmişdi. Dövlətimizin başçısı maraqlı tərəfləri, bütün siyasi və iqtisadi strukturları bu layihə ətrafında səfərbər edərək onları komanda halında birləşdirdi. Həm Avropa İttifaqının, həm də "Cənub qaz dəhlizi" üzərində yerləşən dövlətlərin iştirakı ilə "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası formatında bu layihə ətrafında uğurlu əməkdaşlıq və müzakirə platforması yaradıldı.

Azərbaycanın təsdiqlənmiş təbii qaz ehtiyatları 2,8 trilyon kubmetr təşkil edir. Məhz bu zəngin resurs bazası ölkəmizi regionun əsas qaz ixracatçılarından birinə çevirib. Hazırda Azərbaycan 16 ölkəyə qaz ixrac edir. 2026-cı ilin yanvar ayından etibarən Azərbaycan qazı Avstriya və Almaniyaya da çatdırılmağa başlanıb. Beləliklə, hazırda Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya Azərbaycan qazını alan ölkələr sırasındadır. Təbii ki, bu siyahı getdikcə genişlənəcək.

Azərbaycan qazının əsas mənbəyi isə "Şahdəniz" yatağıdır. Bu yataq uzun illərdir ölkənin qaz strategiyasının əsas dayağı kimi çıxış edir. 2006-cı ildən istismarda olan yataq 2018-ci ildə ikinci mərhələnin işə düşməsi ilə daha da genişləndi. Nəticədə qazın ixrac həcmi artdı və Avropaya birbaşa nəqli təmin olundu.

Təbii qazın ixracı isə ildən-ilə artır. Statistik göstəricilər də bu dinamikanı təsdiqləyir. Belə ki, 2026-cı ilin yanvar ayında Azərbaycanın magistral qaz kəmərləri ilə 3 milyard 979,4 milyon kubmetr qaz nəql edilib. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 11,7 faiz çoxdur. İxracın artması isə öz növbəsində hasilatın artmasını, infrastrukturun genişlənməsini, şaxələnməsini tələb edir. Deməli, növbəti toplantıda da müzakirə ediləcək mövzular, həll olunacaq məsələlər çox olacaq.

Avropanın enerji bazarında baş verən dəyişikliklərdə Azərbaycan qazının rolu böyükdür. Xüsusilə Avropada alternativ mənbələrə ehtiyacın artması "Cənub qaz dəhlizi"nin əhəmiyyətini artırır. Bu baxımdan Azərbaycan etibarlı və sabit təchizatçı kimi qəbul olunur.

Xatırladaq ki, 2025-ci il iyunun 10-da SOCAR-la Almaniyanın SEFE şirkəti arasında 2035-ci ilə qədər qüvvədə olacaq müqavilə imzalanıb. Müqaviləyə əsasən, illik qaz tədarükü həcmi mərhələli şəkildə təxminən 1,5 milyard kubmetrə çatdırılacaq. Bundan əvvəl Almaniyanın "Uniper" şirkəti də Şahdəniz qazının illik 1,5 milyard kubmetr həcmində alıcısı olub. Bu faktlar Azərbaycan qazına Avropada yüksək tələbat olduğunu göstərir.

Əlbəttə, qaz ixracının artması respublikamızın gəlirlərinin artmasında da özünü göstərir. Bu baxımdan enerji sektoru iqtisadiyyatın aparıcı sahələrindən biri olaraq qalır.

Beynəlxalq hesabatlara görə, təbii qaz yaxın onilliklərdə keçid yanacağı kimi əhəmiyyətini qoruyub saxlayacaq. Bu mənada Azərbaycan qazının bazardakı mövqeyi perspektivli görünür. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji siyasəti nəticəsində respublikamızın ixrac imkanları davamlı şəkildə genişlənir. Dövlətimizin başçısının da vurğuladığı kimi, 2030-cu ilə qədər əlavə 8 milyard kubmetr təbii qazın təmin olunması planlaşdırılır və bu həcmin böyük hissəsi Avropa bazarlarına yönəldiləcək.

Təbii qazın hasilatı və ixracı bu gün ölkəmizin enerji strategiyasının əsas xətti kimi çıxış edir. Artan ixrac həcmləri, genişlənən coğrafiya və yeni müqavilələr ölkəmizin beynəlxalq enerji bazarında mövqeyini daha da gücləndirir. "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iclasları isə bu uğurlu siyasətin davamlılığını təmin edir. Təbii qaz həm də ölkəmizin beynəlxalq nüfuzunu artıran, strateji mövqelərini möhkəmləndirən amil kimi özünü göstərir.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Antimilli ünsürlərin xisləti



Fevralın 19-da Vaşinqtonda bir qrup antimilli ünsür təxribat xarakterli hərəkətlərə yol verərək, mühafizə olunan əraziyə daxil olmağa cəhdlər etdi. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti və ABŞ polisinin birlikdə operativ müdaxiləsi nəticəsində vəziyyət nəzarət altına alındı, antimilli ünsürlər ərazidən uzaqlaşdırıldı. Azərbaycanın ABŞ-dəki səfirliyinin yaydığı bəyanatda da qeyd edilir ki, Prezident korteji mehmanxana ərazisinə yaxınlaşarkən etirazçılar mühafizə olunan əraziyə zorla daxil olmağa cəhd edib və Prezident avtomobilinə yönəlik hücum aktları həyata keçiriblər.

Dövlət başçısını mühafizə edən nəqliyyat vasitəsinin hərəkətinə maneçilik törədilməsinin və ya fiziki müdaxilə olunmasının ciddi təhlükəsizlik təhdidi yaratdığı nəzərə alınaraq, Prezidentin Təhlükəsizlik Xidmətinin dərhal müdaxilə etməkdən başqa seçimi qalmayıb. Həyata keçirilən tədbirlər standart əməliyyat prosedurlarına uyğun olaraq yalnız təhlükəsizlik və mühafizənin təmin olunmasına yönəlib.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, Vaşinqtonda təxribata cəhd edən antimilli ünsürlər ABŞ-dəki şovinist erməni dairələrinin cızdığı ssenariləri həyata keçirməyə cəhdlər göstərməklə kimliklərini bir daha nümayiş etdirdilər: "Vətənə xəyanət yolu tutanların hansı aqibəti yaşadıqları məlumdur. Şəxsi ambisiyalarının quluna çevrilən bu antimilli ünsürlər xarici dairələrin ölkəmizə qarşı hazırladıqları planları icra etməklə nə qədər mənəviyyatsız olduqlarını təsdiqləyirlər. Ümummilli Lider Heydər Əliyevin bir fikrini xatırlatmaq istəyirəm: "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır". Ulu Öndər eyni zamanda bildirmişdi ki, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir", - deyə deputat əlavə edib.

V.Rəhimzadə qeyd edib ki, Vaşinqtonda baş verən təxribatda antimilli ünsürlərə, xəyanətkarlara ilk dəstək verən qurumun erməni diaspor təşkilatı ANCA və Azərbaycan xalqının və dövlətinin qatı düşməni olan ermənipərəst Frenk Pallonenin olması bu qüvvələrin birgə fəaliyyət göstərdiklərini təsdiqləyir. Frank Pallone uzun illərdir erməni lobbisi ilə işbirliyində olaraq hər zaman Azərbaycanın maraqlarına qarşı qərəzli mövqe ortaya qoyub. Onun da keçmiş senator Bob Menendez kimi erməni lobbi təşkilatlarından maliyyə aldığı sirr deyil. "Ermənipərəst keçmiş senator Bob Menendezin korrupsiya və rüşvətxorluğa görə məhkum olunması bu şəbəkənin əsl mahiyyətini ifşa etdi. Dövlətimizə qarşı yönələn bədnam 907-ci düzəlişin təşəbbüskarı və müəlliflərindən biri də Pallone olub. Pallone kimi ermənipərəstin, ANCA kimi təşkilatların fəaliyyəti birbaşa ölkəmizin maraqlarına qarşı yönəlib. Bu qüvvələr xəyanətkarlardan, antimilli ünsürlərdən öz maraqları üçün istifadə edirlər. Bu cür təxribatlar dövlətimizin güclənməsinə, müstəqil siyasət yürütməsinə, xalqımızın iradəsinə qarşı yönəlir. Məqsəd Azərbaycanın artan beynəlxalq nüfuzuna zərbə vurmaq, uğurlarına kölgə salmaqdır. Azərbaycan tarixi Zəfəri, suverenliyinin tam bərpası ilə yeni reallarlar yaradıb. Bu reallıqlar ölkəmizin beynəlxalq münasibətlər sistemində yerini və rolunu daha da möhkəmləndirib", - deyə V.Rəhimzadə bildirib.

Deputat vurğulayıb ki, Azərbaycanın sülh və əməkdaşlıq gündəliyinin müəllifi kimi nüfuz qazanması özündə bütün çağırışları ehtiva edir. Bu gün Azərbaycan-ABŞ münasibətlərində yeni səhifənin açılması, strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələrdə yüksələn xətlə inkişafı təbii ki, bəzi dairələrdə qısqanclıqla qarşılanır. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurasının təsisçi üzvü olmaq Azərbaycanın dünya siyasətində söz sahibliyinin növbəti təzahürüdür. Uğurlarımızın fonunda antimilli ünsürlərin xarici dairələrin göstərişi ilə etdikləri cəhdlərin nə qədər mənasız, yersiz olduğu aydın görünür.

Azərbaycanın bu zirvəyə ədalətə və beynəlxalq hüquqa söykənən müstəqil siyasəti ilə çatdığını deyən V.Rəhimzadə bildirib ki, erməni lobbisi, anti-Azərbaycan dairələr, öz ölkəsinə düşmən kəsilən bu antimilli ünsürlər, xəyanətkarlar istəklərinə heç vaxt nail ola bilməyəcəklər. "Azərbaycan müstəqil daxili və xarici siyasət həyata keçirən, milli maraqlarını hər şeydən üstün tutan qüdrətli dövlətdir. Azərbaycan xalqının milli birliyini və həmrəyliyini sarsıtmaq mümkün deyil. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlayıb, öz ideallarına həmişə sadiq qalıb. Azərbaycan çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanıb. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində, birgünlük antiterror tədbirlərində zəfərləri ilə sübuta yetirib. Xalq-iqtidar birliyi bütün uğurlarımızın əsasıdır. Bu reallıqları görməzdən gələnlər siyasi korlardır", - deyə deputat bildirib.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# İrəvan seçki prosesini hibrid müdaxilədən qorumaq istəyir



Ermənistanda gözlənilən parlament seçkiləri və konstitusiya referendumu təkcə ölkənin daxili siyasi kursunu deyil, bütövlükdə Cənubi Qafqazın gələcək geosiyasi mənzərəsini müəyyən edən həlledici mərhələdir. Bu proseslər Azərbaycanla davam edən sülh danışıqlarının hüquqi və siyasi legitimliyi baxımından ciddi sınaq kimi qiymətləndirilir. Rəsmi Bakı Ermənistanın daxili siyasi mənzərəsi ilə bağlı iki əsas suala cavab tələb edir: Ermənistan cəmiyyəti konstitusiyasında yer alan ərazi iddialarından imtina edərək sülhə üstünlük verəcəkmi və hazırkı hakimiyyət radikal-revanşist qüvvələrin təzyiqi qarşısında sülh iradəsini qoruyub saxlaya biləcəkmi?

Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Ermənistanın siyasi gündəmində yer alan bu iki hadisə sülh müqaviləsinin imzalanması prosesində həm katalizator, həm də ciddi maneə rolunu oynaya bilər: "Azərbaycanın ən prinsipial tələbi Ermənistanın konstitusiyasında və Müstəqillik Bəyannaməsində yer alan ölkəmizin ərazi bütövlüyünə qarşı yönəlmiş müddəaların çıxarılmasıdır. Müstəqillik Bəyannaməsi İrəvanın Bakı və Ankara ilə münasibətlərinin normallaşması prosesində ən ciddi maneədir. Deməli, Ermənistan konstitusiyası redaktə olunmayana, Müstəqillik Bəyannaməsinə istinad əsas qanundan çıxarılmayana qədər İrəvanın Azərbaycana qarşı ərazi iddialarının olmaması barədə danışmaq mümkün deyil. Referendum bu problemin yeganə hüquqi həlli yoludur. Prezident İlham Əliyev fevralın 1-də Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonqu qəbul edərkən də Ermənistanın Əsas qanununun dəyişməsi məsələsinə toxunub. Dövlət başçısı bildirib ki, İrəvanın Müstəqillik Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var və bu sənədə istinadlar da konstitusiyada öz əksini tapıb. Həmçinin qeyd olunub ki, hazırda qonşu ölkədə bu mövzuda müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər".

K.Bayramov qeyd edib ki, referendumun müsbət nəticələnməsi sülh müqaviləsinin konstitusion baxımdan toxunulmazlığını təmin edəcək. Bu isə gələcəkdə hər hansı hakimiyyət dəyişikliyi zamanı sülh sənədinin ləğvi riskini minimuma endirəcək. Əgər Ermənistan cəmiyyəti həmin dəyişikliklərə "yox" deyərsə, bu, sülh prosesinin iflasa uğraması və bölgədə yeni hərbi gərginlik dalğasının yaranması anlamına gələ bilər. "Hazırkı hakimiyyətin seçkilərdə qələbə qazanması isə ictimaiyyətin Azərbaycanla delimitasiya və demarkasiya prosesinə, eləcə də kommunikasiyaların açılmasına siyasi dəstəyinin göstəricisi kimi qiymətləndiriləcək. Qeyd etmək lazımdır ki, Koçaryan- Sarkisyan cütlüyünə bağlı revanşistlər, eləcə də kilsənin siyasi ambisiya nümayəndələri seçki prosesini "milli ləyaqət mübarizəsi" kimi təqdim edərək sülh gündəmini pozmağa çalışa bilərlər. Onların hakimiyyətə gəlmələri və ya parlamentdə güclü blok formalaşdırmaları sülh sazişinin imzalanmasını qeyri-müəyyən müddətə təxirə sala bilər", - deyə deputat bildirib.

Deputat vurğulayıb ki, Ermənistan qarşıdan gələn parlament seçkiləri prosesinə Rusiyanın mümkün müdaxiləsindən və dezinformasiyadan qorunmaqda kömək etməsi üçün ölkəyə çevik hibrid reaksiya qrupunun göndərilməsi xahişi ilə Avropa İttifaqına müraciət edib. Ermənistanın Aİ-dən hibrid müdafiə dəstəyi istəməsi, əslində, seçkilərdən və referendumdan "sülh mandatı" ilə çıxmaq üçün atılan qabaqlayıcı addımıdır. İrəvan daxili siyasi proseslərini Moskvanın hibrid müdaxilələrindən qorumaqla, Azərbaycanla imzalanacaq gələcək sülh sənədinin hüquqi və siyasi legitimliyini təminat altına almağa çalışır. Bu proseslərin uğurla nəticələnməsi Cənubi Qafqazın onilliklərdir davam edən gərginlikdən qurtularaq iqtisadi əməkdaşlıq və sabitlik məkanına çevrilməsi üçün yeganə real çıxış yolu kimi qiymətləndirilir.

K.Bayramov əlavə edib ki, Ermənistanda qarşıdan gələn seçki və referendum marafonu regionun "qanlı keçmişi" ilə "sabit gələcəyi" arasında həlledici seçimə çevriləcək. Bu ölkədə daxili sabitliyin və sülh iradəsinin üstünlük qazanması bölgədə onilliklərdir davam edən düşmənçiliyin iqtisadi əməkdaşlıqla əvəz olunması üçün yeganə real çıxış yolu hesab olunur.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

# *İtaliyalı ekspert:* "Prezident İlham Əliyevin Vaşinqtona səfəri Xəzər regionunun yeni geosiyasi kursunu nümayiş etdirir"

"Prezident İlham Əliyevin fevralın 19-da Sülh Şurasının ilk iclasında iştirak etmək üçün Vaşinqtona səfəri Azərbaycanın qlobal təhlükəsizlik sistemindəki rolunun transformasiyasının və ABŞ-nin regiondakı əsas strateji tərəfdaşlarından biri kimi çıxış etməsinin mühüm göstəricisi oldu".



Bu barədə AZƏRTAC-a İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti və beynəlxalq ekspert Karlo Marino bildirib.

Ekspert qeyd edib ki, dövlət başçısının ABŞ Prezidenti Donald Trampın şəxsi dəvəti ilə Sülh Şurasının iclasında iştirakı protokol diplomatiyasından daha da irəli gedir və Azərbaycan-Amerika münasibətlərində keyfiyyətcə yeni bir mərhələnin başladığını göstərir. O qeyd edib ki, Sülh Şurası Cənubi Qafqazda strateji yaxınlaşmanı möhkəmləndirmək üçün institusional platformaya çevrilib, soyuq müharibənin bitməsindən bəri regionda ən əhəmiyyətli geosiyasi dəyişikliklərdən biridir.

Agentliyin həmsöhbəti fevralın 10-da Bakıda ABŞ və Azərbaycan hökumətləri arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanmasını xatırladaraq bildirib ki, bu sənəd ikitərəfli münasibətləri əsasən enerjiyə yönəlmiş formatdan çoxşaxəli strateji ittifaqa çevirir. O qeyd edib ki, xartiya dörd əsas sahədə - iqtisadiyyat və ticarət, enerji, süni intellekt və rəqəmsal inkişaf, təhlükəsizlik və müdafiə sahələrində işçi qruplarının yaradılmasını nəzərdə tutur. Ekspert əlavə edib ki, üç ay ərzində konkret yol xəritələri və birgə layihələrin siyahısının təqdim edilməsi planlaşdırılır.

Karlo Marino qeyd edib ki, sənədin əhatə dairəsi onu xüsusilə əhəmiyyətli edir. Neft və qaz sektorundakı ənənəvi əməkdaşlıqla yanaşı, mülki nüvə enerjisi, vacib mineralların tranziti və elektrik enerjisi bazarlarının inteqrasiyası sahələrində əməkdaşlıq da nəzərdə tutulur. Ekspert vurğulayıb ki, "Cənub qaz dəhlizi" artıq Azərbaycanın Avropa üçün enerji tərəfdaşı kimi etibarlılığını sübut edib və yeni xartiya onilliklər ərzində uzunmüddətli tərəfdaşlığın təməlini qoyur.

Onun sözlərinə görə, sənəddə rəqəmsal transformasiyaya xüsusi diqqət yetirilir. Buraya süni intellekt, kibertəhlükəsizlik, kosmik sənaye sahəsində əməkdaşlıq və dövlət-özəl tərəfdaşlığı vasitəsilə Azərbaycanda süni intellekt data mərkəzlərinin yaradılması daxildir. Assosiasiyanın vitse-prezidenti əlavə edib ki, bu, rəqəmsal infrastruktur və məlumatlar üzərində nəzarətin qarşıdakı illərdə geosiyasi rəqabətdə əsas amilə çevriləcəyi və Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycanın rəqəmsal mərkəz kimi mühüm rol oynamaq potensialına malik olması anlayışını əks etdirir.

Karlo Marino həmçinin qeyd edib ki, Azərbaycanın Sülh Şurasının təsisçi üzvü olmağa dəvət edilməsi onun sülh və sabitliyin təşviqindəki rolunun tanınmasıdır. O, bu kontekstdə ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında çərçivə sülh sazişinin imzalanmasında ABŞ-nin fəal vasitəçiliyinin və Bakının ərazi bütövlüyünü bərpa etdikdən sonra siyasi və diplomatik mexanizmlər vasitəsilə sülhü möhkəmləndirmək istəyinin əhəmiyyətini qeyd edib.

Avropa meyarı prizmasından danışan ekspert vurğulayıb ki, ABŞ ilə Azərbaycan arasında dərinləşən strateji tərəfdaşlığın İtaliya üçün də mühüm əhəmiyyəti var. İtaliya Avropa İttifaqında Azərbaycanın aparıcı tərəfdaşı olaraq qalır və ənənəvi olaraq, enerjiyə əsaslanan ikitərəfli münasibətlər hazırda təhlükəsizlik, təhsil və strateji dialoq sahələrini də əhatə edir.

Karlo Marino bildirib: "Azərbaycanın neft və qaz təchizatı ölkəmizin enerji təhlükəsizliyində mühüm rol oynayır. Bundan əlavə, əməkdaşlıq enerji təchizatından kənara çıxır. İtaliya-Azərbaycan Universitetinin yaradılması iki ölkə arasında humanitar və təhsil əlaqələrinin inkişafına mühüm töhfə olub".

İtaliyalı ekspert müsahibənin sonunda xatırladıb ki, yanvar ayında Bakıda İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın altıncı iclası keçirilib. Görüşdə alternativ enerji, nəqliyyat əlaqələri və təhsil sahələrində layihələr müzakirə olunub. O qeyd edib ki, əldə edilən razılaşmalar Azərbaycan-İtaliya tərəfdaşlığının inkişafında əlavə stimul olacaq.



# I Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələ idi

Türk xalqlarının yazısının üçminillik tarixə malik olmasına baxmayaraq, bir neçə dəfə əlifbalarında dəyişiklik olub. Dilimizin yazılı hissəsində yaşanan əsas çətinliklər hərflərin mürəkkəb təsviri və istifadəsi ilə bağlı idi.

Azərbaycan dilində rəsmi üç əlifba sistemi mövcuddur: Azərbaycanda latın, İranda ərəb və Dağıstanda Kiril əlifbaları. 1922-ci ilə qədər Azərbaycanda türk dilləri ailəsinə aid əlavə işarələrlə birgə ərəb yazıları işlədilirdi. Azərbaycan mədəniyyət xadimlərinin qeydlərinə istinadən söyləyə bilərik ki, bu, çox çətin qrafik sistem təşkil edirdi. Hələ XVI əsrdə M.Füzuli ərəb dilinin çətinliyi barədə öz fikrini söyləmişdi. Bu çətinliklərə baxmayaraq, Azərbaycanda 1929-cu ilədək ərəb əlifbası latın əlifbası ilə yanaşı işlənib.

Türkdilli xalqların əksəriyyəti uzun müddət öz əsərlərini fars, ərəb, türk dillərində yazıblar və bu ənənə ədəbi dil üslubunun zənginləşməsinə xidmət edib. Azərbaycan xalqının görkəmli şəxsiyyətləri - Nəsimi, Füzuli üç dildə mükəmməl əsərlər yazıblar. M.Füzulinin ərəb, fars, türk dillərində yazdığı bənzərsiz sənət nümunələri dövrünün ənənələrinə xas olaraq hər üç dili yüksək səviyyədə bilməsinə sübutdur. Onun Azərbaycan, Yaxın və Orta Şərq klassiklərinin müxtəlif dillərin qarışığından istifadə etməklə yazdığı şeirlər təsadüfi deyil, tarixi-coğrafi şəraitlə əlaqədardır. VII əsrdən sonra ərəb xilafətinin tərkibinə daxil olan ərazilərdə ərəb dilinin dövlət dili olması bir çox xalqın mədəniyyətini özündə birləşdirən ümummüsəlman mədəniyyətinin yaranmasına səbəb olub, islam bayrağı altında birləşən xalqlar üçün müştərək dünyagörüşünə əsaslanan ortaq ədəbi mövzular, janr formaları təşkil edib.

Azərbaycan türk dilinin yazılışında latın əlifbasının qəbul edilməsi təşəbbüsü ilk dəfə XIX əsrdə yaranıb. Yeni əlifba görkəmli ictimai xadim, yazıçı, maarifçi, şair, filosof, Rusiya Coğrafiya Cəmiyyətinin üzvü, Azərbaycan dramaturgiyası və ədəbi tənqidinin banisi Mirzə Fətəli Axundzadə (Axundov) tərəfindən tərtib olunub. O, 1857-ci ildə farsca yazdığı ərəb əlifbasının islahat layihəsində ərəb yazılarının çatışmazlıqlarını qeyd edərək həlli yollarını təklif edib. M.F.Axundov 1863-cü ildə öz layihəsinə dəstək almaq məqsədilə İstanbula səfər edib. Bu layihə "Ancuman - Danış" Elmi Cəmiyyəti tərəfindən rədd olunub. Buna cavab olaraq islam əlifbasından tamamilə imtina etməyi, Avropa yazı sistemi üzrə soldan sağa yazmağı təklif edən M.F.Axundov Avropa sisteminə əsaslanan 42 işarəli (32 samit və 10 sait) yeni əlifba tərtib edib. Bu əlifbada görkəmli ədib ərəb əlifbasının bütün hərflərini saxlamış, orada yer almayan saitləri əlifbaya əlavə etmişdi. M.F.Axundov İstanbuldan qayıtdıqdan sonra əlifba haqqında ikinci layihə tərtib edərək Tehrana göndərib. Lakin irticapərəst İran hökuməti başda Nəsrəddin şah olmaqla bu layihəni qəbul etməyib. Əlifba məsələsi ilə bağlı üçüncü layihəni Türkiyə sədrəzəmi Ali paşaya göndərir. M.F.Axundov geniş xalq kütləsinin tez və asan yolla savadlanması üçün köhnə ərəb əlifbasının dəyişdirilməsi uğrunda ömrünün sonuna qədər mübarizə aparıb, Azərbaycan dilinin sadələşdirilməsi uğrunda çalışıb, dramatik əsərlərini çox sadə xalq danışıq dilində yazıb. "Əlifba haqqında mənzumə" əsərini yazıb.

XX əsrin əvvəllərində latın əlifbasına keçid barədə bir neçə dəfə məsələ qaldırılıb. Cəlil Məmmədquluzadə, Həsən bəy Zərdabi, Nəriman Nərimanov və digər ədiblər ərəb əlifbasından latın əlifbasına keçidin zəruri olduğunu söyləyiblər. Nəhayət, 1919-cu ildə Azərbaycan Demokratik Respublikası Maarif Nazirliyinin nəzdində yeni əlifbanın tədqiqi üzrə komissiya yaradılıb. A.Əfəndizadənin təqdim etdiyi nümunələrdən biri təsdiq olunaraq nəşr edilib.

Azərbaycanda bolşevik hökuməti qurulandan sonra Azərbaycan yazısının latın əlifbasına keçməsi yenidən gündəmə gəlib. Uzun müzakirələrdən sonra yeni əlifba 1922-ci ildə təsdiq edilib, 1925-ci ildə isə ərəb əlifbası ilə yanaşı, rəsmi əlifba kimi istifadə olunub.

Latın əlifbasına keçid ölkəmizdə yazının inkişafına öz dəyərli töhfələrini verib. 1924-cü ildə Moskvada Şərqşünaslıq Elmi Cəmiyyəti nəzdində türk yazılarında latın şrifti assosiasiyası yaradılıb və bu qurum ilk Ümumtürk qurultayının keçirilməsinə zəmin yaradıb. Hazırlıq işləri zamanı 1924-cü il avqustun 2-də Azərbaycanda diyarşünaslıq üzrə qurultayın əsasnaməsi qəbul edilib.

Azərbaycanda I Diyarşünaslıq Qurultayı 200 nümayəndənin iştirakı ilə ilk dəfə 1924-cü il 21-24 sentyabrda "Satir - Agit" (indiki Kukla teatrı - Z.H.) teatrının binasında keçirilib. Qurultayda SSRİ MİK-in sədri Nəriman Nərimanov, SSRİ Elmlər Akademiyasının elmi katibi akademik Sergey Oldenburq, Ümumittifaq Şərqşünaslar Assosiasiyası və RSFSR-in Diyarşünaslıq bürosunun üzvü professor Aleksandr Samoyloviç və digər görkəmli alimlər, respublikanın elm və mədəniyyət xadimləri iştirak ediblər. Qurultayın gündəliyində duran əsas məsələ Azərbaycan-türk dili ləhcələrinin elmi cəhətdən öyrənilməsi, bu dilin türk ləhcələri və akademik Marrın ən yeni yafetik dillər nəzəriyyəsi ilə əlaqəsinin müəyyənləşdirilməsi, Azərbaycan-türk milli xalq ləhcələri lüğətinin tərtib edilməsi idi.

Türk xalqlarının tarixi, etnoqrafiyası, folklorunu öyrənən bölmələri əhatə edən türkoloji yarımseksiyanın yaradıldığı I Diyarşünaslıq Qurultayında Nəriman Nərimanovun məruzəsinin müzakirəsindən sonra türk mədəniyyətinin bir sıra elmi təcrübə məsələlərinin müzakirəsi məqsədilə Türkoloji Qurultayın çağırılmasının zəruriliyi barədə qətnamə təsdiq edilib.

Diyarşünaslıq qurultayı dörd gün davam edib, plenum və seksiyalarda 30-dan çox məruzə dinlənilib. Qurultayın qərar və tövsiyələrində respublikada diyarşünaslıq sahəsində tədqiqata cəlb olunacaq vacib məsələlərin qoyuluşu çox əhəmiyyətli təkmil formada öz əksini tapıb. Diyarşünaslıq qurultayında həmçinin Azərbaycanda I Ümumittifaq Türkoloji Qurultayın keçirilməsi qərara alınıb. "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin əməkdaşları qurultayın keçirilməsi üçün hazırlıqlara başlayıb.

Beləliklə, qurultay diyarşünaslığın inkişafına böyük təkan verib, Azərbaycanın tədqiqi və öyrənilməsi dərnəkləri, cəmiyyətin populyarlaşdırılması barədə əsasnamə qəbul edilib. Əsasnamədə qeyd edildiyi kimi, Azərbaycanı tədqiq edən dərnəklərin əsas vəzifəsi əhali arasında milli diyarşünaslığın müxtəlif sahələri üzrə kadrların hazırlanması kimi əhəmiyyətli məsələləri həll etmək olub.

Respublikanın Xalq Maarif Komissarlığı hökumətinin qərarına əsasən, "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin əməkdaşları (Səməd Ağa Ağamalıoğlu, Ruhulla Axundov, R.Cəbiyev, professorlar Bəkir Çobanzadə, N.İ.Aşmarin, V.Xuluflu və başqaları) Əlifba Komissiyası, ali təhsil müəssisələri və ictimai təşkilatlarla birgə fəaliyyətə başlayıblar. Mövcud fəaliyyəti dövründə cəmiyyət çox işlər görmüş, xeyli inkişaf etmiş, üzvlərinin sayı B.V.Çobanzadə, X.Məmmədov, A.O.Musaxanlı, V.Əşim, İ.Hikmət, H.Seyidbəyli, Ə.Hüseynzadə, S.Nəşirvanova, A.Vəlixanlı, Ağamirzə Axundzadə, Ə.Yazidji, Əli Nazim Məmmədzadə, C.Sadıxov, H.Verdiyev və digərlərinin hesabına artmışdır. Adları sadalanan görkəmli alimlər cəmiyyətə üzv olduqdan sonra bölmənin işi xeyli genişlənmişdir. Qurultaya hazırlıq Səməd ağa Ağamalıoğlunun rəhbərliyi altında 9 nəfərdən ibarət cəmiyyətin Mərkəzi Şurasının təşkilat komissiyası tərəfindən həyata keçirilmişdir.

"Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin təşəbbüsü ilə Bakı şəhərində yerləşən Türk mədəniyyəti sarayında (İsmailiyyə binası) 1926-cı il fevralın 16-dan martın 6-na qədər I Ümumittifaq Türkoloji Qurultay keçirildi. Keçmiş Sovet İttifaqının bütün türkdilli xalqlarının 131 nəfərlik alim heyəti, SSRİ Elmlər Akademiyasının mütəxəssisləri, Ukrayna Akademiyasının Şərqşünaslıq Elmi Assosiasiyası, Qafqaz Şərqşünaslıq Assosiasiyası və xarici ölkələrdən gəlmiş 30 nəfər alimlər arasında Türkiyə və Almaniyadan iki professor, Macarıstan, Avstriya və İrandan gəlmiş nümayəndələr qurultayda iştirak etmişlər. Qurultay Azərbaycan SSRİ MİK-in və XKŞ-nin sədri Q.Musabəyovun sədrliyi ilə işə başlamışdır. "Türk xalqları tarixinin öyrənilməsinin müasir durumu və uyğun tapşırıqları" (Vasiliy Bartold), "Türk xalqları arasında diyarşünaslıq işinin metodları" (Sergey Oldenburq), "Türk dillərinin öyrənilməsində müasir vəziyyət və uyğun vəzifələr" (Aleksandr Samoylov), "Qafqaz türklərinin etnoqrafiyasının öyrənilməsinin uyğun vəzifələri" (Q.F.Çursin), "Türkologiyanın keçmişi və indiki durumu haqqında" (N.N.Aşmarin), "Türk dillərində elmi terminologiya sistemi barədə" (Hənəfi Zeynallı), "Türk dillərinin yafetidoloji dillərlə münasibətləri barədə" (A.N.Genko), "Türk danışıqlarının doğmalığı barədə" (Bəkir Çobanzadə), "Türk dilində doğru yazı" (F.Ağazadə), "Orfoqrafiya haqqında" və "Texniki baxımdan əlifba sistemi barədə" (C.Məmmədzadə), "Türk xalqlarının təsviri sənəti barədə" (A.A.Miller), "Orfoqrafiya barədə" (A.B.Baytursun), "Türk-tatar xalqlarının ədəbi inkişafı" (Qaziz Qubaydullin), "Türk xalqlarında ədəbi dilin inkişafı" (Mehmet Fuad Köprüllüzadə) mövzularında çıxışlar olmuşdur.

Ölkənin bütövlükdə türkdilli xalqları üçün latın əlifbasının əsasında vahid yazının ərsəyə gətirilməsi, türk xalqlarının mədəni inkişafında prinsipial məsələlərin müzakirəsi zamanı müxtəlif baxışların kəskin polemikası aparılan qurultayda ərəb əlifbasından latın əlifbasına keçid, türk xalqlarının tarixi-etnoqrafik və linqvistik problemlərinin həlli və keçmiş SSRİ ərazisində yaşayan bütün türkdilli xalqların mədəni inkişaf perspektivləri müəyyən edilmişdir.

Bir müddət sonra 1933-cü ildə bəzi hərflərin qrafikası və fonetik əhəmiyyətini fərqləndirən yeni əlifba yarandı. Azərbaycan latın əlifbası 1938-ci ildə digər dəyişikliyə məruz qaldı, nəticədə "N, n" hərfi ləğv edildi. Nəhayət, türkdilli xalqları öz soykökündən uzaqlaşdırmaq məqsədi güdən Sovetlər Birliyinin siyasəti nəticəsində 1939-cu ilin may ayında Azərbaycan-türk əlifbasının Kiril əlifbasına keçirilməsi barədə qərar qəbul edildi. 1939-cu il noyabrın 15-də Kiril əlifbası rəsmi olaraq təsdiq olundu. Azərbaycan SSR XKS komissiyasının nəzdində yaradılan əlifba 1940-cı il yanvarın 1-də qüvvəyə mindi.

Bakıda keçirilən I Ümumittifaq Türkoloji Qurultayının tövsiyəsi ilə Azərbaycan xalqı türk xalqları ilə birlikdə latın qrafikalı əlifbanı qəbul etmişdi. Bu o qədər asan həll edilə biləcək məsələ olmadığı üçün çox böyük elmi diskussiyaların məntiqi sonluğu kimi kütləvi savadlanmaya, bütün türk xalqları arasında elmi, mədəni əlaqələrin daha intensiv inkişafına təkan verəcək bir addım olmalı idi. Beləliklə, Türkoloji qurultay ümumilikdə türk xalqları tarixinin araşdırılması sahəsində ilk ən mühüm və qlobal hadisə oldu. Qurultay daha öncə keçirilmiş Şərqşünaslıq qurultayından və onun kimi digər konqreslərdən fərqli olaraq bir sıra özəllikləri ilə seçilirdi:

- Türkoloji qurultay şərqşünaslara yeni imkanlar yaratdı, elmi tədqiqatların səviyyəsini yüksəltdi, daha dinamik iş rejimi imkanı verdi;
- Türk alimləri, müəllimləri bu sahədə ilk dəfə Avropa, Rusiya və digər dövlətlərin elmi ictimaiyyəti ilə praktiki, nəzəri problemləri birgə müzakirə etmək imkanı əldə etdilər;
- Qurultayın gündəliyində əlifba, terminologiya, ədəbi dil, çoxsaylı türk-tatar xalqları arasında mədəni əlaqələrin əməli və ictimai məsələlər səviyyəsində inkişafı araşdırılırdı;
- Qurultay Avropa və Şərq alimlərinin dostluq, yoldaşlıq şəraitində əməkdaşlığın ilk bariz təzahür forması idi. Bakıda keçirilən qurultay müxtəlif sahələrdə aparılan tədqiqatlarla elmi yanaşmanın təkmilləşməsinə səbəb oldu.

Sonradan sovet birliyinin iyerarxiyası türk xalqlarının birləşərək güclü real qüvvəyə çevrilməsindən ehtiyatlandıqlarını və "siyasi səhv"ə yol verdiklərini anlayaraq Azərbaycan və digər türk xalqlarının iradəsinə zidd, mərkəzin təzyiqi ilə 1939-cu ildə Kiril əlifbasına keçidi reallaşdırdılar. Bu qərar türk xalqlarının milli özünüdərk prosesinin qarşısını almaq, bir-birindən uzaq salaraq yadlaşdırmaq, onların birləşərək təhlükəli (özləri üçün) bir qüvvəyə çevrilməsinin qarşısını almaqdan ibarət idi.

XX əsrin 30-cu illərində 100-dən çox qurultay iştirakçısı pantürkizm, millətçilik, əks-inqilabi fəaliyyətdə günahlandırılaraq repressiyalara məruz qaldı. Onların arasında Aleksandr Samoyloviç, Cəlaləddin Qorxmazov, Bəkir Çobanzadə, Osman Ağçöhrəli, Əhməd Bəytursınov, Salman Mümtaz, Ruhulla Axundov, İsidor Baraxov, Hənəfi Zeynallı, Ayna Sultanova, Həmid Sultanov və digərləri var idi.

Ulu Öndər Heydər Əliyevin 2 avqust 2001-ci ildə imzaladığı fərmanla Azərbaycan Dili və Əlifbası Günü təsis edildi. Bu da Azərbaycan xalqının mütəfəkkiri Mirzə Fətəli Axundzadənin arzularının, xəyallarının gerçəkləşməsi idi. Bəli, yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra latın əlifbası bərpa edildi. 1992-ci ildən həyata keçirilən latın əlifbasına keçid 2001-ci ildə yekunlaşdı.

Ötən il oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi barədə imzaladığı sərəncam diqqəti cəlb edən mühüm tarixi hadisə və türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoydu.

Xatırladaq ki, ötən il oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib. Görüşdə dövlət başçısı İlham Əliyev öz çıxışında türk xalqlarının ortaq tarixi, etnik köklərimiz, dilimizin bizi bir ailə kimi birləşdirdiyini açıqlayıb, 100 il əvvəl 1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulayıb və Türk Dövlətləri Təşkilatı çərçivəsində qurultayın 100 illik yubileyinin keçirilməsini təklif edib. Zirvə görüşünün qəbul ediləcək qərarlarla birgə Türk Dövlətləri Təşkilatının mövqeyinin yüksəlməsinə, güclənməsinə, türk xalqlarının rifahı və təhlükəsizliyinə töhfə verəcəyi vurğulanıb.

*Zemfira HACIYEVA,*
*AMEA Rəyasət Heyəti aparatının Elmi irs şöbəsinin müdiri, professor*

Jurnalist araşdırması

# Dayanıqlı və davamlı su strategiyası

İqlim dəyişiklikləri fonunda su ehtiyatlarına artan tələbat, su ilə bağlı digər məsələlər bu gün qlobal problemlərdən biridir. Qlobal istiləşmə nəticəsində su ehtiyatlarından səmərəli, tullantı sularından təkrar istifadə, suyun effektiv idarə olunması dövlətlərin müəyyənləşdirdiyi prioritet istiqamətlərdəndir. Su ehtiyatının 70 faizi transsərhəd çaylar hesabına formalaşan Azərbaycan da son illərdə su problemi ilə üzləşən ölkələrdən biridir.

Bu sahədə dövlət tərəfindən təxirəsalınmaz və davamlı tədbirlərin görülməsinə zərurət meydana çıxmışdı. Bu baxımdan Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı" mühüm əhəmiyyətə malikdir.

Su təchizatı və tullantı suları sistemləri infrastrukturunun inkişaf etdirilməsi, intensiv yağışlar zamanı subasma risklərinin azaldılması, fasiləsiz və dayanıqlı su təminatının gücləndirilməsi məqsədilə hazırlanmış proqramın iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. İlkin mərhələdə su və kanalizasiya infrastrukturu yenidən qurulacaq. Həmçinin yağış sularının idarə olunması və tullantı sularının təkrar istifadəsi üzrə müasir texnologiyalar tətbiq olunacaq və ekoloji təhlükəsizlik təmin ediləcək. Növbəti mərhələdə isə yeni su anbarlarının və nasos stansiyalarının tikintisi, su təchizatının fasiləsizliyinin təmin olunması və müasir xidmət modellərinin tətbiqi nəzərdə tutulur.

## Dövlət proqramı ölkə üzrə strategiyanın müəyyənləşdirilməsinə imkan verir

Dövlət proqramının icrasının əhəmiyyəti barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) yanında İctimai Şuranın sədri ekoloq Amin Məmmədov qəzetimizə açıqlamasında bildirdi ki, əhali artımı və iqtisadiyyatın inkişafı suya olan tələbatı ilbəil artırır. Onun sözlərinə görə, bu gün Bakının su təchizatı 5 istiqamətdən təmin edilir: "Sonuncu Oğuz-Qəbələ su kəməri təxminən 12 il bundan əvvəl istismara verilib. Eyni zamanda Ceyranbatan Su Anbarı Taxtakörpü Su Anbarı ilə tənzimlənir, bu da Samurdan götürülən suyun düzgün tənzimlənməsinə imkan verir. Samurun suyunun səviyyəsinin düşüb qalxmasından, sudan istifadəyə münasibətdən asılı olmayaraq, su ehtiyatı Taxtakörpü Su Anbarında saxlanılır. Bununla Bakının mütəmadi olaraq su ilə təminatına nail olunur".

Son 30 ildə Bakı şəhərinin urbanizasiya baxımından ərazisi iki dəfədən çox artıb, eyni zamanda əhali sayında da artım müşahidə edilir. Bu, artıq işarə edir ki, istər demoqrafik artım, istərsə də iqtisadiyyatın inkişafı suya tələbatı yüksəldir. Ona görə də bu kimi hallar prosesin idarə olunmasna mütləq şəkildə zərurət yaradır. Üstəlik, son illərdə su itkisi kimi problem də var. Bu göstərici ölkəmizdə 45 faizə yaxındır. Əslində, beynəlxalq normalarda və Avropa İttifaqı normativlərində bu 20-22 faiz civarında tənzimlənirsə, bizdə bu, iki dəfə çoxdur. Bunun obyektiv səbəbləri də var. Məsələn, infrastruktura nəzər salsaq görərik ki, boru xətlərinin çoxu keçən əsrin 60-80-ci illərində qurulub. Bir çox magistral boru xətti və paylayıcı şəbəkə istismar müddətini artıq başa vurub. Onların yenilənməsinə ehtiyac var.

A.Məmmədov həmçinin sayğaclaşmanın 100 faizə çatdırılmasının labüd olduğunu bildirdi: "Sayğaclaşma 1990-cı illərdə çox aşağı səviyyədə idisə, indi bu göstərici 70 faizdən çoxdur. Amma gələcəkdə sayğaclaşma prosesi 100 faizə çatdırılmalıdır, çünki şəffaflıq olmadan sudan istifadənin hesabatını aparmaq da çətindir. Mərkəzləşmiş elektron sistemlə qeydiyyat aparılanda təchizatda ciddi problem olmur. Buna görə qəbul olunmuş dövlət proqramı təkcə Abşeron yarımadası və Bakı şəhəri deyil, ümumilikdə ölkə üzrə strategiyanın müəyyənləşdirilməsinə imkan verir".

Ekoloq vurğuladı ki, yeni dövlət proqramının icrası nəticəsində Bakı şəhəri və Abşeron yarımadasında içməli su təminatı ilə əlaqədar problemlər aradan qaldırılacaq. Əhali 24 saat davamlı su ilə təmin olunacaq. "Son illər su ehtiyatlarının azalmasını nəzərə alsaq, bu proqram çərçivəsində adıçəkilən istiqamətdə görülən işlər ehtiyat yığımına da təsir göstərəcək. Azərbaycanda yaxın on il ərzində 30 su anbarının inşası nəzərdə tutulur. Layihə üçün çaylar müəyyənləşdirilib və layihələndirmə işləri aparılıb", - deyə o əlavə etdi.

Dünyada sudan təkrar istifadə təcrübəsinə diqqət çəkən A.Məmmədov deyir ki, iqlim dəyişikliklərinin dünyada təsirlərini nəzərə alaraq inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə bu üsulun tətbiqinə başlanılıb. Bu, müəyyən yerlərdə effektini də verib. Ölkəmizdə də Xəzər dənizinin suyunun duzsuzlaşdırılması ilə əlaqədar layihə təqdim edilib. Bu da su ehtiyatlarına olan tələbatda əlavə su mənbəyi kimi nəzərdən keçirilir. Ümumiyyətlə, su ehtiyatlarının effektiv idarə olunmasında müxtəlif üsullardan istifadə olunur. Məsələn, kənd təsərrüfatında damcılı suvarma üsulu və yaxud digər sahələrdə yağış suyunun toplanması kimi layihələr həyata keçirilir. Dünya praktikasında su ehtiyatlarının düzgün idarə olunması, itkilərin qarşısının alınması istiqamətində fərqli təcrübələr mövcuddur. Su Ehtiyatları Agentliyi (ADSEA) və tabeli qurumlar bu praktikaları araşdırır və Azərbaycanda tətbiqi mümkün olan layihələri təhlil edirlər.

Kanalizasiya sistemi problemlərinə diqqət çəkən mütəxəssis normadan artıq yağışların Bakı küçələrində problemlərə yol açdığını deyib. İqtisadiyyatın durmadan inkişaf etdiyini deyən ekspert bildirib ki, idarəetmə də inkişafla eyni tempdə getməlidir: "Bununla bağlı "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı" icra olunmalıdır. Hər kəsin fasiləsiz su ilə təminatı, təmiz sanitariyaya çıxışı dayanıqlı inkişaf üzrə BMT-nin məqsədlərindən biridir. Azərbaycan da bu öhdəlikləri üzərinə götürüb. Bunun yerinə yetirilməsi üçün bütün prosesdə maksimum fəallıq göstərilməlidir. Prezident İlham Əliyev fəaliyyətində hər zaman strateji düşüncə özünü göstərir və əhalinin operativ təminatı baxımından işlərin sürətli və keyfiyyətli şəkildə həyata keçirilməsi prioritet hesab edilir".

## Ekoloji risklər azalacaq

İctimai Şuranın üzvü, coğrafiya üzrə fəlsəfə doktoru Rövşən Abbasov da qeyd etdi ki, "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı" regionun sürətli urbanizasiyası, əhali artımı və iqlim dəyişiklikləri fonunda strateji əhəmiyyət daşıyır: "Proqram içməli suyun fasiləsiz və keyfiyyətli təminatını, tullantı və yağış sularının düzgün idarə olunmasını hədəfləyərək sanitariya-gigiyena şəraitini yaxşılaşdırır, ekoloji riskləri azaldır və şəhər infrastrukturunun dayanıqlılığını artırır. Xüsusilə Abşeron yarımadasında köhnəlmiş su şəbəkələrinin yenilənməsi, sızmaların və texniki itkilərin azaldılması, daşqın risklərinin minimuma endirilməsi sosial rifah və iqtisadi inkişaf üçün mühüm əhəmiyyət kəsb edir".

Alim qeyd etdi ki, yeni proqram içməli su təminatında mövcud olan fasilələlik, keyfiyyət və təzyiq problemlərini aradan qaldırmağa yönəlib. Qeyri-qanuni qoşulmaların qarşısının alınması, ölçmə və monitorinq sistemlərinin gücləndirilməsi, suyun keyfiyyətinə nəzarətin artırılması nəticəsində əhali üçün daha etibarlı və dayanıqlı təchizat yaradılmalıdır. Son illərdə su ehtiyatlarının azalmasını nəzərə alsaq, proqram çərçivəsində su itkilərinin azaldılması, alternativ mənbələrin cəlb edilməsi, təmizlənmiş tullantı sularının təkrar istifadəsi və yağış sularının yığılması mövcud ehtiyatların qorunmasına və ehtiyat yığımının artırılmasına müsbət təsir göstərəcək, mövsümi riskləri zəiflədərək uzunmüddətli su təhlükəsizliyini gücləndirəcək.

Xəzər dənizinin suyunun duzsuzlaşdırılması içməli su təminatında mənbə çatışmazlığını azaltmaqla yanaşı, yeraltı və səth sularına düşən təzyiqi yüngülləşdirəcək, suvarma məqsədləri üçün isə alternativ mənbə yaradaraq kənd təsərrüfatında su qıtlığı, keyfiyyət və duzluluq problemlərinin idarə olunmasına imkan verəcək. Rövşən Abbasov deyir: "Ümumilikdə su ehtiyatlarının effektiv idarə olunması üçün inteqrə edilmiş su ehtiyatları idarəçiliyi, rəqəmsal monitorinq, suyun səmərəli qiymətləndirilməsi və təkrar istifadə mexanizmlərinin tətbiqi vacibdir. Dövlət proqramı çərçivəsində "ağıllı şəbəkələr", müasir ölçmə sistemləri və təmizlənmiş suların istifadəsi nəzərdə tutulur ki, bu da dünya praktikasında geniş tətbiq olunan yanaşmalara uyğun olaraq su təhlükəsizliyinin artırılmasına və resurslardan səmərəli istifadəyə şərait yaradır".

Beləliklə, qəbul olunmuş dövlət proqramının icrası paytaxtda və Abşeron yarımadasında içməli su mənbələrinin dayanıqlılığını artırmaqla, əhalini davamlı su ilə təmin etmək mümkündür. Eyni zamanda bu çərçivədə yaradılacaq su anbarları su ehtiyatlarının toplanmasına imkan verməklə, quraqlıq dövründə problemin müəyyən səviyyədə qarşısının alınmasında əhəmiyyətli rol oynayacaq. Görüləcək tədbirlər ölkənin su strategiyasının uzunmüddətli dövrdə dayanıqlılığını təmin edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# REGİONLAR

## Xocalı soyqrımının qurbanları anılıb

**Qazaxda Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş "Xocalı soyqırımı müdrik Azərbaycan xalqının qan yaddaşıdır" mövzusunda tədbir keçirilmişdir. İştirakçılar öncə şəhərin mərkəzində yerləşən Şəhidlər xiyabanını ziyarət edərək igid Vətən oğullarının, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmişlər.**

Tədbiri giriş sözü ilə YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev açaraq 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədilən vəhşiliklərdən danışmış, bu soyqırımın təkcə xocalılıların deyil, bütövlükdə Azərbaycan xalqının faciəsi olduğunu diqqətə çatdırmışdır. Bildirmişdir ki, Xocalı soyqırımına ancaq Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra siyasi qiymət verilmişdir. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etmişdir.

Sonra rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış etmişdir: "XX əsr Azərbaycanın milli dövlətçilik tarixində qanlı faciələr, saysız qurbanlar, ərazi itkiləri, soyqırımları, deportasiyalarla müşayiət olunmuşdur. Onlardan biri də Xocalı soyqırımıdır. 1992-ci il fevralın 26-da Xocalıda baş verənlər Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcəkdir. Çünki həmin vaxt hansısa cinayət hadisəsi deyil, bütöv Azərbaycan xalqına qarşı soyqırımı aktı həyata keçirilmiş, bəşəriyyətin ən böyük faciələrindən biri törədilmişdir". Hər il bu faciənin ildönümünün ölkəmizdə, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız və dost xalqların nümayəndələri tərəfindən ürək ağrısı ilə qeyd olunduğunu deyən R.Babaşov Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun xidmətlərindən danışmışdır: "Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən fəaliyyət göstərən "Xocalıya ədalət!" beynəlxalq təbliğat və təşviqat kampaniyası çərçivəsində müxtəlif ölkələrdə mitinqlər, yürüşlər və tədbirlər təşkil olunur. Kampaniyanın fəaliyyətini ümumilikdə 100 minlərlə şəxs və 115 təşkilat dəstəkləmişdir".

Tədbirdə vurğulanmışdır ki, Xocalıda törədilən vəhşiliklərin cavabı 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirlərində verildi. Vətən müharibəsində yenilməz ordumuz 30 il işğal altında qalan torpaqlarımızı azad etdi, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının qisası alındı və 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində dövlət bayrağımız ucaldıldı.

❖ ❖ ❖

**Daşkəsən Rayon Mədəniyyət Mərkəzində Xocalı soyqırımının 34-cü ildönümünə həsr edilmiş tədbir keçirilmişdir. Tədbir Xocalı soyqırımı qurbanlarının və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin anılması ilə başlamışdır.**

Çıxış edənlər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində dinc əhaliyə qarşı törədilmiş soyqırımını XX əsrin ən dəhşətli faciələrindən biri adlandırmış, qadınların, uşaqların və qocaların amansızlıqla qətlə yetirilməsindən bəhs etmiş, bu hadisənin insanlığa qarşı yönəlmiş ağır cinayət olduğunu diqqətə çatdırmış, Xocalı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, soyqırımına hüquqi-siyasi qiymət verilməsi istiqamətində Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlərdən danışmışlar. Bununla bağlı müxtəlif ölkələrdə anım mərasimlərinin, konfrans və sərgilərin təşkil edilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın gördüyü işləri müsbət dəyərləndirmişlər. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlamış "Xocalıya ədalət!" beynəlxalq maariflәndirmə kampaniyasında, Xocalı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadığını qeyd etmişlər.

Tədbirdə həmçinin bildirilmişdir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 2020-ci ildə Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi ölkəmizin ərazi bütövlüyünün bərpasını təmin etmişdir. 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində isə ölkəmizin suverenliyi tam bərpa olunmuş və Xocalı şəhəri üzərində Azərbaycanın dövlət suverenliyi tam təmin edilmişdir. Hazırda işğaldan azad edilmiş torpaqlarda genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir, infrastruktur yenidən qurulur, məktəblər, xəstəxanalar və digər ictimai obyektlər tikilir, yollar, körpülər və enerji şəbəkələri inşa edilir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Qarabağ və Şərqi Zəngəzurda iqtisadi dirçəlişin ünvanı

**Qarabağ və Şərqi Zəngəzur bu gün yalnız bərpaolunan torpaqlar deyil, həm də yenidən doğulan iqtisadi məkanlardır. Uzun illər dağıntılara məruz qalmış bu ərazilər indi böyük quruculuq meydanıdır. Müasir yollar, hava limanları, yaşayış kompleksləri ilə yanaşı, regionun gələcəyini müəyyənləşdirən əsas dayaqlardan biri də sənaye parklarıdır.**





Dövlətin məqsədi aydındır: Qarabağ və Şərqi Zəngəzuru Azərbaycanın ən dinamik və innovativ iqtisadi bölgələrindən birinə çevirmək. Məhz bu baxımdan Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı kimi layihələr xüsusi əhəmiyyət daşıyır. Bu sənaye zonaları yeni iş yerləri, yeni imkanlar və yeni həyat deməkdir. İndi azad edilmiş ərazilərdə ucalan hər zavod binası, quraşdırılan hər istehsal xətti bir mesaj verir: bölgə artıq iqtisadi dirçəliş mərhələsinə qədəm qoyub. Sənaye parkları sahibkarlığın inkişafına təkan verir, investisiyaları cəlb edir və neftdənkənar sahənin güclənməsini sürətləndirir. Ən əsası isə onlar öz doğma yurduna qayıdan insanlar üçün sabit gəlir əldə edir və uzunmüddətli perspektivə yol açır. Qarabağ və Şərqi Zəngəzurda sənaye parklarının yaradılması təkcə iqtisadi layihə deyil, böyük qayıdışın və davamlı inkişafın rəmzidir. Regionun gələcəyi məhz bu istehsal və innovasiya mərkəzlərində formalaşır.

Sözdən əmələ keçidin ən parlaq nümunəsi isə məhz azad edilmiş ərazilərdə qurulan sənaye parklarında özünü göstərir. Qısa zaman kəsiyində Ağdam Sənaye Parkı regionun aparıcı iqtisadi mərkəzlərindən birinə çevrilməyi bacarıb. İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) İdarə Heyətinin sədri Seymur Adıgözəlov qurumun 2025-ci ildəki fəaliyyəti və qarşıda duran vəzifələrinə həsr olunmuş mətbuat konfransında deyib: "Bu gün parkın ərazisində 32 rezident və 5 qeyri-rezident fəaliyyət göstərir. Buraya yatırılan investisiyaların həcmi 145,8 milyon manata çatır, yaradılan daimi iş yerlərinin sayı isə 1000-ə yaxınlaşır. Rezidentlərin sayına görə Ağdam Sənaye Parkı artıq ölkədə ikinci pillədə qərarlaşıb. Qeyd olunan faktlar onun artan nüfuzunun və iqtisadi çəkisinin bariz ifadəsidir".

Bu rəqəmlər sadəcə statistika deyil, Qarabağın iqtisadi dirçəliş salnaməsinin ilk parlaq səhifələridir. Burada fəaliyyətə başlayan müəssisələr tikinti materiallarından qida sənayesinə, emal və istehsal sahələrindən logistika xidmətlərinə qədər müxtəlif istiqamətləri əhatə edir. Bu isə o deməkdir ki, park təkcə ayrı-ayrı müəssisələrin deyil, bütövlükdə regionun iqtisadi ekosisteminin formalaşmasına xidmət göstərir. Ağdam Sənaye Parkında qurulan hər yeni istehsal sahəsi yerli resursların dövriyyəyə cəlb olunmasına, kiçik və orta sahibkarlığın genişlənməsinə əlavə imkanlar yaradır. Sənaye zonasında istehsal olunan məhsullar artıq daxili bazarla yanaşı, ixrac potensialı baxımından da perspektiv vəd edir. Seymur Adıgözəlov sənaye parkının investisiya cəlbediciliyinin artdığını və istehsal potensialının genişləndiyini də qeyd edib: "Hazırda Ağdam Sənaye Parkında 13 müəssisə fəaliyyət göstərir. Parkda istehsal edilən məhsullar daxili bazarda satılmaqla yanaşı, həm də ixrac edilir. Sənaye parkında sahibkarlar tərəfindən 1,4 milyard manatlıq məhsul satışı həyata keçirilmişdir ki, bunun da 62,3 milyon manatlıq hissəsi ixrac olunub".

İZİA sədrinin söylədiklərinə əsaslanaraq deyə bilərik ki, Ağdam Sənaye Parkı bu gün Qarabağın yeni iqtisadi simasının formalaşdığı strateji platformadır. Burada görülən işlər regionun uzunmüddətli inkişaf hədəflərinə doğru inamlı addımlarla irəlilədiyinin göstəricisidir. Ən önəmlisi isə sənaye parkının fəaliyyəti Böyük qayıdış prosesinə real iqtisadi zəmin formalaşdırır, insanlar üçün yalnız yaşayış deyil, dayanıqlı məşğulluq və sabit gəlir imkanı yaradır.

Bu baxımdan, Cəbrayıl rayonunda yaradılan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı regionun iqtisadi inkişaf xəritəsində xüsusi yer tutur. Parkın əsas məqsədi Şərqi Zəngəzurun potensialını reallaşdırmaq, investisiyaları cəlb etmək və qeyri-neft sektorunu gücləndirməkdir. Parkda müxtəlif sahələr üzrə müəssisələr üçün əlverişli infrastruktur təmin olunub, eləcə də rezidentlərlə bağlı vergi və logistika güzəştləri yaradılıb. Sənaye parkı bölgədə iş imkanlarının artması, kiçik və orta sahibkarlığın genişlənməsi və yerli resursların dövriyyəyə cəlb olunması üçün şərait yaradır. Burada formalaşan sənaye mühiti həm daxili bazarın tələbatını ödəyir, həm də ixrac imkanlarını artırır. Bütün bu imkanlar nəticəsində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında artıq 19 rezident və 3 qeyri-rezident qeydiyyatdan keçib, 43,8 milyon manatdan çox investisiya yatırılıb və 100-ə yaxın iş yeri yaradılıb.

Göründüyü kimi, Ağdam və Cəbrayılda yaradılan sənaye parkları regionun iqtisadi simasını yenidən formalaşdırır, investisiya mühitini zənginləşdirir və neftdənkənar sahənin inkişafına güclü təkan verir. Sənaye parkları yalnız müəssisələrin fəaliyyət göstərdiyi məkanlar deyil. Onlar həm də insanların sabit gəlir əldə edə biləcəyi, uzunmüddətli perspektivlərini quracağı yerlərdir, həmçinin Qarabağ və Şərqi Zəngəzurun iqtisadi dirçəlişinin canlı göstəricisidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Çobanların halal yurdu

**● Qışlaqdan reportaj**

**Fevral ayının birinci ongünlüyündə yağan qar əriyib obalara gedən yolların bəzi yerlərində su gölməçələri yaradıb. "Niva"dan başqa ayrı bir avtomobillə buradan keçib getmək mümkün deyil, baxmayaraq ki, qarlı günlərdən sonra havaların nisbətən istiləşməsi ucsuz-bucaqsız Muğan düzünün aylardan bəri davam edən boz rəngini dəyişməyə başlamışdı. Torpaq da yavaş-yavaş yaşıl donunu geyinir.**

Qazılan xəndəklər sürücünü məcbur edir ki, 200-300 metrdən bir sürəti azaltsın. Halbuki keçən əsrin 40-50-ci illərinədək buralarda heç bir xəndək-filan olmayıb. Əgər olsaydı, buralar böyük şairimiz Səməd Vurğunun ceyran ovlağı ola bilməzdi. Odur ki, bizi qarşılayan Adil Quluzadədən soruşuram:

- Bilmirsən, qoyun yataqları burada nə vaxt salınıb?

- Vallah, bu mənim yaşımdan əvvəl oub, - amma yaşlılardan eşitmişəm ki, "Acı" adlanan bu ərazilər 1940-cı ildən bəri Lerikin Buravurd kəndindəki "Azərbaycan" kolxozuna təhkim olunmuş, yəni bizim kəndin heyvandarlarına qış otlaq sahəsi kimi verilmişdi. Kolxoz o zaman çobanlar üçün yaşayış evləri tikmişdi. Çoban uşaqlarının təhsil almaları üçün burada məktəb də vardı. Bir neçə yatağın uşaqları həmin məktəbdə oxuyublar.

Yol gedə-gedə Adildən burada qoyunları necə suvardıqlarını, özləri üçün içməli suyu haradan gətirdiklərini soruşduq. Deyir ki, sovetlər zamanında dövlət qışlaqlara saxsı borularla su xətti çəkibmiş. "Xüsusi yerlər olub və su gəlib ora dolurmuş. Qoyun-quzu, mal-qara oradan doyunca su içirmiş. İndi isə uzaqdan keçən Şaqay şor su kanalından istifadə etməli oluruq. Palçıq olduğu vaxtlarda uzaq məsafədə yerləşən kanala su içməyə getmək heyvanları üzür, yorğun salır. Özümüz üçün isə maşınlarla içməli su gətiririk", - deyir və sonra digər mühüm məsələyə aydınlıq gətirir:

- Əvvəllər hər yataqda işıq olub. İndi isə imkanı olanlar "divijok" alıb günün müəyyən vaxtlarında, daha doğrusu, axşamlar ondan istifadə edir, televizordan dünyada baş verən hadisələrdən xəbər tuturlar.

Bəzən dərə-təpəli, bəzən hamar yolla irəliləyirik. Qarşıda müxtəlif istiqamətlərdə yerləşən obalar görünür. Adil əli ilə ərazinin şimal-şərq hissəsində yerləşən obanı nişan verərək "Odur bizim oba", - deyir.

Gəlişimizi bildikləri üçün buraya xeyli çoban yığışıb. Əl verib görüşürük, işlərinin necə getdiyi ilə maraqlanırıq. Yaşlı çoban qışın bu vaxtında onlara baş çəkdiyimiz üçün minnətdarlıq edir.

- Siz sağ olun. İşləriniz necə gedir? Qışı necə yola verirsiniz, qoyun-quzunun vəziyyəti necədir? - deyə soruşuruq.

- Qışın ömrü, demək olar ki, qurtarmaq üzrədir. Artıq yazın qoxusu gəlir. Su çərşənbəsini yola saldıq. Xırda-para çətinlikləri nəzərə almasaq, bu il qışı pis keçirmirik. Yay-payız aylarında tədarük etdiyimiz arpa, yonca qoyun-quzunun qışdan gümrah, itkisiz çıxmasına başlıca səbəb olub. Fevral ayında yağan qar bizim üçün müəyyən çətinlik yaratsa da, bərəkətdir deyib sevindik. Yağan həmin qarın hesabına hər tərəfdə yaxşı ot çıxıb. Novruz bayramından sonra buraya gəlsəniz, başqa bir mənzərəni görərsiniz. Hər tərəf sizə yaşıl bir xalını xatırladar , - deyə həmsöhbətimiz bildirir.

Söhbətə Adil Quluzadə qoşulur:

- Bağışlayın, sizi çobanlarımızla tanış etməyi unutdum, - deyib bir-bir onları təqdim edir: - Məlikağa Əliyev, Şirməmməd Tağıyev, Vəliağa Tağıyev, Əliheydər Sadıqov, Xanverdi Tağıyev, Əhliman Tağıyev, Qəzənfər Rəşidov, Bayram Tağıyev.

İçəri keçirik. Döşəməyə sərilmiş xalçanın üstünə sıra ilə döşəkçələr düzülüb. Odun sobasının üstündə çay sızıldayır. Hər kəs yer seçib oturur. Söhbətimiz davam edir. Xanverdi Tağıyev:

- Bizim bir çoxumuz bu obalarda dünyaya göz açmışıq. Dədə-babalarımız keçmiş zamanlardan qoyu-quzusunu qışlağa Biləsuvarın bu ərazisinə gətiriblər. Hər il oktyabr ayında bura köçüb qışdan sonra ilin necə keçməsindən asılı olaraq bəzən may, bəzən iyun ayında yaylağa - doğma Lerikin Buravurd kəndinə qalxıblar. Çörəyini qoyunçuluqdan çıxaran çobanlıq peşəsi nəsildən-nəslə ötürülüb. Hərə bir işin qulpundan yapışır. Bizim də işimiz budur. Şükürlər olsun ki, pis dolanmırıq. Ailəmizi halal zəhmətimizlə, alın tərimizlə saxlayırıq. Heç kəsdən gözümüz kölgəli deyil. İl uğurlu gələndə, yem bol olanda qoyunların çoxu əkiz balalayır. Bu da maddi vəziyyətimizə təsir göstərir. Ətin qiyməti indiki halda hər bir çobanı qane edir. Amma yun haqqında bunu demək olmaz. Qırxdığımız yun hər il bir-birinin üstünə yığılıb qalır. Axı bir vaxtlar yun qızıl qiymətinə olub. Hər halda əlaqədar təşkilatlar bu barədə tədbir görsələr yaxşı olar.

Məlikağa Əliyev isə dövlətin heyvandarlara göstərdiyi diqqət və qayğıdan, bu sahə ilə bağlı mühüm qərarlar qəbul edildiyindən danışır. Deyir ki, qoyunçuluğun inkişafı üçün otlaq sahəsinin olması birnömrəli məsələdir: "Bu sahədə işlərimiz heç də yaxşı deyil. Biləsuvar Rayon İcra Hakimiyyəti bir neçə çobanın Dövlət Fondundan olan örüş sahəsini əlindən alaraq başqasına verib. 800 baş qoyun-quzusu olan Şirməmməd Tağıyevin örüş torpağı Lerikdən olmayan başqa birisinə verilib. Şirməmməd hazırda qışlaqda olan heyvanlarını tövlə şəraitində saxlayır. Axı belə haqsızlıq olmaz. Digər bir məsələ bu Acı düzünə qışlamaya heyvan gətirən biz 9 fermerin hər birinə aiddir. 2023-cü ildə icarə müqaviləsi bitməsinə baxmayaraq, Biləsuvar RİH bizimlə yenidən müqavilə bağlamır. Bununla əlaqədar icra hakimiyyətinə müraciət edəndə məsul şəxslər hər dəfə bir bəhanə gətirib vaxtı uzadırlar. Səbəb nədir, bilmirik".

Müəyyən çatışmazlıqlara baxmayaraq, ümumilikdə Biləsuvarın Acı düzündəki lerikli fermerlər qışı uğurla yola salmaq, qarşıdan gələn Novruz bayramını xoş ovqatla qarşılamaq üçün çalışırlar. İnanırlar ki, belə də olacaq.



*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Yardımlıda sahibkarlar və KOBİA bir araya gəldilər

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı və rayon icra hakimiyyətinin dəstəyi ilə Yardımlıda fəaliyyət göstərən sahibkarlarla görüş keçirilib. Kənd təsərrüfatı, heyvandarlıq, arıçılıq, taxılçılıq sahələrində fəaliyyət göstərən sahibkarlar, eləcə də dövlət qurumlarının nümayəndələrinin iştirak etdikləri görüşdə Yardımlıda biznesin inkişaf etdirilməsi üçün imkanlar və bu potensialın reallaşdırılmasına dövlət dəstəyi barədə müzakirələr aparılıb.**




Rayon icra hakimiyyətinin başçısı Ayaz Əsgərov və KOBİA idarə heyətinin sədri Orxan Məmmədov Yardımlıda sahibkarlıq fəaliyyəti, mövcud imkanların reallaşdırılması üçün dövlətin dəstək alətləri barədə məlumat veriblər. Qeyd olunub ki, rayonun ekoloji təmiz mühiti kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, eləcə də turizm və xidmət sahələrinin inkişafı üçün əlavə imkanlar yaradır. Nəzərə çatdırılıb ki, bu, biznes subyektlərinin yerli məhsulların qablaşdırılması və bazarlara çıxarılması üçün kiçik emal və xidmət təşəbbüslərinə üstünlük vermək imkanı qazandırır. O da vurğulanıb ki, müasir texnologiyaların və səmərəli idarəetmə üsullarının tətbiqi məhsuldarlığın artmasında faydalı ola və sahibkarlar arasında əməkdaşlıq və birgə fəaliyyət xərclərin azalmasına və yeni imkanların yaranmasına şərait yarada bilər. Həmçinin dövlətin mövcud dəstək mexanizmlərindən fəal istifadənin sahibkarlıq fəaliyyətinin genişlənməsinə əlavə stimul yaradacağı bildirilib.

Tədbirdə sahibkarlarla arıçılıq təsərrüfatının inkişafı, emal müəssisəsinin yaradılması, satış imkanlarının genişləndirilməsi, artezian quyusunun qazılmasına dəstək, torpağın təyinatı, baytarlıq, subsidiyalar, biznesin maliyyələşdirilməsi, gənclərin sahibkarlıq fəaliyyətinə təşviq edilməsi və s. kimi məsələlərlə bağlı fikir mübadiləsi aparılıb, təkliflər dinlənilib və suallar cavablandırılıb.

Görüşdən sonra KOBİA nümayəndələri Yardımlıda ailəvi istirahət mərkəzində və çörək istehsalı müəssisəsində olub, sahibkarlarla biznesin inkişafına, dövlət dəstəyi alətlərindən istifadəyə dair fikir mübadiləsi aparıblar.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*






# Tarixin izi ilə





● Abbasqulu bəy Şadlinski -140

# Qılınc kəsməyəni hiylə kəsdi

## Amma bu, məşhur nəslin "Axırıncı aşırım"ı olmadı

**Azərbaycanın hərb tarixində, xüsusən də ötən əsrin əvvəllərində xalqımızın azadlığı, ölkəmizin qərbində gedən milli müstəqillik uğrunda mübarizədə Abbasqulu bəy Şadlinskinin xidmətləri böyük olmuşdur. O, 1886-cı il fevralın 24-də İrəvan qəzası Vedi nahiyəsinin Böyük Vedi kəndində doğulub, kənddəki ikisinifli rus-tatar məktəbini yüksək qiymətlərlə başa vurandan sonra İrəvan gimnaziyasını bitirib.**



### "Mübariz dəstə"nin xilaskarlıq missiyası

Çar imperiyası 1917-ci ilin əvvəllərində süquta uğrayanda vaxtilə Azərbaycan ərazisinə köçürülmüş ermənilər, xüsusən vandalçı "Daşnaksütyun" partiyasının silahlı quldur dəstələri Ermənistan adlı dövlət qurmaq məqsədilə işğalçılıq fəaliyyətlərini gündən-günə genişləndirdilər. Quduzlaşan erməni silahlılarının kütləvi qırğınından, terrorundan əhalini xilas etmək mümkün olmurdu. Abbasqulu bəy bu qırğınların qarşısını almaq üçün "Mübariz dəstə" yaratdı. Savadlı və tədbirli ziyalı olan Abbasqulu bəy yığıncaq çağırıb mahalı və ətraf bölgələri idarə etmək, onları erməni təcavüzündən qorumaq üçün Vedibasar Milli Komitəsini, "Mübariz dəstə"nin baş qərargahını təşkil etdi.

Erməni vandalizmi o vaxt Zaqafqaziya Seyminin 5, 7, 19 və 20 fevral 1918-ci il tarixli iclaslarında böyük hay-küylə müzakirə olunmuş və Seym vəziyyətlə yerindəcə tanış olmaq üçün İrəvana nümayəndə heyəti göndərmişdi. Bu nümayəndə heyəti geri qayıtdıqdan sonra Seymə rəsmi təqdimatlarında yazmışdı: "1918-ci ilin mart ayına qədər İrəvan vilayətində 211 türk (azəri) kəndi erməni təcavüzünə məruz qalmış, həmin kəndlərin 100 min nəfərdən çox müsəlman əhalisi, demək olar ki, bütünlüklə məhv edilmişdir".

Erməni quldur dəstələrinin hücumuna, qırğınına məruz qalan kəndlər siyahısında İrəvandan 30-35 kilometr məsafədə olan Vedibasarın bir kəndinin də adı gözə dəymir. Çünki bu kəndlərin hər hansı birindən ermənilərin özbaşınalığı barədə məlumat daxil olan kimi Abbasqulu bəyin "Mübariz dəstə"sinin növbədə olan bölük üzvləri dərhal onların başının üstünü kəsirdilər, bu mənfurlara elə dərs verirdilər ki, gəldikləri yol yadlarından çıxırdı.

Belə hadisələr çox olub. Günlərin birində daşnak silahlı dəstələri Böyük Vedi ilə Millidərə kəndlərinin əlaqəsini kəsib camaatı qırmaq, kəndi talamaq istəyirlər. Bu barədə Abbasqulu bəyə məlumat çatan kimi öz dəstəsini götürüb gecə ilə yollanır ermənilərin üstünə. Şorbulaq dağlarının dolama yolları ilə Yovşanlı düzə qalxıb İlanlı dağın qarşısındakı Sərinbasarla Seyidkotanlı kəndlərinin yaxınlığında səhərə yaxın onların qabağını kəsir. Şiddətli atışma başlanır. Bu vaxt "Mübariz dəstə"nin başqa silahlı bölükləri, o cümlədən Hacı Mirzə tərəfdən Sultan xanın və Mirzə oğlu Həbibin dəstələri köməyə çatır, duruş gətirə bilməyən daşnak qoşunları itki verə-verə geri çəkilirlər.

Gecə yarısı başlanan davada ermənilərin başqa bir silahlı ordusu Millidərə kəndinə doğru irəlilədikcə Millidərənin İmirzik, Köppükənd və başqa kəndlərinin əhalisi qırğından can qurtarmaq üçün baş götürüb Gölaysora tərəf qaçır. Cahanbəxş bəyin dəstəsi xeyli itki verdiyindən sağ qalan döyüşçülər müdafiə mövqeyi seçərək vaxt əldə etməklə qadın və uşaqları kənddən çıxarmağa çalışırdılar. Abbasqulu bəy başda olmaqla, "Mübariz dəstə"nin silahlı bölükləri döyüşlərin son saatlarında özlərini Millidərəyə çatdırırlar. Az vaxtda vəziyyət dəyişir və erməni qoşunları itki verərək axşama yaxın Millidərəni (buraya İmirzik, Qaladibi, Körpükənd, Böyük Gilannar, Yerlicə, Bayqurt, Çıraq, Gilayşor və s. kəndlər aiddir) tamamilə tərk edirlər.

### Tarixi sənədlərə əsasən....

Şahidlərin dediklərinə və tarixi sənədlərə əsasən, 1918-ci ilin mayında erməni silahlıları Ağdağın Böyük Vedi istiqamətində özlərinə hərbi-döyüş istehkamları düzəldəndə vedibasarlıların narahatlığı daha da artır. Buna görə Abbasqulu bəy hücum güman edilən ərazilərdə silahlı dəstələr yerləşdirir, Daşlı və Gavurqala istiqamətlərində güclü müdafiə istehkamları yaradır. Hadisələrin cərəyan etdiyi Vedibasarda doğulub boya-başa çatan yazıçı Fərman Kərimzadə "Qarlı aşırım" romanında bu barədə yazır: "...Axşamlar kəndin üstündəki qayada Xəlilin pulemyotu "oxuyardı" - kəklik yerinə... Bir neçə saniyə. Sonra susardı. Tək-tük tüfəng səsləri eşidilərdi. "Görəsən, bunun axırı hara gedib çıxacaq? Vadiyə sığınmış bu kəndin köməyinə kim gələcək? Heç kəs! Özümüz!" - deyə Abbasqulu bəy qərar çıxarardı".

Bir neçə gündən sonra səhərə yaxın Böyük Vedinin şimalından - Ağdağ tərəfdən kəndə top mərmiləri yağdırılır, Qəmərli-Dəvəli stansiyaları arasında hərəkət edən ermənilərə məxsus zirehli qatar Vedibasarın dəmiryolu xətti boyunca yerləşən Qaralar, Şirazlı, Avşar və başqa kəndləri top və pulemyot atəşinə tutur, əhalini qaçmağa məcbur edirlər.

Baş gərnili daşnak Artuşun quldur dəstəsi Şorbulaq istiqamətindən Böyük Vediyə soxulmağa can atırdı. Lakin güclü müqavimətə rast gələrək çoxlu itki verib geri çəkilirlər. Buna baxmayaraq, erməni silahlıları Vedibasar mahalının içərilərinə irəliləməkdə davam edirlər. Axşama doğru mahalın dəmiryol ətrafı kəndlərinin bəziləri, o cümlədən Şirazlı, Qaralar ermənilər tərəfindən işğal edildikcə əhali Böyük Vediyə axışırdı. Hava qaralhaqaralda Yengicə və Taytan kəndləri ermənilərin əlinə keçir. Bununla da Böyük Vedi üç tərəfdən mühasirəyə alınır.

Vahimə içində olan əhali kənddən qaçıb Göyqum təpəsinin Həmdəm dərəsinə sığınır. Bütün günü müdafiə döyüşləri aparmasına və bu müddətdə ermənilərin xeyli irəliləməsinə baxmayaraq, hava qaralanda Abbasqulu bəy Sultan xanın, Mirzə oğlu Həbibin və Kərbəlayı Müseyibin ehtiyat bölüklərini mövqelərindən çıxararaq Şorbulaq istiqamətində hücuma keçmələrini tapşırır. Xəbəri eşidən Abbasqulu bəyin yaxın dostu Kərbalayi İsmayıl dərhal öz dəstəsi ilə döyüş yerinə gedir, həmin cəbhədə ermənilərə qarşı hücuma qatılır. Düşmənin Böyük Vedinin içərilərinə irəliləməsinə imkan verməyən Abbasqulu bəy özü isə dəstəsini var gücü ilə ermənilərin üzərinə əkshücuma aparır. Bir neçə saata Vedibasarı tamam ələ keçirəcəklərini zənn edən ermənilərə qarşı elə bir hücum və şiddətli döyüşlər başlanır ki, gəl görəsən. Sürətlə irəliləyən "Mübariz dəstə"nin ehtiyat hissələri ilə Abbasqulu bəyin kəndin əks istiqamətində ermənilərin mövqelərini darmadağın edən atlı dəstələri ilə dəmiryol xəttinin üstündə birləşirlər. Bununla həm də ermənilərin işğal altında saxladıqları müsəlman kəndləri Vedibasar qüvvələrinin nəzarətinə keçir. Abbasqulu bəyin bir az əvvəl göndərdiyi könüllülər Qəmərli istiqamətindəki dəmiryol körpüsünü partladırlar.

Vedibasarlıların qələbəsi ilə başa çatan bu döyüşlərdə sakinlərinin çoxluğuna görə erməni kəndləri hesab olunan Reyhanlı və Dəvəlinin də taleyi həll olunur. Belə ki, daşnaklar şiddətli müqavimətlə üzləşəndə bu kəndlərin sakinləri gecə ikən arvadlarını, qızlarını evdə qoyub, əmlaklarını götürüb qaçmışdılar.

Hücumları hər dəfə məğlubiyyətə düçar olan ermənilər növbəti dəfə öz xislətlərinə uyğun hiyləyə əl atırlar: İrəvan qəzasının komissarı, milliyyətcə erməni olan Əmirxanov Vediyə gəlir, inzibati cəhətdən ona tabe olan İrəvan qəzasının dördüncü sahə komissarı Abbasqulu bəy Şadlinski ilə görüşür, ona dövlət adamı olduğunu xatırladaraq Vedibasarda İrəvan erməni hökumətinin maraqlarını həyata keçirməyə borclu olduğunu bildirir. Söhbət zamanı erməni hökumətinin tövsiyələri baxımından Vedibasarın Türkiyə ilə sərhəd kəndlərinin əhalisinin köçürülməsi, camaatdan silahların yığılması tələblərini gündəmə gətirir. Əvəzində isə Abbasqulu bəyə komissar vəzifəsində saxlanılacağını vəd edir.

Abbasqulu bəydən çox ciddi şəkildə rədd cavabı alan Əmirxanov Qəza mərkəzinə üzüqara qayıdır. Bundan sonra Əmirxanov daşnak komitəsinin daxili işlər nazirinə Abbasqulu bəy Şadlinskinin İrəvan qəzasının dördüncü sahə komissarı vəzifəsindən azad edilməsi barədə raportla müraciət edir. Əmirxanovun xahişinə əsasən, nazirliyin 3 iyul 1918-ci il tarixli 1 nömrəli əmri ilə Abbasqulu bəy tutduğu vəzifədən azad edilir.

İstər Göyçə, Dərələyəz və Şərur mahalı olsun, istərsə də Böyük Vedi mahalı və Qəmərli tərəfləri, daşnaklar ölüm və qarətlərlə nəticələnən qırğınlara ara vermirdilər. Bu azmış kimi, 1918-ci il iyun ayının əvvəllərində quldur Andranikin Naxçıvana gəlməsi ilə bu qırğınların sayı və coğrafiyası daha da genişlənir. Böyük Vedi ətrafındakı kəndlərə bir neçə dəfə Dronun, Aramın, Dəli Kazonun başçılıq etdiyi silahlı quldur dəstələri və Bek-Primovun daşnak polku hücumlar edirlər. Onlarca kənd yandırılır və camaat qılıncdan keçirilir. Türkləri qırmaqla və onlara məxsus evləri talamaqla məşğul olan erməni quldur birləşmələri vedibasarlılar tərəfindən darmadağın edildikcə geriyə - əvvəlki mövqelərinə çəkilməyə məcbur olurlar. Həmin döyüşlərdə Abbasqulu bəyin rəhbərliyi altında ölüm-dirim savaşına qatılan Xəlil Mehdioğlu, İbrahim Fərzəliyev, Fərəməz bəy Mahmudbəyov, Yetim Əlioğlu Əkbər, Nəsrulla bəy Şadlinski, Ağa Şadlinski və başqaları çox böyük fədakarlıqlar göstərirlər.

### Erməni hiyləsinin qurbanı

Azərbaycanda kolxoz quruculuğu zamanı Abbasqulu bəy Şadlinski Dəvəli sement zavodunun direktoru vəzifəsində çalışırdı. Erməni terrorçuları Abbasqulu bəyi hansı yolla olursa-olsun aradan götürmək üçün ölümünə yüksək məbləğdə pul qoymuşdular. Amma istədiklərinə nail ola bilmirdilər. 1930-cu ilin yanvar ayı idi, Vedinin aran kəndlərinə kolxoz quruculuğunu məcburi qəbul etdirsələr də, dağ kəndlərində sovetləşməyə, kolxoz quruculuğuna qarşı etirazlar gündən-günə güclənirdi. Abbasqulu bəyin yaxın dostu və silahdaşı olmuş Kərbəlayı İsmayıl yeni quruluşla barışa bilmirdi. Kərbəlayı İsmayılla yeni quruluşun tərəfdarları arasında günaşırı silahlı münaqişə baş verirdi.

Bolşeviklərlə işbirliyində böyük fəallıq göstərən ermənilər Abbasqulu bəyi aradan götürmək üçün hiyləyə al atırlar. Siyasi İdarənin xətti ilə Abbasqulu bəydən xahiş edirlər ki, "qolçomaq Kərbəlayı İsmayıl dostundur və sənin xətrini çox istəyir, get onunla söhbət elə, silahı yerə qoysun, camaat çıxıb getsin evinə". Bundan əvvəl də ermənilər bir nəfər hörmətli el ağsaqqalını Kərbalayı ilə görüşə getmək adı ilə özlərilə dağ kəndinə aparmış, yolda güllələyərək, onu əksinqilabçılar vurdular deyə, istəklərini həyata keçirmişdilər.

Bir yanı hörmət, bir yanı da dövlət tapşırığı olduğundan Abbasqulu bəy razılıq verməli olur. Bu "razılaşma"dan istifadə edən ermənilər dərhal gizli yolla Kərbəlayı İsmayıla çatdırırlar ki, dostun Abbasqulu bəy səni axtarır, görüşmək istəyir, görüşən zaman mühasirəyə aldırıb səni bolşeviklərə təhvil verdirəcək.

Abbasqulu bəy yanında Siyasi İdarənin nümayəndəsi Talıbov, NKVD rəsmiləri və digər nümayəndələr olmaqla dağ kəndinə Kərbəlayı İsmayılla söhbətə gedir. Ermənilərin kələyi ilə Kərbalayı bu görüşdən yayınır. Beləliklə, erməni bolşeviklər həm iki dost və el ağsaqqalının ürəyinə şübhə toxumu səpir, həm də baş tutmayan görüşdən qayıdanda Abbasqulu bəyi, dostu Xəlil ağanı və adı məlum olmayan digər silahdaşını arxadan vururlar. Bu hadisədən bərk narahatlıq keçirən Vedibasar camaatı xalq qəhrəmanı Abbasqulu bəyi və silahdaşlarını 1930-cu il yanvar ayının qarlı-şaxtalı günlərində böyük ehtiramla Böyük Vedi kənd orta məktəbinin qarşısında dəfn edirlər.

Amma ailənin faciəsi bununla da bitmir. 6 uşaq atası (qızları Mafərə, Tacirə, Laçın, oğlanları Məhəmməd, İsgəndər, İsfəndiyar) Abbasqulu bəy Şadlinskinin ailəsi 1948-ci ilin qızmar yay aylarında deportasiyaya məruz qalır. Böyük oğlu Məhəmmədin taleyi məlum olmasa da, ikinci oğlu İsgəndər Böyük Vətən müharibəsində həlak olur, sonbeşik övladı İsfəndiyar isə İmişlidə məskunlaşaraq orta məktəbdə müəllim işləyir. Hazırda onun nəsil davamçıları İmişlidə və ölkəmizin digər bölgələrində yaşayırlar. Təsəllili odur ki, 140 illik yubileyi qeyd edilən, xalqımızın yaşam hüququ və torpaqlarımızın azadlığı uğrunda mübarizədə silinməz izlər qoymuş Abbasqulu bəy Şadlinskinin millət qarşısındakı xidmətləri unudulmur.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● 2026 - "Şəhərsalma və Memarlıq İli"

**Onun xatirəsini bir zamanlar təəssübkeşliklə təbliğ etdiyi, böyük əzmlə, yorulmaq bilmədən araşdırdığı, dərindən öyrəndiyi, bərpası ilə məşğul olduğu, bu gün dövlətimiz tərəfindən xüsusi qayğı ilə qorunan onlarca, yüzlərlə abidə yaşadır. Söhbət Azərbaycan milli sənətşünaslıq məktəbinin banilərindən biri, memar, professor Əbdülvahab Salamzadədən gedir.**



# Memarlıq abidələrimizin yorulmaz tədqiqatçısı

Əbdülvahab Salamzadə 1916-cı il fevralın 16-da elm və mədəniyyətimizin qədim mərkəzlərindən olan Şamaxıda dünyaya gəlib. 1939-cu ildə Azərbaycan Sənaye İnstitutunu bitirib "Azərdövlətyihə"də memar kimi fəaliyyətə başlayan Ə.Salamzadə 1944-1947-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsil alıb. O, milli memarlıq tariximizi öyrənən ilk alimlərdən biri olub. Azərbaycan memarlıq məktəblərinin müəyyənləşdirilməsində və hərtərəfli tədqiqində onun misilsiz rolu var.

Azərbaycan dünya memarlıq tarixinə Əcəmi Naxçıvani kimi qüdrətli sənətkarlar bəxş edib. Lakin uzun illər milli xüsusiyyətləri və özünəməxsusluğu ilə seçilən Azərbaycan memarlığı ətraflı öyrənilməyib. Bu sahədə yaranmış boşluq bir sıra problemlərə yol açıb. Məmləkətimizin bənzərsiz abidələri haqqında bəzən yanlış yozumlar irəli sürülüb, onların digər xalqların mədəni təsiri ilə yarandığı kimi həqiqətdən uzaq fikirlər səsləndirilib. Belə bir dövrdə Əbdülvahab Salamzadə Azərbaycan şəhərsalma tarixinin ilk tədqiqatçılarından biri olub. O, qədim Şuşa, Şəkinin şəhərsalma mədəniyyətini tədqiq edib.

1976-cı ildən Azərbaycan Sovet Ensiklopediyası (ASE) elmi redaksiya şurasının üzvü kimi fəaliyyət göstərən Ə.Salamzadə Azərbaycanın bir çox memarlıq abidəsinin bərpa layihələrinə tərtibat verib. O, Molla Pənah Vaqifin 1982-ci ildə Şuşada açılmış türbəsinin müəllifidir.

Azərbaycan memarlığının ilk tədqiqatçılarından biri kimi Əbdülvahab Salamzadə öz elmi fəaliyyəti ilə xeyli qaranlıq məqamların aydınlaşdırılmasına nail olub, mühüm tarixi faktları üzə çıxarıb. 1948-ci ildə namizədlik, 1964-cü ildə doktorluq dissertasiyalarını müdafiə edən tədqiqatçı 967-ci ildə professor elmi adını alıb, 1968-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1983-cü ildə isə həqiqi üzvü seçilib. 1951-1957-ci illərdə Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunda şöbə müdiri, 1957-1983-cü illərdə isə direktor müavini vəzifələrində çalışıb. Görkəmli alim 130-dan artıq elmi əsərin və eləcə də 15 monoqrafiyanın müəllifidir. Onun ayrı-ayrı illərdə nəşr olunan "Abidələr danışır" (Bakı, 1952), "Azərbaycan memarlıq abidələri" (1958), "Əcəmi Naxçıvani" (1976), "Arazboyu abidələr" (K.Məmmədzadə ilə birgə; 1979) və digər əsərləri memarlıq və sənətşünaslıq elminə dəyərli töhfələr verib. Əbdülvahab Salamzadənin M.Hüseynov və L.Bretanitski ilə birgə hazırladığı, rus dilində Moskvada çap olunan "Azərbaycan memarlıq tarixi" adlı fundamental əsəri milli memarlıq tariximizin ən sanballı mənbələrindən sayılır.

Əbdülvahab Salamzadə pedaqoji fəaliyyətlə də məşğul olub. 1948-1952-ci illərdə indiki Bakı Dövlət Universitetinin Sənətşünaslıq bölməsində dərs deyib, 30-a yaxın doktorluq və namizədlik dissertasiyasının elmi rəhbəri olub. O, 1962-ci ildən Azərbaycan Tarix və Mədəniyyət Abidələrini Mühafizə Cəmiyyətinin sədr müavini, Azərbaycan Mədəniyyət Nazirliyinin kollegiya üzvü, SSRİ Memarlar İttifaqı İdarə Heyətinin üzvü, Azərbaycan Elmlər Akademiyasının Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibinin müavini kimi fəaliyyət göstərib.

Alim, pedaqoq və ictimai xadim kimi Ə.Salamzadənin fəaliyyəti bunlarla məhdudlaşmayıb. O, tarixi abidələrin bərpasında yaxından iştirak edib. Bir çox Azərbaycan abidəsi və sənətkarlıq nümunəsinin aşkar edilməsi və ilkin tədqiqi, Aran, Təbriz və Naxçıvan memarlıq məktəblərinin elmi şəkildə müəyyənləşdirilməsi bilavasitə onun adı ilə bağlıdır. Ömürboyu Azərbaycanın müxtəlif bölgələrini gəzərək xalqımızın tarixi qədimliyini və mənəvi zənginliyini əks etdirən abidələrin vəziyyətini araşdıran, onların ölçülərinin götürülməsində və bərpa eskizlərinin hazırlanmasında iştirak edən görkəmli alimin yorulmaz fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. O, 1960-cı ildə Əməkdar inşaatçı, 1982-ci ildə isə Əməkdar elm xadimi fəxri adlarına layiq görülüb, "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilib.

Akademik Əbdülvahab Salamzadə 1983-cü il avqustun 19-da dünyasını dəyişib. Bu gün Əbdülvahab Salamzadənin zəngin elmi irsi Azərbaycan memarlıq tarixinin öyrənilməsində möhkəm təməllərdən biri kimi qalır. "Şəhərsalma və Memarlıq İli"ndə akademik Əbdülvahab Salamzadə kimi milli memarlıq irsimizin qorunması və şəhərsalma ənənələrimizin elmi əsaslarla inkişafı istiqamətində böyük işlər həyata keçirmiş alimin əməyi yenidən minnətdarlıqla yad edilir. Onun elmi irsi bu gün də tədqiqatçılar üçün etibarlı mənbə, memarlar üçün örnəkdir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# *Rəssam Rövşən NUR:* "Rəsmlərim unudulmaz qan yaddaşımız haqqındadır"

**Xocalı soyqırımı günü ilə əlaqədar rəsmlər çəkdiyim günləri xatırlayıram. Bu, sakit deyil, xatirələrin ağırlığı ilə dolu qəlbimdə yaranan özəl bir sükut idi. Susaraq demək istədiyim çox şey vardı. Ağrı, kədər, şəfqət, çarəsizlik... Eyni zamanda məsuliyyət hiss edirdim. Bu məsuliyyət nəyisə təhrif etməmək, bayağılaşdırmamaq, "gözəl" deyil, dürüst olmaqla bağlı idi.**




Rəssam Rövşən Nur AZƏRTAC-a müsahibəsində Azərbaycanın Xocalı şəhərində baş vermiş faciəli hadisələrə həsr etdiyi rəsm əsərləri üzərində işini belə təsvir edib. Onun tabloları müxtəlif Avropa ölkələrində dəfələrlə sərgilənib və beynəlxalq auditoriyanın diqqətini cəlb edib.

"Hər bir əsər çətinliklə yaranırdı. Rəsm çəkməyi dayandırdığım anlar olurdu, amma təkrar-təkrar işləməyə davam edirdim. Çünki bunu niyə etdiyimi bilirdim. Bu rəsmlər təkcə faciədən bəhs etmir, onlar itirilə bilməyən qan yaddaşımız və unudulmayan insan həyatları haqqındadır.

Zaman keçdikcə bu əsərlər emalatxanadan və ölkədən kənara çıxdı. Onlar Avropa ölkələrində sərgilənməyə başladı. Hər dəfə qəribə bir qürur və sükunətli ağrı qarışıq hisslər keçirirdim. Bu, həqiqətin insanların qəlbinə yol tapması ilə əlaqədar qürur və həmin həqiqətin səbəbinin belə dəhşətli bir faciə olması ilə bağlı ağrı idi. Bu mövzuda sonuncu sərgi ötən il Parisdə keçirildi və müxtəlif mədəniyyətlərdən olan fərqli dillərə mənsub insanların rəsmlərimin qarşısında necə dayanıb susduğunu görmək mənim üçün xüsusilə təsirli oldu. Bəzən bu sükut istənilən sözdən daha çox şeyi ifadə edir", - deyə müsahibimiz qeyd edib.

Rəssam Estoniyada yaşayır və işləyir. Onun sözlərinə görə, Xocalı faciəsinə həsr olunmuş sərgi hər il Tallində də keçirilir.

## Demoqrafiya

# Ötən il ölkə əhalisinin sayı 37,4 min nəfərdən çox artıb

Dövlət Statistika Komitəsi ötən ilin demoqrafik göstəricilərini açıqlayıb. Məlumatda ölkə əhalisinin sayı, doğum və ölüm, nikah və boşanmalara aid vəziyyət öz əksini tapıb. Rəqəmlər eləcə də miqrasiya haqqında aydın təsəvvür yaradır.

Beləliklə, 2025-ci ildə ölkə üzrə əhalinin sayı 37 min 462 nəfər və ya 0,4 faiz artaraq 2026-cı il yanvarın 1-i vəziyyətinə 10 milyon 262 min 351 nəfərə çatıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair 1 Dövlət Proqramı"na əsasən, bu il fevralın 1-dək işğaldan azad edilmiş ərazilərə 27 min 123 nəfər keçmiş məcburi köçkün geri qayıdıb. Bununla da işğaldan azad olunmuş ərazilərdə yaşayan, fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı 74 min 750 nəfər təşkil edib.

Ölkə əhalisinin 54,3 faizi şəhər, 45,7 faizi kənd sakinləridir. Cari ilin əvvəlinə əhalinin 4,6 faizi Naxçıvan Muxtar Respublikasında, 23 faizi Bakı şəhərində, 9,2 faizi Lənkəran-Astara, 8,6 faizi Abşeron-Xızı, 7,3 faizi Qarabağ, 7,1 faizi Mərkəzi Aran, 6,6 faizi Qazax-Tovuz, 6,1 faizi Şəki-Zaqatala, 5,8 faizi Gəncə-Daşkəsən, 5,4 faizi Quba-Xaçmaz, 5,2 faizi Mil-Muğan, 4,9 faizi Şirvan-Salyan, 3,2 faizi Dağlıq Şirvan, 3 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayıb. Ölkə üzrə bir kvadratkilometrə düşən



əhalinin sayı 119 nəfər olub. Hazırda ölkə əhalisinin 49,8 faizini kişilər, 50,2 faizini qadınlar təşkil edir. Əgər ötən illərin müvafiq göstəricilərinə diqqət yetirsək, qadınların sayının azaldığının şahidi olarıq. Bunun da başlıca səbəbi qız uşaqlarının dünyaya göz açmağa macal tapmamış məhv edilməsidir. Təbiətin özünün yaratdığı mütənasibliyə əl qaldırmaq, əslində, genofondumuza vurulan ağır zərbədir. Biz bunun ağrısını yaxın gələcəkdə hiss edəcəyik. Odur ki, bu mövzunun gündəmdən düşməməsi təsadüfi deyil. Deyilənləri statistik rəqəmlər də təsdiq edir.

2025-ci ildə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 95 min 875 doğulan körpə qeydə alınıb və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10-dan 9,4-ə düşüb. Doğulan körpələrin 3170-i əkiz, 117-si isə üçəmdir.

Ölkə üzrə doğulan körpələrin 53,1 faizi oğlan, 46,9 faizi qız uşaqlarıdır. Təbiətin qoyduğu normada isə bu rəqəmlər müvafiq olaraq 51 və 49 faiz təşkil edir.

Bəs regionlar üzrə doğumun səviyyəsi necədir? Statistik rəqəmlər göstərir ki, əhalinin hər 1000 nəfərinə doğum səviyyəsi Dağlıq Şirvan (11,8), Qarabağ (11,3), Lənkəran-Astara (11,2), Şərqi Zəngəzur (11,1), Mil-Muğan (10,8), Şirvan-Salyan (10,7), Qazax-Tovuz və Mərkəzi Aran (10,6), Quba-Xaçmaz (10,5) iqtisadi rayonlarında ölkə göstəricisindən (9,4) yüksək olub.

Ötən il ölkədə 59 min 834 ölüm halı qeydə alınıb və ondan əvvəlki illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici dəyişməyərək eyni səviyyədə (5,8) qalıb. Ölənlərin 3,8 faizi 0-17 yaşda, 9,8 faizi 18-49 yaşda, 23,8 faizi 50-64 yaşda, 62,6 faizi isə 65 və yuxarı yaşda olub.

Qeyd edək ki, son illər ərzində Azərbaycanda ölümün səviyyəsi ya azalıb, ya da dəyişməz olaraq qalıb. Bu da ölkəmizdə insanların həyat səviyyəsinin yüksəlməsindən, onlara göstərilən tibbi xidmətin daha da yaxşılaşmasından qaynaqlanır. Bir mühüm səbəb də xalqımızın milli-mənəvi dəyərlərindən irəli gəlir. Kədəri bölmək, sevincə şərik çıxmaq, yaşlılara hörmət və qayğı ilə yanaşmaq kimi xüsusiyyətlərimiz ömrü uzadan şərtlərdəndir.

Dövlət Statistika Komitəsi Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrinin məlumatlarına istinadən bildirir ki, keçən il ərzində ölkədə 48 min 546 nikaha daxilolma və 20 min 675 boşanma halları qeydə alınıb. 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,9-dan 4,7-yə düşüb. Cavanların toy qurmağa tələsməməsi, ailə ocağı yandırmağa ləngiməsi, əlbəttə, təəssüf doğurur. Boşanmaların sayının 2,1-dən 2-yə enməsi isə xoş bir xəbərdir. Bir mahnıda deyildiyi kimi, təki "belə ola həmişə!".

Nikaha daxilolma səviyyəsi Qarabağ (5,7), Şərqi Zəngəzur (5,6), Dağlıq Şirvan, Lənkəran-Astara və Mil-Muğan (5,1), Şirvan-Salyan (5), Mərkəzi Aran (4,9), Bakı şəhəri və Quba-Xaçmaz (4,8) iqtisadi rayonlarında ölkə göstəricisindən (4,7) yüksəkdir.

Miqrasiyamız həmişə olduğu kimi, yenə də müsbət göstərici ilə səciyyələnir. Belə ki, ötən il Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 3436 nəfər gələn, ölkədən isə 2015 nəfər gedən qeydə alınıb. Miqrasiya saldosu ölkə üzrə müsbət 1421 nəfər təşkil edib. Bu faktın özü heç bir şərh olmadan miqrasiya haqqında aydın təsəvvür yaradır. Bununla belə vurğulayaq ki, Azərbaycanda yaşamaq və işləmək istəyənlərin sayı ilbəil artır. Həm də ötən illərdə ölkəyə gələnlər əsasən vaxtilə buranı dolanışıq üçün tərk edən soydaşlarımız idisə, indi yaşamaq üçün Azərbaycanı seçənlərin sırasında əcnəbilərin də sayı çoxalmaqdadır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


## OXUCULARIN NƏZƏRİNƏ

Hörmətli oxucular!

"Azərbaycan Nəşriyyatı"nda aparılacaq əsaslı təmir işləri ilə bağlı "Azərbaycan" qəzetinin redaksiyası aşağıda göstərilən ünvana köçmüşdür:

**Mətbuat prospekti, 23L**

**"Azərbaycan Nəşriyyatı" MMC, 4-cü mərtəbə**

# Unutqanlığı gecikdirmək mümkündür

Son illərdə aparılan elmi araşdırmalar göstərir ki, həyat tərzi seçimləri beyin sağlamlığına düşündüyümüzdən daha böyük təsir göstərir. Fiziki aktivlik, zehni məşqlər, qidalanma vərdişləri və ümumi sağlamlıq davranışları demensiya və Altsheymer xəstəliyi riskinin azalmasına kömək edə bilər. Yeni tədqiqatlar xüsusilə gündəlik hərəkət miqdarı ilə beyin funksiyaları arasında güclü əlaqə olduğunu ortaya qoyur.



Harvard Universitetinin mütəxəssisləri tərəfindən aparılan və 14 il davam edən genişmiqyaslı araşdırma gündəlik addım sayının idrak geriləməsinə təsirini öyrənib. Tədqiqat 50-90 yaş arası 294 nəfəri əhatə edib. İştirakçıların beyinlərində Altsheymer xəstəliyi ilə əlaqəli amiloid və tau zülalları aşkar edilsə də, onlarda demensiya əlamətləri hələ müşahidə olunmayıb. İştirakçılar fiziki aktivliklərini addımölçən cihazlarla izləyib, müntəzəm beyin müayinələrindən keçib və hər il koqnitiv testlərdə iştirak ediblər.

Nəticələr göstərib ki, daha yüksək fiziki aktivlik beyində zərərli zülal yığıntılarının təsirini zəiflədir və düşünmə-yaddaş bacarıqlarının azalmasını yavaşladır. Xüsusilə tau zülalının yığılma sürətində azalma müşahidə olunub. Gündə 3000-5000 addım atan insanlarda belə müsbət təsir görünüb, 5000-7500 addım aralığında isə daha böyük fayda əldə edilib. Bu nəticələr göstərir ki, intensiv idman etmədən belə gündəlik aktivliyin artırılması beyin sağlamlığını qorumağa kömək edə bilər.

Tədqiqatçı Tara Spires-Jones qeyd edib ki, gündə 5000 addımdan çox hərəkət etmək xəstəliklə əlaqəli beyin patologiyasını və idrak zəifləməsini ləngidə bilər. Onun sözlərinə görə, hətta erkən Altsheymer patologiyası olan şəxslər 3000 addımdan artıq aktivlikdən fayda görə bilərlər. Mütəxəssis vurğulayıb ki, fiziki fəaliyyət beyin sağlamlığı üçün vacib olsa da, demensiyanın qarşısını almağa tam zəmanət vermir. Nevroloq Çarlz Marşall isə bildirib ki, aktiv insanların digər sağlam həyat tərzi üstünlükləri də nəticələrə təsir edir. Buna baxmayaraq, o, orta səviyyəli fiziki aktivliyin Altsheymer xəstəliyinin erkən mərhələlərinin irəliləməsini zəiflətdiyinə dair güclü dəlillərin mövcud olduğunu vurğulayır.

Mütəxəssislər bildirirlər ki, bu gün doğulan hər üç nəfərdən birinin demensiya ilə qarşılaşacağı ehtimal edilir. Bununla belə mövcud tədqiqatlar riskin azaldıla biləcəyini göstərir. Ürək üçün faydalı olan davranışların beyin sağlamlığı üçün də əhəmiyyətli olması bu nəticələrlə bir daha təsdiqlənir.

Fiziki hərəkətlilik demensiyanın qarşısının alınmasında mühüm rol oynasa da, tədqiqatlar göstərir ki, koqnitiv təlimlər də beyin sağlamlığının qorunmasına kömək edə bilər. 1998-1999-cu illərdə başlayan "Advanced Cognitive Training for Independent and Vital Elderly (ACTIVE)" adlı tədqiqatda 2800-dən çox iştirakçı yaddaş, düşüncə və ya emal sürəti üzrə təlim qruplarına bölünüb. İştirakçılar beş-altı həftə ərzində hər biri 60-75 dəqiqə davam edən seanslarda iştirak ediblər. Bəzi iştirakçılar sonrakı aylarda əlavə möhkəmləndirmə məşqləri də alıblar. 20 illik müşahidənin nəticələri göstərib ki, emal sürəti təlimi alan qrupda demensiya diaqnozu təxminən 25 faiz daha az olub. Yaddaş və düşüncə təlimləri isə uzunmüddətli dövrdə oxşar təsir göstərməyib.

Tədqiqatın aparıcı müəllifi, "Johns Hopkins University School of Medicine Alzheymer" tədqiqat mərkəzinin direktoru Merilin Albert bu nəticələri "dərmansız müdaxilənin uzunmüddətli təsirinin diqqətəlayiq sübutu" kimi qiymətləndirib. Alimlər hesab edirlər ki, sürət təliminin effektivliyi onun adaptiv xarakteri ilə bağlıdır: tapşırıqlar iştirakçının performansına uyğun çətinləşdirilir və ya sadələşdirilir. Bu üsul "gizli öyrənmə" mexanizminə əsaslanır və bacarıqların avtomatlaşmasına kömək edir.

Beyin sağlamlığının qorunmasında qidalanmanın rolu da getdikcə daha çox diqqət çəkir. Tədqiqatçılar müəyyən pəhriz modellərinin Altsheymer xəstəliyinə qarşı qoruyucu təsir göstərə biləcəyini təsdiqləyən ümidverici nəticələr əldə ediblər. Onların araşdırmasında Aralıq dənizi pəhrizi elementləri ilə birləşdirilmiş ketogenik qidalanma rejiminin bağırsaq mikrobiotası və beyin sağlamlığı üzərində təsiri öyrənilib. Ketogenik pəhriz yüksək yağlı və proteinli, aşağı karbohidratlı qidalanma modelidir. Karbohidrat qəbulunun azalması nəticəsində bədən enerji üçün ketonlardan istifadə etməyə başlayır. Lif və antioksidantlarla zəngin Aralıq dənizi üslubu ilə birləşdirildikdə isə bu pəhriz meyvə, tərəvəz, balıq və zeytun yağı kimi qidalara üstünlük verir.

Araşdırmada iştirak edən şəxslərin bir qismi yüngül yaddaş problemləri yaşayıb, digərləri isə idrak baxımından sağlam olub. Nəticələr göstərdi ki, bu pəhriz bağırsaq bakteriyalarında dəyişikliklər yaradaraq beyin siqnallarının tənzimlənməsində rol oynayan mexanizmlərə təsir göstərir. Mütəxəssislər bildirirlər ki, düzgün qidalanma, müntəzəm fiziki aktivlik və ürək-damar sağlamlığının qorunması koqnitiv geriləmənin qarşısının alınmasında əsas rol oynayır. Yüksək qan təzyiqi, diabet və B12 vitamini çatışmazlığı kimi risk faktorlarının idarə olunması da beyin sağlamlığı üçün vacibdir.

Demensiya yalnız unutqanlıq deyil, o, insanın gündəlik fəaliyyətlərini yerinə yetirmə qabiliyyətini zəiflədən və müstəqil həyatını çətinləşdirən kompleks idrak pozuntusudur. Bu səbəbdən xəstəliyin başlanmasının hətta bir neçə il gecikdirilməsi belə ictimai səhiyyə və səhiyyə xərcləri baxımından böyük əhəmiyyət daşıyır.

Mövcud elmi sübutlar göstərir ki, beyin sağlamlığını qorumaq üçün möcüzəvi tək bir üsul yoxdur. Lakin gündəlik hərəkəti artırmaq, zehni aktivliyi stimullaşdırmaq, sağlam qidalanmaq və xroniki xəstəlikləri nəzarətdə saxlamaq demensiya riskini azaltmağa və yaşlandıqca idrak funksiyalarını qorumağa kömək edir. Sadə görünən addımlar - hər gün bir qədər daha çox yerimək, beyni məşq etdirmək və sağlam həyat tərzi seçmək uzunmüddətli perspektivdə beyin sağlamlığının qorunmasında həlledici rol oynaya bilər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Zelenski və Tramp Rusiya ilə dialoq barədə müzakirələr aparıblar

## Cenevrədə planlaşdırılan üçtərəfli görüş isə təxirə salınıb

Ukrayna Prezidenti Volodimir Zelenski ilə amerikalı həmkarı Donald Tramp arasında telefon danışığı olub. Onlar Ukrayna ilə Rusiya arasında danışıqlar prosesini müzakirə ediblər. Ukrayna lideri bunu "Teleqram" kanalında açıqlayıb. O, həmçinin bildirib ki, Ukrayna, Rusiya və ABŞ arasında danışıqların yeni mərhələsi martın əvvəlinə qədər təxirə salınıb. Səbəblərini isə açıqlamayıb.



"Nümayəndələrimizin Cenevrədə ikitərəfli görüşdə üzərində işləyəcəkləri məsələləri, eləcə də martın əvvəlində tam üçtərəfli formatda danışıqlar qruplarının növbəti görüşünə hazırlıqları müzakirə etdik", - deyə V.Zelenski bildirib. Onun dediyinə görə telefon söhbətində Trampın təmsilçiləri Stiven Uitkoff və Cared Kuşner də Amerika tərəfindən iştirak ediblər.

Zelenski ümid etdiyini bildirib ki, Ukrayna və Rusiya arasında növbəti görüşlər liderlər səviyyəsində danışıqlara keçməyə imkan verəcək və Tramp bu addımların ardıcıllığını dəstəkləyir. Ukrayna lideri üç ölkənin nümayəndə heyətlərinin görüşünün təxirə salınmasının səbəbini açıqlamayıb. Xatırladaq ki, görüşün fevral ayının sonundan əvvəl baş tutması gözlənilirdi.

Donald Trampın Ukrayna üzrə xüsusi nümayəndəsi Stiven Uitkoff əvvəllər ABŞ nümayəndə heyətinin fevralın 26-da Cenevrədə Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşəcəyini bildirmişdi. Uitkoffun sözlərinə görə, Rusiya nümayəndə heyəti ilə danışıqlar yəqin ki, növbəti 10 gün ərzində aparılmalıdır.

TASS Agentliyininn məlumatına əsasən, Rusiya Prezidentinin xüsusi nümayəndəsi Kirill Dmitriyev Donald Trampın elçiləri ilə görüşmək üçün fevralın 26-da Cenevrəyə uçub və tərəflər ancaq iqtisadi məsələləri müzakirə ediblər. "Reuters" Agentliyi xəbər verir ki, bu, Vladimir Putin və Donald Trampın Avropadakı nümayəndələri arasında bir həftə ərzində ikinci görüş olub. Fevralın 23-də tərəflər həmçinin Cenevrədə Nüvə Silahlarına Nəzarət Müqaviləsinin (Yeni START) yenidən baxılmasını müzakirə etmək üçün danışıqlar aparıblar.

ABŞ-nin vasitəçiliyi ilə Ukrayna və Rusiya arasında danışıqlar yanvarın 23-dən davam edir. Həmin vaxt üç ölkənin nümayəndə heyətləri Əbu-Dabidə görüşüblər. Bundan sonra fevralın 4-5-də BƏƏ-də növbəti danışıqlar raundu keçirilib. 17-18 fevral tarixlərində isə nümayəndə heyətləri Cenevrədə görüşsələr də, sülhə doğru heç bir irəliləyiş əldə olunmayıb.

Rusiyanın Ukraynaya qarşı müharibəsinə son qoymaq üçün aparılan danışıqlarda ən mübahisəli məsələlərdən biri Moskvanın Donbasın işğal olunmamış əraziləri ona döyüşsüz təslim edilməsi tələbidir. Kiyev bu cür ərazi iddialarını rədd edir, lakin bildirir ki, kompromis variantları axtarmağa hazırdır. V.Zelenskinin əvvəllər də qeyd etdiyi kimi, belə variantlardan biri hazırkı təmas xətti boyunca hərbi əməliyyatların dayandırılması olardı.

Fevralın əvvəlində Ukrayna Prezidenti həmçinin qeyd etmişdi ki, Rusiya qüvvələrinin 2022-ci ilin martında ələ keçirdiyi Zaporojye Atom-Elektrik Stansiyasının idarəetmə məsələsi də həll olunmayıb. "Reuters"in əvvəllər verdiyi məlumata görə, Ukrayna stansiyanın nəzarətini geri qaytarmaqda israrlıdır, Moskva isə hətta nəzarətin ABŞ-yə verilməsini də qəbul etmir. V.Zelenskinin sözlərinə görə, bu məsələ kompleks şəkildə həll olunmalıdır, məsələn, Kaxovka Su-Elektrik Stansiyasının bərpası ilə birlikdə. Bunların fonunda Avropanın ən böyük nüvə-elektrik stansiyası atəşlərin fəsadlarından zərər çəkməkdə davam edir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3317**
**Sifariş 274**

**Qiyməti 60 qəpik**